# Pisliyin səssiz dili

Yoxsa pis əməllərə batıb yara alanlar onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər?! Necə də pis hökm verirlər! (Casiyə surəsi, 21)

Harun Yəhya

# İçindəkilər

Giriş

Qurana görə yaxşılıq və pislik

Pisliyin mənbəyi; nəfs və şeytan

Şeytanın dini və gizli üsulları

Pisliyin səssiz dilini danışanlar

Neqativliklərini və narazılıqlarını pisliyin gizli dili ilə ifadə edənlər

Donuq və passiv xarakterlə etiraz edənlər

Ümidsizlik və təvəkkülsüzlüyə qapılanların gizli səmimiyyətsizlikləri

Emosionallıqdan istifadə edərək səssiz dillə mübarizə aparanlar

Haqsızlığa uğradıqları iddiası ilə ortaya çıxanlar

Şeytanın məcburedici heç bir gücü yoxdur; insan axirətdə etdiyi pisliklərdən təkbaşına məsul olacaq

Nəticə

Darvinizmin süqutu

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısılə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Dünyanın harasına getsəniz də, gənc-yaşlı, kişi-qadın fərqi olmadan qarşınıza çıxan demək olar ki, hər insanın çox bildiyi ümumi bir dilin olduğunu görərsiniz. Bəlkə də həyatları boyu bir-birlərini bir dəfə belə görməyən bu insanlar, bir-birlərindən kilometrlərlə uzaqda, fərqli mədəniyyətlərin və fərqli inancların təsiri altında fərqli həyat sürür və fərqli dillərdə danışırlar. Buna baxmayaraq, hamısının çox yaxşı bildiyi, bəzilərinin isə ehtiyac duyduğu zaman, istifadə etdiyi ortaq bir dil var: bu dil “pisliyin səssiz dili”dir...

Bu, insanlara, açıq şəkildə edə bilmədikləri çirkin rəftarları, açıq şəkildə deyə bilmədikləri pis sözləri gizli yollarla bir-birlərinə ifadə etmələrini təmin edən hiyləgər bir dildir. Bəzi insanlar çox vaxt içlərindəki pisliyi açıqca göstərməkdən çəkinərlər. Çünki belə rəftarların açıqca edilməsi, ətraflarındakı insanların reaksiyasına və mənfəətlərinin zərər gəlməsinə səbəb olar. Gizli edildiyində isə çox incə və təfsilatlı üsullardan istifadə edilməsinə görə sübut edilmə riskinin böyük ölçüdə ortadan qalxdığına inanarlar. Həqiqətən də bu səssiz dillə deyilmək istənilən şeylər çox açıq şəkildə aydın olar, lakin daşıdıqları pisliklərə dair dəlil buraxmaz və buna görə də, sübutu elə də mümkün olmaz.

Bütün bunların ağla gətirdiyi əsil mühüm sual isə, bu qədər təfsilatlı qanunlara əsaslanan bir dili dünyanın hər yerindəki müxtəlif insanların haradan və necə öyrəndikləridir. Şübhəsiz ki, onlara pisliyin səssiz dilini öyrədən, onları bu gizli dili işlətməyə təşviq edən biri var; pisliyə liderlik edən bu varlıq insanlara qarşı amansız mübarizə aparan “şeytan”dır.

Şeytan, insanlara bu dili öyrətmək və onları gizlicə pisliyə sürükləmək üçün Allaha and içmişdir. Açıqca qəbul etdirə bilməyəcəyi hərəkətləri bu gizli dillə etdirər və açıqca dedirdə bilməyəcəyi pis sözləri də yenə bu gizli dillə dedirdər. İnsanları, içlərindəki pislikləri yox etmək əvəzinə, bunları gizlincə yaşamağa yönləndirər. Halbuki Allah; "...çirkin əməllərin açıq və gizli olanına yaxınlaşmayın..." (Ənam surəsi, 151) ayəsi ilə insanlara hər cür pisliyi qadağan etmişdir.

Şeytanın bu tələsinə düşən bəzi insanlar bəlkə bir çox məsələdə açıq şəkildə pislik etməkdən çəkinərlər, lakin digər tərəfdən də şeytanın əxlaqını mənimsəyər, onun dili ilə danışar və onun istədiyi kimi həyat sürərlər. İstək və məqsədlərinə, bu gizli dilin qanunlarını tətbiq edərək nail olmağa çalışarlar. Gözəl həyatı, xoşbəxtliyi, müvəffəqiyyəti, üstünlüyü, həmişə bu qaranlıq dilin üsullarını işlətməklə əldə edə biləcəklərinə inanarlar. Halbuki bu, şeytanın bir oyunudur; dolayısilə, insanlara xoşbəxtlik və hüzur bəxş etməsi qeyri-mümkündür. O, insanları təkcə ziyana sürükləyər. Allah; "ey insanlar! Yer üzündəki qidaları təmiz və halal şəkildə yeyin, şeytanın izi ilə getməyin! Həqiqətən, o, sizin açıq-aydın düşməninizdir. O, sizə təkcə pisliyi, çirkin əməlləri və Allaha qarşı bilmədiklərinizi

söyləməyinizi əmr edər" (Bəqərə surəsi, 168-169) ayələri ilə bu təhlükəyə qarşı insanları xəbərdar etmişdir.

Lakin bəzi insanlar Quranı özlərinə rəhbər etmədiyinə görə əsrlərdir ki, şeytanın bu tələsinə düşür, bədbəxtliyə sürükləndikləri halda bu sistemi yaşamaqdan və pisliyin dilini danışmaqdan imtina etmirlər. Bunun ən mühüm səbəblərindən biri isə, bu günə qədər bu dilin hiyləgər üsullarının üzə çıxardılmamış olmasıdır. Dünyada bu dili danışan minlərlə insan olduğu halda, heç biri bundan danışmır, pisliyi üzə çıxarmırlar. Çünki üzə çıxarılmaması da bu dilin ən mühüm prinsiplərindən biridir. Şeytan təkcə bu yolla öz hiyləgər sistemini davam etdirə bilir, insanlar da hiyləgərliyə əsaslanan gizli pislikləri etməyi təkcə bu şəkildə davam etdirə bilirlər. Bu ümumi dilin gizli qalması şeytanın arxasınca gedən bir çox insanın pislikdən çəkinməməsinə səbəb olur.

Dolayısilə, şeytanın sisteminin və pisliyin gizli dilinin bütün təfsilatları ilə açıqca göstərilməsi olduqca əhəmiyyətlidir. Bu vəziyyətdə bütün mübarizəsi gizlilik və hiyləgərlik əsasında qurulan şeytan, üzə çıxarılmış üsulları ilə insanlara təsir edə bilməyəcək. O, insanları təkcə hiyləgər üsulları ilə aldada bilir; onlara gözləmədikləri yerlərdən, heç gözləmədikləri mövzulardan yanaşır. İşlətdiyi üsulların bu şəkildə bütün insanlar tərəfindən bilinməsi (Allahın diləməsi ilə) onun oyunlarını zərərsizləşdirəcək.

Bununla yanaşı, "aranızda yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Nicat tapmış şəxslər məhz bunlardır" (Ali İmran surəsi, 104) ayəsi ilə bildirildiyi kimi, pisliyin qarşısını almaq, pisliyi dəstəkləyən əxlaqı ortadan qaldırmaq möminlərə düşən məsuliyyətdir. Allah Quranda insanlara nəfslərini pisliklərdən necə təmizləyəcəklərini və şeytanın pisliyi müdafiə edən əxlaqına necə qarşı çıxılacağını bildirmişdir. Yer üzündəki bütün pislikləri ortadan qaldıracaq çıxış yolu Quran əxlaqının yaşanmasıdır.

Bu kitabın məqsədi, şeytanın pisliyə çağıran və pisliyi gizlicə yaşadan sistemini, pisliyin səssiz dilini bütün təfsilatları ilə açıqlamaq, onun tələlərini puç edəcək yolları insanlara göstərməkdir. Digər bir məqsəd də; "günahın aşkarından da, gizlisindən də əl çəkin! Günah qazananlar etdikləri əməllərə görə qarşılıq alacaqlar!" (Ənam surəsi, 120) ayəsi ilə bildirildiyi kimi, pisliyin gizlisinin də, aşkarının da Allah dərgahında insanı məsul edəcəyini xatırladaraq bütün insanları Quran əxlaqını yaşamağa dəvət etməkdir.

# Qurana görə yaxşılıq və pislik

Yaxşılıq və pislik, bəlkə də insanların həyatları boyu haqqında ən çox danışdıqları və düşündükləri məhfumlardandır. İnsanların əksəriyyəti, özlərinin təyin etdiyi ölçülər çərçivəsində "yaxşı insan olmaq" və "özünü və sevdiklərini pis hərəkətlərdən, pis insanlardan qorumaq" üçün səy göstərər. Pislikdən çəkinmək üçün göstərilən bu səy, əlbəttə ki, olduqca əhəmiyyətlidir. Lakin həyatı boyu bu istiqamətdə səy göstərən bir çox insan pisliyin əslində özünə nə qədər yaxın olduğunu lazımınca düşünməmiş ola bilər. Çünki bəzi insanlar özlərinə Quranda bildirilən həqiqətləri meyar qəbul etmədikləri üçün, pisliyi, təkcə açıq şəkildə və dəqiq yaşandığı zaman pislik kimi qəbul edərlər. Məsələn, intiqam hissinin, qəzəbin, kinin, qısqanclığın, eqoistliyin, yalan danışmağın pis rəftar olduğunu demək olar ki, hamı bilər və ya kinli insanın qəzəbini, yalan danışan birisinin saxtakarlıqlarının müəyyən hissəsini görüb anlaya bilər.

Bununla yanaşı, pislik deyildikdə, ümumiyyətlə, insanların ağlına yanlış olduğu bir çox insan tərəfindən qəbul edilən; birini öldürmək, oğurluq etmək, başqasının haqqını tapdalamaq kimi təməl davranış pozuntuları gələr. Dolayısilə, bir çox insan bu hərəkətlərdən çəkinmələri, hətta bunlara yol verən insanları qınamalarından ötrü özlərini pislikdən çox uzaq görə bilərlər. Halbuki pisliyin bir də açıqca görülə bilməyən, hiyləgər və gizli yaşanan yönləri vardır ki, insanların əksəriyyəti bunların pisliyin bir hissəsi olduğunu qəbul etmək istəməz.

Bunun səbəbi isə Qurana görə yaşamayan insanların yaxşılıq və pislik anlayışları barədə özlərinə görə bəzi doğru və yanlışlarının olmasıdır. Yaxşılığı və pisliyi, öz inancları, düşüncələri, həyata olan aspektləri və ictimai tərbiyələri istiqamətində özləri təyin edirlər. Halbuki əslində yaxşılığın və pisliyin nə olduğunu öyrənə biləcəyimiz tək mənbə var; Allahın insanlara doğru və yanlış olanı bildirmək və onları qaranlıqlardan nura çıxartmaq üçün göndərdiyi haqq kitabı olan “Qurani Kərim”...

Allah Quranda yaxşılıq və pisliyin nələr olduğunu təsvir etmiş, həmçinin insanı pisliyə sürükləyən səbəbləri də açıqlamışdır. Quranda həqiqi yaxşılığın Allahdan qorxan və Allahın qoyduğu hüdudları qoruyanların davranışları olduğu bildirilmişdir:

**"...lakin yaxşılıq qorxan(ın davranışıdır)..." (Bəqərə surəsi, 189)**

Allahdan qorxub çəkinən insan qarşısına çıxan hər hadisədə, Allahın rizasına və Qurana uyğun rəftar göstərib, həyatının hər anında yaxşı davranışlar etmiş olar. Ətrafında olub-keçən bütün hadisələrin Allahın hökmranlığı altında baş verdiyini bilməsi, hər şeyə

xeyir və hikmət gözü ilə baxması, gizli və açıq etdiyi hər davranışın axirətdə qarşısına çıxacağını düşünməsi, insanı həmişə doğru düşünməyə və yaxşı davranışlar göstərməyə sövq edər. Dolayısilə yaxşılığın həqiqi mənası ilə yaşana bilməsi üçün, insan "Allahdan qorxmalı, axirətə inanmalı və özünə Allahın rizasını qazanmağı məqsəd bilməli"dir. Bu xüsusiyyətlər olmadan edilən hərəkətlər Qurana görə həqiqi yaxşılıq deyil.

Quran ayələri ilə insanlara yaxşılıq kimi, pisliyin tərifi də bildirilmişdir. Qurana görə pislik Allahdan qorxub çəkinmədən edilən hərəkətlərdir. Allahdan başqa ilahlar qəbul etmək, Ondan başqasına qulluq etmək, insanların rizasını və dünya həyatının mənfəətlərini əldə etmək üçün yaşamaq, insanları pisliyə sürükləyər. İman gətirməyənlər üçün böyük istək və həvəsə çevrilən dünyəvi dəyərlər bu insanları gözəl əxlaqdan uzaqlaşdırar. Dünya həyatından mümkün qədər ən çoxunu, ən yaxşısını əldə edə bilmək üçün, həmişə ilk növbədə, öz mənfəətlərini düşünər və bunları hər şeydən üstün tutarlar. Bunlar da özü ilə insana eqoizm, xəsislik, nankorluq, saxtakarlıq, təkəbbür, yalan, mərhəmətsizlik kimi pis əxlaq xüsusiyyətləri gətirər.

Həyatlarını bu düşüncələrə görə yönləndirən insanlar yenə də özlərinə görə bəzi pisliklərdən çəkinə bilərlər. Lakin bu mövzudakı meyarları, ümumiyyətlə, insanlar tərəfindən qınanmamaq, cəmiyyətin dəyər mühakimələrinə zidd düşməmək və ya mənfəətlərinin zərər görməsini önləmək kimi hədəflərə yönəlmişdir. Buna görə də, bəzən açıq şəkildə müəyyən pis əməllərdən çəkinərkən bunların gizli qalması vəziyyətində bu mövzuda heç bir məhdudiyyət qoymaya bilərlər. Heç kimin eşidib görməyəcəyindən və sübut edilə bilməyəcəyindən əmin olduqları hallarda pisliyə könül rahatlığı ilə yanaşa bilərlər. Bu, həmin bu insanların Allah qorxularının olmamasından qaynaqlanar. Pislikdən çəkinməkdəki meyarları; "insanların bilməməsi, onların gözündə etibarlarını itirməmələri və cəmiyyət daxilində yaxşı tanınmaları" şərtlərinə əsaslanır. Bu şərtlərdə zəmanət təmin etdikləri təqdirdə vəziyyətə görə pisliyin bir çox növünə meyl edə bilərlər. Dolayısilə, bu insanların pislik anlayışını qiymətləndirmələri, təkcə "pisliyin ortaya çıxmaması" təməlinə söykənir.

Halbuki Allah insanlara pisliyin açıq olanından da, gizlisindən də çəkinmələrini bildirmiş və bunların nələr olduğunu Quran ayələri ilə açıqlamışdır. Quranı meyar qəbul etməyən insanlar Allahın "...onlar yaxşı əməli pis əməllə qarışdırıblar. Ümid edilir ki, Allah tövbələrini qəbul edər. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!" (Tövbə surəsi, 102) ayəsi ilə bildirdiyi kimi bir əxlaq göstərib pisliyə meyl edə bilərlər. Belə vəziyyətin yaranmasının qarşısını almaq üçünsə, insanlara əvvəlcə pisliyin mənbəyini tanıtmaq və bu mənbəyi bütün yönləri ilə üzə çıxartmaq lazımdır. Pisliyin bu şəkildə üzə çıxarılması hiyləgərliyi ortadan qaldıracaq, gizli olmasına əsaslanaraq pisliyi qanuni hesab edən və tətbiq edən insanların bu davranışlardan çəkinmələrini təmin edəcək. Əks təqdirdə, Allahın; "yoxsa pis əməllərə batıb yara alanlar onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər?! Necə də pis hökm verirlər!" (Casiyə surəsi, 21) ayəsi ilə bildirdiyi kimi, pisliyi, gizli qalmasına aldanaraq

yaşayanların dünya və axirətdəki həyatları iman sahiblərindən çox fərqli olacaq. Quranda "gözəl işlər gördüklərini zənn edən", lakin əslində bütün səyləri puç olan insanların axirətdə "ən çox ziyana düçar olanlar" olduqları bildirilmişdir:

**De: "davranış (əməllər) baxımından ən çox ziyana uğrayanlar barəsində sizə xəbər verimmi?"**

**"Onların, dünya həyatındakı bütün səyləri puç olduğu halda, əslində yaxşı iş gördüklərini zənn edirlər". Məhz onlar, Rəbbinin ayələrini və Ona qovuşmağı inkar edənlərdir. Artıq onların etdikləri puç olmuşdur, qiyamət günü onlar üçün tərəzi qurmayacağıq. (Kəhf surəsi, 103-105)**

# Pisliyin mənbəyi; nəfs və şeytan

Quranda insanlara bildirilən pisliyin iki əsas mənbəyi var. Bunlardan biri hər insanda olan və özünə həmişə pisliyi əmr edən "nəfs"dir. Nəfs dayanmadan verdiyi təlqinlərlə insanları doğru yoldan uzaqlaşdırmağa və onları fəlakətə sürükləməyə çalışar. Quranda nəfsin bu xüsusiyyəti belə bildirilir:

**"(Yenə də) mən nəfsimi təmizə çıxarda bilmərəm. Çünki həqiqətən nəfs, (Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla) var gücüylə pisliyi əmr edər..." (Yusif surəsi, 53)**

Nəfsi dəstəkləyən və insanlara pisliyi, çirkin əməlləri əmr etmək vəzifəsini yerinə yetirən digər varlıq isə "şeytan"dır. Quranda şeytanın insanları yalnız pisliyə çağırdığı belə xəbər verilmişdir:

**O, sizə təkcə pisliyi, çirkin əməlləri və Allaha qarşı bilmədiklərinizi söyləməyinizi əmr edər. (Bəqərə surəsi, 169)**

Nəfs və şeytan insanı pisliyə sürükləyə bilmək üçün həyatının son anına qədər ona qarşı mübarizə aparacaqlar. Şeytan bu mübarizəsində müvəffəqiyyət qazana bilmək üçün əlindən gələn hər yolu sınayacaq, hər cür hiylə üsuluna əl atacaq. Çünki məqsədi özü kimi, insanları da cəhənnəm əzabına sürükləyə bilməkdir. Cəhənnəm əzabından qurtuluş yoxdur, bu əzab əbədiyyən davam edəcək və dözülməz əzablarla doludur.

İnsan, özünü böyük təhlükəyə sürükləməyə çalışan şeytanın oyununu anlamalı və hücumlarına qarşı bu diqqətlə müqavimət göstərməlidir. Buna görə də, şeytan haqqında ən doğru məlumatların qeyd olunduğu Quranı özünə rəhbər tutmalıdır. Allah Quranda şeytanın xarakterini, məqsədini, insanlara qarşı istifadə edəcəyi üsulları, bunların necə zərərsizləşdirilə biləcəyini insanlara bildirmişdir.

Şeytan haqqında bilinməsi lazım olan ilk şey, onun özünəməxsus müstəqil gücü olmamasıdır. Bütün varlıqlar kimi, onu da Allah yaratmışdır. İnsanlara qarşı pislik üçün apardığı bu mübarizə Allahın nəzarəti altındadır. Allah dünya həyatında hansı insanların gözəl davranışlar göstərəcəyini, hansılarının da pisliyə meyl edəcəyinin bilinməsi üçün belə imtahan mühiti yaratmışdır.

Allah bu imtahan mühitinin tələbi olaraq pisliyə çağıran nəfs və şeytanla yanaşı, insana hər an doğrunu ilham edən "vicdan"ı yaratmışdır. Vicdan nəfsin tam əksinə, şeytanın təlqinlərinə qarşı insana həmişə haqqı söyləyər və onu Allahın razı olacağı gözəl davranışlar göstərməyə təşviq edər. Dolayısilə, vicdanının səsinə tabe olan insan, pisliyə çağıran nəfsini və şeytanı asanlıqla zərərsizləşdirə bilər. Allah Quranda bu həqiqəti insanlara belə bildirmişdir:

**Nəfsə və ona “müəyyən biçim verənə”, sonra ona fücurunu (sərhəd tanımaz günah və pislik etməyi) və ondan çəkinməyi ilham edənə (and olsun). Onu təmizləyən həqiqətən nicat tapmışdır. Eləcə də, onu (üsyan və günahla) batıran isə, əlbəttə, məhv olmuşdur. (Şəms surəsi, 7-10)**

Şeytan haqqında bilinməsi lazım olan digər mühüm məsələ isə, onun "insanlar üzərində məcburedici heç bir təsirinin olmaması”dır. Şeytanın xüsusiyyəti insanları yalnız öz yoluna çağırmaq və onlara bu istiqamətdə təlqin verməklə məhdudlaşır. Pislik və ya yaxşılıq etmək seçimi isə, tamamilə insanın öz iradəsindədir. Əgər iman gətirib Quran əxlaqı ilə hərəkət etsə; "həqiqət budur ki, iman gətirənlər və yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində, onun (şeytanın) heç bir məcburedici gücü yoxdur!" (Nəhl surəsi, 99) ayəsi ilə bildirildiyi kimi, şeytanı zərərsizləşdirmiş olacaq. Bu təqdirdə Allahın; "...şübhəsiz ki, şeytanın tələsi çox zəifdir!" (Nisa surəsi, 76) ayəsi ilə bildirdiyi kimi, şeytanın tələsi puç olacaq. Allah Quranda şeytanın səmimi insanlara təsir edə bilməyəcəyini belə xəbər vermişdir:

**Dedi: “Sənin izzətinə and olsun ki, mən onların hamısını mütləq azdırıb təhrik edəcəyəm; <u>yalnız Sənin ixlaslı qullarından başqa</u>. (Sad surəsi, 82-83)**

Əgər insan şeytana qarşı Allaha sığınıb özünə doğru yolu göstərəcək Quranı rəhbər tutmasa, bu təqdirdə; "onun məcburedici gücü təkcə onu vəli tutanlarla, onunla Ona (Allaha) şərik qoşanlar üzərindədir!" (Nəhl surəsi, 100) ayəsi ilə xəbər verildiyi kimi, şeytanın təsiri altına girmiş olacaq. Bu da onu dönüşü olmayan cəhənnəm əzabına sürükləyəcək.

Şübhəsiz ki, belə vəziyyətlə qarşılaşmağı heç kim istəməz. Buna görə də, şeytan haqqındakı bütün məlumatlar Qurandan öyrənilməli və onun hiyləgər üsullarına Quranla cavab verilərək, tələsi puç edilməlidir.

Növbəti sətirlərdə şeytanın pisliyi müdafiə edən xarakterini, insanları çağırdığı gizli dinini və bunun üçün işlətdiyi üsulları üzə çıxardaraq pislikdən çəkinməyin Quranda bildirilən yollarını göstərəcəyik.

# Şeytanın dini və gizli üsulları

Allah Quranın; "dedi: “Ey Rəbbim! Məni azdırmağına görə, and içirəm ki, mən də onlara yer üzündə (sənə qarşı çıxmağı və dünya ehtirasını) bəzəyib gözəl göstərəcəyəm və onların hamısını mütləq azdırıb təhrik edəcəyəm! Yalnız Sənin ixlaslı qullarından başqa!”" (Hicr surəsi, 39-40) ayələri ilə insanın düşməni olan şeytanın qiyamət gününə qədər var gücü ilə insanları pisliyə sürükləmək mövzusundakı inadını insanlara bildirmişdir.

Lakin bəzi insanlar şeytan haqqında həqiqətə əsaslanan doğru məlumatlara sahib deyildirlər. Buna görə də, şeytanın düşmənçiliyindən çəkinə bilmək üçün, insan əvvəlcə onun üsullarını, necə məğlub edilə biləcəyini öyrənib tələlərinə qarşı hazır olmalıdır.

Bu mövzuda ilk növbədə, şeytanın əsrlərdir müdafiə etdiyi və insanlara qəbul etdirməyə çalışdığı bir "din anlayışının" olduğu bilinməlidir. Tarixin başlanğıcından etibarən dünyanın hər tərəfindəki bütün insanlara eyni təlqinləri verib onlara ortaq  həyat tərzini, öz batil dinini mənimsətməyə çalışır. Bu dinin təməl xüsusiyyətlərindən və şeytanın bu din anlayışını insanlara qəbul etdirə bilmək üçün işlətdiyi üsullardan bəzilərini belə sadalaya bilərik:

## Vicdanın səsini susdurmaq üçün bəhanələr irəli sürməsi

Şeytanın dini, insanlara şeytanın xarakterini və onun düşüncə sistemini qəbul etdirmək məqsədinə əsaslanır. Şeytan insanları bu yöndə razı sala bilmək üçün, batilə əsaslanan çox müxtəlif və gizli üsullar yaratmışdır. Lakin təməl fəlsəfəsi, əvvəlcə öz tələlərini puç edən, verdiyi təlqinlərlə insanları dayanmadan yaxşılığa və doğruya çağıran vicdanının səsini susdurmağa yönəlib. Əslində Allahın; "xeyr! İnsan öz nəfsinə qarşı bəsirətdir! Öz bəhanələrini irəli sürsə belə!" (Qiyamət surəsi, 14-15) ayələri ilə bildirdiyi kimi, şeytan hansı tələni qursa da, vicdanın yol göstərməsi sayəsində hər insan doğrunu görə biləcək bəsirətə sahibdir. Lakin şeytan, insanların vicdanlarının səsini susdurmalarını təmin edəcək, onları öz əxlaqını yaşamağa razı salacaq çox müxtəlif bəhanələr irəli sürərək insanların bu bəsirətlərini bağlamağa çalışar.

İman gətirənlər Qurana görə düşündükləri üçün, şeytanın bu yöndəki təlqinlərini, nə qədər məharətli olsa da, dərhal görə bilər və vicdanlarına uyğun davranış göstərərlər. Quran əxlaqından uzaq yaşayan insanlar isə həyatlarını nəfslərini məmnun etmək məqsədi əsasında qurduqları üçün, şeytanın nəfslərini dəstəkləyən bəhanələrini dərhal qəbul edərlər.

Vicdanlarının səsini susdurmaq üçün onsuz da bir yol axtardıqlarından, şeytanın bu təlqinlərini nəfslərinə istiqamətli dəstək və kömək kimi qəbul edərlər.

Şeytanın bu sistemi, hər davranış pozuntusu və hər pislik üçün ayrı bəhanə, ayrı sapqın açıqlama daşıyar. Bu yolla insanların vicdanlarına qarşı çıxa bilmələrini təmin edər və beləliklə də, öz düşüncələrini onlara qanuni və məqbul göstərməyə çalışar.

## Yaxşını pis, pisi yaxşı göstərərək insanları aldatması

Şeytanın insanları pisliyə çağırmaq üçün işlətdiyi üsullardan biri isə "yaxşını pis, pisi də yaxşı göstərib insanları aldatmaq"dır. Şeytan, doğru yolda olduqlarına inandırmaq üçün insanlara çox müxtəlif və çoxlu sayda saxta dəlil göstərər. Bu dəlillər o qədər təfsilatlı hazırlanmış və elə hiyləgər məntiqlərlə bəzənmişdir ki, iman gözü ilə baxmayanlar asanlıqla inanarlar. Şeytanın göstərdiyi dəlilləri həqiqətmiş kimi qəbul edər və davranışlarını, özlərini inandırdıqları bu saxta həqiqətlər əsasında istiqamətləndirərlər.

Şeytanın bu yöndəki oyunlarına aldanıb yanlış hərəkətlərə yol verən insanlara dair gündəlik həyatda bir çox nümunəyə rast gəlmək mümkündür. Məsələn, şeytan bəzən verdiyi təlqinlərlə insana yaxın dostunu, düşməni hesab edəcək vəziyyətə gətirə bilər. Qarşı tərəfin pisniyyətli olduğuna və özünə düşmənçilik bəslədiyinə dair o qədər təfsilatlı və dəqiq dəlillər irəli sürər ki, bu insan dostunun xoşniyyətli hərəkətlərini belə bu cür qəbul etməyə başlayar. Bu aspektdən ötrü hər rəftarın, hər sözün arxasında müəyyən eyham və ya zidd məna axtarar. Şeytanın təsirinə elə düşmüş və verdiyi təlqinlərlə elə düşünməyə başlamışdır ki, qarşı tərəf bu vəziyyəti aradan qaldırmaq üçün, nə qədər xoşniyyətli səy göstərsə də, fayda verməz.

Şeytan bəzən də eyni təlqini tam əks istiqamətdə verər. İnsanın, özünə zərər verəcək və pisliyə sürükləyəcək kəsləri dost kimi görməsini təmin edər. Ortada bu insanın pis niyyətini sübut edən onlarla dəlil olduğu halda, şeytan bütün bunlara izah gətirib bu pis niyyətin görülməsinə mane olar. Bir neçə əhəmiyyətsiz təfsilatı da ön plana çıxardıb gözündə böyüdərək, qarşı tərəfin xoşniyyətli olduğu məsələsində onu razı salar.

Şeytan, bu üsullarından insanın gündəlik həyatında qarşısına çıxan hər mövzuda istifadə edər. Bütün bunların nəticəsində pisliyə təşviq etdiyi insanı, qəflətə sürükləyib etdiyi pisliklərdən çəkinməsinə mane olar. Halbuki əslində özü bu insanın yaxın dostu olmuş və onu öz din anlayışına, öz əxlaq xüsusiyyətlərinə yaxınlaşdırmışdır. Quranda şeytanın insanları bu şəkildə; "hidayətdə olduqları təəssüratını verərək doğru yoldan azdırdığı" belə bildirilmişdir:

**Kim Rəhman (olan Allah)ın zikrini görməzlikdən gəlsə, Biz bir şeytana onun "üzərini qabıqla bağlatdırarıq"; artıq bu, onun yaxın dostudur.**

**Həqiqətən bunlar (bu şeytanlar), onları doğru yoldan çıxardar; onlar isə özlərinin həqiqətən doğru yolda olduqlarını güman edərlər. (Zuxruf surəsi, 36-37)**

## Hiyləli üsullardan istifadə etməsi və insanları da hiyləgərliyə təşviq etməsi

İnsanları doğru yoldan azdırıb özü ilə birlikdə cəhənnəmə sürükləməyə səy göstərən şeytanın ən mühüm xüsusiyyətlərindən biri hiyləgərliyidir. Hiyləgərlik, eyni zamanda şeytanın insanlara qarşı apardığı amansız mübarizədə işlətdiyi ən mühüm üsullardandır. İnsanları, həqiqi məqsədini açıqlayaraq özünə tabe olmağa çağırsa, nəticə ala bilməyəcək və müvəffəqiyyət qazana bilməyəcək. Bəşəriyyət tarixinin başlanğıcından bəri onlara qarşı necə böyük kin və düşmənçilik bəslədiyini, onları özü ilə birlikdə sonsuzadək cəhənnəm əzabına sürükləmək üçün aldatmağa çalışdığını və onlara yalnız yalan danışdığını bildirsə, əlbəttə ki, sözlərinə inanılmayacaq. Hətta ona qarşı diqqətli və ayıq olunacaq, tələsinə düşməkdən xilas olunacaq. Buna görə də, şeytan insanları hiyləgərliklə, yalan və hiylə dolu üsullarla aldatmağa çalışar. Onlara düşmən olduğunu açıqca hiss etdirəcək hərəkətlərdən çəkinər. Yaxud onlara açıq şəkildə; "gəlin mənə tabe olun", "pis əxlaqlı olun", "özünüzə, ətrafınızdakı insanlara zərər verin" və ya "yaxşı və pisin arasında seçim etsəniz, həmişə pisin tərəfini tutun" kimi təlqinlər verməyə bilər. Əslində bu sözlər şeytanın son hədəfini xülasə edir. Lakin o həmişə bütün bunları yaxşılıq, gözəllik, düzgünlük kimi məziyyətlərlə bəzəyib insanlara təqdim edər. Onlara hiyləgərcəsinə yanaşar; zəki və hiyləgər inandırma üsullarından istifadə edər.

Quranda şeytanın özünün də bu xüsusiyyətini dilə gətirdiyi; insanlara açıq şəkildə deyil, pusqu qurub yaxınlaşacağını söylədiyi belə bildirilir:

**Dedi: "Madam ki, elədir, məni azdırdığına görə onlar(ı insanları azdırmaq) üçün mən də Sənin dosdoğru yolunda (pusqu qurub) oturacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından soxulacağam. Onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 16-17)**

İnsanlara birbaşa təsiri olmayan şeytan, insanlara doğrunu yanlış, yaxşını pis, həqiqətləri isə xəyal kimi göstərə bilmək üçün müxtəlif hiyləgər üsullara əl atar. Onları aldatmaq üçün bəzəkli sözlər söyləyər, gördükləri yanlış işləri bəzəkli və cəlbedici göstərər.

Eynilə gözəl və xeyirli işləri də çirkin göstərib bunlardan imtina etdirməyə çalışar. Onlara dünya həyatına dair bəzəkli vədlər verər. Doğrular barədə onlara ağlagəlməz vəsvəsələr verər. Ən sadə mövzuları belə içindən çıxılmaz və mürəkkəb hala gətirməyə, Allahın əmrlərini onlara çətin göstərməyə çalışar. Onları dünya mənfəətlərinin yaxın və əldə edilməsi asan, axirət mənfəətlərinin isə uzaq və guya xəyali vədlər olduğuna inandırmağa çalışar. İnsanları hər an müşahidə edər. Hər an çatışmayan cəhətlərini, zəif yönlərini güdər. Onları aciz olduqları nöqtələrdən tutmağa və tələyə salmağa çalışar. Həmişə pisliyi nəsihət edər. Onların da özü kimi pisliyi mənimsəmələrini və beləliklə, özünə bənzəmələrini istəyər. Bütün bu təlqinlərini onlara gözləmədikləri anlarda, gözləmədikləri yönlərdən pusqu qurub verər.

Bəzən açıq təlqinlər verər, çox vaxt isə özünü sanki dost kimi göstərib, həmin insanın yaxşılığını istəyirmiş kimi davranar. Şeytanın müxtəlif yalanlarına aldanan insanlar, içində olduqları qəflətdən ötrü getdikcə doğru yoldan uzaqlaşarlar. Özlərinə şeytanı dost tutmuş olmaları, bu insanların yaşadıqları pis əxlaqı, göstərdikləri yanlış davranışları əhəmiyyətli görməmələrinə və bunları israrla müdafiə etmələrinə səbəb olar.

## İnsanlara pisliyi sübut edilə bilməyəcək şəkildə etməyi öyrətməsi

Şeytanın insanları öz əxlaqına çağırmaq üçün işlətdiyi səssiz dilin mühüm prinsiplərindən biri; "edilən pis davranışın məharətlə gizlənməsi"dir. Şeytanın təsiri altına saldığı insanlara öyrətdiyi bu gizli din; "sübut edilə bilməzlik" prinsipinə əsaslanan hərəkətlərlə yaşanır. Bu insanlar açıq şəkildə pis əxlaq xüsusiyyətləri göstərməz, bunu çox incə təfsilatların arasında gizlədərlər. Bu elə hiyləgər sistemdir ki, bu gizli və səssiz dillə, qarşılarındakı insanlara həm nə demək istədiklərini çox açıq şəkildə ifadə etmiş olar, həm də qarşı tərəfin bu pis davranışlarının üstünü aça biləcəyi heç bir dəlil verməzlər.

Bu üsulla bir tərəfdən eyni şeytani əxlaqı yaşayanların bir-birlərini asanlıqla tanıya bilmələri də təmin edilmiş olar. Öz işlətdikləri dilin bütün incəliklərini bilən bu insanlar, eyni əlamətləri başqalarında gördüklərində onların da özləri kimi şeytanın təsiri altına düşdüklərini anlayarlar. Bu vəziyyəti bilmək isə onlara bu kəslərin yanında şeytanın əxlaqını çəkinmədən və gizlənməyə ehtiyac duymadan yaşayacaqları mövzusunda böyük cəsarət verər. Özləri ilə eyni dili danışdığını bildikləri insanların yanında digərlərindən gizlətdikləri əsil üzlərini heç çəkinmədən göstərə bilərlər.

"Sübut edilməzlik prinsipi" pisliyin səssiz dilini danışanların vicdanlarının səsini susdura bilmək məqsədini də daşıyır. Şeytan, bu dili öyrətdiyi insanlara, pisliyə açıq şəkildə yanaşmamalarının gözəl əxlaqlı və yaxşı insan olmaları üçün kafi olduğu fikrini aşılayar. Buna görə də, səssiz dili danışan bəzi insanlar vicdanlarının səsini susdurub pis əxlaq göstərmələrinə heç əhəmiyyət vermədən, səssiz dilin hiyləgər üsullarını işlətməyə davam

edərlər. Ətraflarındakı insanların, incə təfsilatlar söykədikləri pis əxlaqlarını özlərinə sübut edə bilməmələri də, yenə onların özlərini bu mövzudan uzaq görmələrinə səbəb olar.

## İnsanlar üzərində fitrətlərini pozaraq təsir sahibi olmağa çalışması

Yer üzündəki bütün varlıqların tək hakimi olan Allah, yaratdıqlarını və onlara ən uyğun olan həyat tərzini ən yaxşı biləndir. Allah insanları, təkcə imanı qavradıqları və Quran əxlaqını yaşadıqları təqdirdə xoşbəxt və hüzurlu ola biləcək şəkildə yaratmışdır. Quranın; "...bilin ki, qəlblər yalnız Allahı zikr etməklə rahatlıq tapar!" (Rad surəsi, 28) ayəsi ilə bildirilən bu həqiqət, istisnasız bütün insanlar üçün etibarlıdır. İnsan, təkcə özünü yaradan Rəbbimizə yönəlib Onun sevgisini və rizasını qazana biləcəyi şəkildə yaşadığı təqdirdə, dünya həyatında gözəl həyat yaşaya bilər. Allah Quranda insanlara, özlərini yaratdığı fitrətə yönəlmələrini belə bildirmişdir:

**O zaman sən üzünü, Allahı vahid qəbul edən (hənif) olaraq dinə, Allahın o fitrətinə çevir; belə ki, insanları bunun üçün yaratmışdır... (Rum surəsi, 30)**

Fitrətlərinə ən uyğun olan bu həyat tərzini və bu əxlaq anlayışını mənimsəmədikləri təqdirdə insanlar sıxıntı və narahatlıq içində bir həyat yaşayarlar. Allahın insanlar üçün yaratdığı yer üzündəki bu qədər nemətdən lazımınca zövq ala bilməz, ətrafdakı gözəllikləri görə bilməzlər. Allahın; "kim də Mənim Zikrimdən üz döndərsə, artıq onun güzəranı sıxıntılı olacaq və Biz qiyamət günü onu gözləri kor olaraq həşr edəcəyik!" (Taha surəsi, 124) ayəsi ilə bildirdiyi kimi, çətinliklərlə dolu həyat yaşayarlar. Hər şeydən ötrü asanlıqla hüznə, narahatlığa, ümidsizliyə və ya bədbinliyə qapıla bilər, həyatlarını heç cür çıxış yolu tapa bilmədikləri problemlərlə iç-içə yaşayarlar.

İçərisində olduqları bu vəziyyəti gördükləri zaman isə, həyatlarına hakim olan sıxıntının mənbəyini və necə aradan qaldırıla biləcəyini tapa bilməzlər. Halbuki insanların üz-üzə qaldıqları bu sıxıntının təməlində də, yenə hər cür pisliyin əsil mənbəyi olan "şeytanın sayı" dayanır. Şeytanın insanlara qarşı apardığı mübarizədə əl atdığı üsullardan biri də onların "fitrətlərini pozması"dır. Çünki əvvəlki sətirlərdə qeyd edilən, insanların təkcə fitrətlərinə uyğun həyat tərzi yaşadıqları təqdirdə xoşbəxt olacaqları həqiqətini şeytan da bilir. Buna görə də, fitrətlərinə zidd olan əxlaq anlayışını və fərqli həyat tərzini mənimsədib onların xoşbəxtlikdən də uzaq qalmasını təmin edər. Lakin bunu da yenə öz hiyləgər üsulları ilə gerçəkləşdirib, insanları qəflətə sürükləyir və bu yolla düşdükləri tələdən xilas

olmalarına mane olur. Onları fitrətlərinə zidd olan əxlaqa çağırarkən, eyni zamanda da onlara saxta xoşbəxtlik vədləri verir. Quranda şeytanın insanları "Allahın yaratdıqlarını dəyişdirməyə" çağıracağı belə bildirilir:

**Onları (mütləq) sapdıracaq, ən ağlasığmaz xülyalara salacaq, onlara mütləq davarların qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm! Allahı tərk edib şeytanı özünə dost (vəli) tutsa, şübhəsiz ki, o, açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 119)**

Allahın Quranda bildirdiyi bütün bu həqiqətlər, insanın təkcə Quran əxlaqını yaşadığı, Allahın özünü yaratdığı fitrətə qayıtdığı təqdirdə xoşbəxt ola biləcəyini göstərir. Əks təqdirdə, növbəti sətirlərdə daha təfsilatlı nəzərdən keçiriləcəyi kimi, şeytan insanı yalnız dünya həyatını əhatə edən bədbəxtliyə deyil, sonsuzadək davam edəcək sıxıntı və əzaba sürükləyəcək.

## İnsanları, Allahın adından istifadə edərək aldatmağa çalışması

İrəli sürdüyü hər fikrin, insanların qəlbinə pıçıldadığı hər pis düşüncənin, vicdanın doğrunu təlqin edən səsi ilə qarşılıq görəcəyini bilən şeytan, bu vəziyyətə qarşı fərqli tələ qurmuşdur. Əsil kimliyini və pis niyyətini gizlədə bilmək üçün, bəzən insanlara verdiyi təlqinləri vicdanlarının səsiymiş kimi göstərməyə çalışar. Bunun üçün, əl atdığı üsul isə onlara; "Allahın adından istifadə edib yaxınlaşması"dır.

Tərəfdarları ilə birlikdə insanları görmədikləri, fərq edə bilmədikləri yerlərdən müşahidə edən şeytan, onlara nələrin təsir edəcəyini və nələrə qarşı reaksiya verəcəklərini də bilir. İnsanın zəif nöqtələrini, nələrə qarşı zəif olduğunu, hansı fikirlərinin ağlını qarışdıracağını nəzərə alaraq onu yönləndirər. Vicdanən həssaslıq göstəriləcək mövzulardan, dini dəyərlərdən, insani əlamətlərdən "xeyir" adı altında istifadə edərək insanları aldadar. Etdirmək istədiyi pis hərəkəti onlara qanuni və məqbul göstərəcək bəzi bəhanələr irəli sürərək onları tam zidd əxlaqa yönəltməyə çalışar. Həmin bu insanlar da şeytanın təqdim etdiyi bu bəhanələrdən ətrafdakı insanlara qarşı etdikləri pislikləri müdafiə etmək üçün səmimiyyətsiz şəkildə istifadə edərlər.

İman gətirən insanların isə özlərini yetərli görmələrini, etdikləri bəzi ibadətlərlə kifayətlənmələrini və özlərini bəyənib ehtiyacsız görmələrini təmin etməyə çalışar. Onları gözəl əxlaqlı olduqlarına, əllərindən gələnin ən çoxunu etdiklərinə, güclərinin bu qədərinə

çatacağına inandırmağa çalışar. Qəlblərinin təmiz olmasının kifayət edəcəyini, Allahın qəlblərindəki yaxşı niyyəti görüb onlardan razı olduğunu düşündürərək, onları səmimiyyətsizliyə sürükləmək istəyər. Ətrafdakı insanlara görə yaxşı olmalaraının kifayət edəcəyini, əksər insanlarla müqayisədə çox üstün əxlaqa sahib olduqlarını düşündürərək onları tənbəlliyə sürükləməyə çalışar. Lakin, əlbəttə ki, şeytan bütün bu bəhanələri nə qədər həqiqi və inandırıcı göstərsə də, onun təlqinləri ilə hərəkət edən insan bu davranışının Quran əxlaqına uyğun olmadığını bilir. Çünki Allahın qullarına rəhmət olaraq yaratdığı vicdan sayəsində hər insan yaxşı və pisi ayırd edə biləcək anlayışa sahibdir. Allah Quran ayələri ilə insanları şeytanın bu tələsinə qarşı belə xəbərdar etmişdir:

**Ey insanlar! Şübhəsiz ki, Allahın vədi haqdır. O zaman dünya həyatı sizi aldatmasın və <u>aldadan(lar) da, sizi Allah ilə (Allahın adından istifadə edərək) aldatmasın</u>. Həqiqət budur ki, şeytan sizin düşməninizdir, o zaman siz də onu düşmən tutun. O, öz tərəfdarlarını, qızğın yanan alovun sakinlərindən olmağa çağırar. (Fatir surəsi, 5-6)**

Şeytanın insanı Allahın adı ilə aldatmasının digər yolu da, Allahın bağışlayan olduğunu irəli sürərək insanı günah işləməyə təşviq etməsidir. Allah sonsuz mərhəmət sahibidir və tövbə edib Özündən bağışlanma diləyən hər qulunun günahlarını bağışlaya bilər. Lakin bir insanın; "onsuz da, Allah bağışlayar" deyərək bilə-bilə günah işləməsi səmimi davranış deyil. Belə əxlaqı davam etdirən insanın qəlbi zamanla qatılaşıb həssaslığını itirə bilər. Allah qorxusu ilə hərəkət etməmək, bu insanı daha bir çox pisliyə də sürükləyə bilər. Allah Quranda; "yaxında bağışlanacağıq" deyərək bilə-bilə günah işləyənlərdən nümunə verib insanları şeytanın belə yalanına qarşı xəbərdar etmişdir:

**Onların ardından yerlərinə Kitaba varis olan bəzi "pis insanlar" keçdi. (Bunlar) <u>Bu dəyərsiz olan (dünyan)ın müvəqqəti faydasını alıb; "yaxında bağışlanacağıq" deyirlər</u>. Bunun bənzəri bir fayda gəldikdə onu da alırlar. Özlərindən Allaha qarşı haqqı söyləməkdən başqa şey söyləməyəcəklərinə dair kitab əhdi alınmamışdı? Halbuki içində olanı oxudular. (Allahdan) qorxanlar üçün axirət yurdu daha xeyirlidir. Hələ də anlamayacaqsınız? (Əraf surəsi, 169)**

Əlbəttə, kitabın əvvəlində də vurğulandığı kimi, şeytanın bütün bu oyunları, təkcə iman gətirməyənlərə təsir edə bilər. Yoxsa Quranı özlərinə rəhbər tutan insanlar üçün, şeytanın səsi ilə vicdanın səsi arasında çox aydın və dəqiq fərq var. Vicdan insana həmişə Quran əxlaqına uyğun olan davranışları ilham edər. Şeytan isə hər nə qədər hiyləgər oyunların arxasında gizlətməyə çalışsa da, həmişə Allahın razı olmayacağı əxlaqa təşviq

edər. Dolayısilə, iman gətirən bir insan bu ikisi arasındakı fərqi dərhal görər, şeytanın təsirindən Allaha sığınıb vicdanının səsinə tabe olar.

Lakin iman gətirməyənlər üçün belə aydınlıq mümkün deyil. Buna görə də, şeytan onlara istədiyi kimi təsir edə bilər. Allah Quranın; "onlardan gücün çatdığı kəsləri səsinlə sarsıntıya uğrat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına və övladlarına ortaq ol və onlara cürbəcür vədlər ver. Şeytan onlara təkcə yalan vəd verər!" (İsra surəsi, 64) ayəsi ilə şeytanın "gücün çatdığı kəsləri səsiylə sarsıntıya uğradacağını" bildirərək, iman gətirənlərlə inkarçılar üzərindəki şeytanın fərqli təsirinə diqqət çəkmişdir.

## İnsanlara, insan və cin şeytanlardan istifadə edib yaxınlaşması

Allah Quranın; "...həqiqətən, şeytanlar sizinlə mübarizə aparmaları üçün, öz dostlarına gizli çağırışlar edərlər" (Ənam surəsi, 121) ayəsi ilə, şeytanın insanlara yaxınlaşmaq üçün öz tərəfdarlarından və dostlarından istifadə edəcəyini xəbər vermişdir. Bu vəziyyət bizə şeytanın təkbaşına hərəkət edən güc olmadığını göstərir. Allah Quranın; "beləliklə, hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmən yaratdıq. Onlardan bəziləri digərlərini aldatmaq üçün bəzəkli sözlər pıçıldayarlar. Rəbbin istəsəydi, bunu etməzdilər. O zaman onları, uydurduqları yalanlarla baş-başa burax!" (Ənam surəsi, 112) ayəsi ilə insanlara "insan və cin şeytanların" varlığını bildirir. Şeytan, insanlar və cinlərdən özünə tabe olanlara birlikdə hərəkət edir və digər insanları azdırmaq üçün onlardan vasitə kimi istifadə edir. Onlar da şeytanın əxlaqını tətbiq edərək hiyləgərliyi özləri üçün prinsip qəbul edir və insanların qəlblərinə vəsvəsə və şübhə salaraq, onları doğru uzaqlaşdırmağa çalışırlar. Allah Quranda şərindən Rəbbimizə sığınılması lazım olan, bu insan və cin şeytanlarının hiyləgər üsullarını bizə belə bildirir:

**De: “Sığınıram insanların Rəbbinə;**

**İnsanların hökmdarına,**

**İnsanların (həqiqi) İlahına;**

**“Hiyləgərcəsinə qəlblərə vəsvəsə və şübhə salan” vəsvəsəçinin şərindən**

**Belə ki, o, insanların qəlbinə vəsvəsə verər (içlərinə şübhə, vəsvəsə pıçıldayar)**

**İstər cinlərdən, istərsə də insanlardan (olan hər hannasdan Allaha sığınıram). (Nas surəsi, 1-6)**

Digər bir ayədə isə; “...o da (belə) dedi: “and olsun, qullarından “sayı müəyyənləşdirilmiş dəstəni” (özümə xidmətçi) edəcəyəm” (Nisa surəsi, 118) sözləri ilə xəbər verildiyi kimi, şeytan insanlardan və cinlərdən özünə tabe olanları "xidmətçi" edir. Şeytanın xidmətçisi olan bu kəslər, insanları doğru yoldan uzaqlaşdırmaq və onları həmişə pisliyə təşviq etmək vəzifəsini boyunlarına götürərək, şeytanın əmrlərini yerinə yetirirlər. Allah, şeytanın tərəfini tutanların bu davranışını Quranda belə xəbər verir:

**(Şeytanın) qardaşları isə, onları azğınlığa sürükləyərlər, sonra onlardan əl çəkməzlər. (Əraf surəsi, 202)**

Quranda "münafiq" adlandırılan, qəlbindəki imanında xəstəlik olan kəslər şeytana xidmət edən bu insanlar arasında ən nəzərəçarpan kəslərdəndir. Kitabın sonrakı hissələrində təfsilatlı şəkildə nəzərdən keçiriləcək münafiq xarakterində görünən bütün əxlaq pozğunluqları, şeytanın bu insanlar üzərində qurduğu hakimiyyətin təsiri ilə baş verir. Bu insanlar da şeytanın hiyləgər və gizli üsullarından istifadə edir və eynilə onun kimi insanları gizli dillə pisliyə çağırırlar.

Quranın; "(münafiqlər) onlara səslənib deyərlər: "məgər biz sizinlə birlikdə deyildik?" Onlar da belə deyərlər: "bəli, lakin siz özünüzü fitnəyə saldınız, (müsəlmanları əzabların və fəlakətlərin bürüməsini) gözlədiniz, (Allaha və İslama qarşı) şübhələrə qapıldınız. Sizi xülyalar aldatdı. Sonunda Allahın əmri (olan ölüm) gəldi; və o aldadan da sizi Allah ilə (Allahın adından istifadə edərək, hətta günahsızca sizdən görünərək) aldatmış oldu" (Hədid surəsi, 14) ayəsi ilə, münafiqlərin şeytanın hiyləgər üsullarına aldanıb şübhələrə qapılanlardan olduqları xəbər verilmişdir.

Şeytanın məqsədi bunlardan istifadə edərək özü üçün fəaliyyət göstərəcək sadiq tərəfdar kütləsi yaratmaq və idealları əsasında onları istədiyi kimi yönləndirə bilməkdir. Bu insanların vasitəsilə geniş kütlələrə çatmaq, insanlara təlqin etmək istədiyi sözləri onların ağzı ilə dedirtmək, öz əxlaq anlayışını bu insanların əxlaqında yaşadaraq dinini yaşada bilməkdir. Bu yolla, insanları ürkütmədən, onlara şeytanın dininin təbliğ edildiyini sezdirmədən öz yoluna çağıracaq və tərəfdarı edəcək. Bu kəslər də, yaşadıqları pis əxlaq anlayışı ilə, ətraflarındakı insanları da, qəflətə və şeytanın əxlaqına sürükləyəcəklər.

Şeytanın dinini mənimsəyən tək bir insan, ətrafındakı digər insanlarla da əlaqə yaradaraq hər birini yavaş-yavaş şeytanın əxlaqına çağırar və bu batil dini onlara da mənimsədərək, hər birini yenə yüzlərlə insana şeytanın elçiliyini edəcək hala gətirər. Beləliklə də şeytanın, dinini təbliğ edəcək minlərlə ağzı, əxlaqını göstərəcək minlərlə vücudu və insanları doğru yoldan sapdıracaq minlərlə əsgəri olmuş olar. Şeytan ordusunun hər bir

əsgərini anbaan yönləndirib, anbaan hər birini yeni şeytani fəaliyyətə rəhbərlik etməyə sürükləyər.

Şeytanın sanki hipnoz təsiri ilə, əmrinə tabe etdiyi bu tərəfdar kütləsi, şeytandan başqa heç kimdən, hətta öz vicdanlarından belə əmr almayacaq qədər, sadiq və itaətkar intizama girər və necə acı aqibətə doğru sürükləndiklərini görmədən həyatları boyu şeytanı və onun dinini müdafiə edərlər. Şeytanın sanki xidmətçisi və ya oyuncağına dönən bu insanlar, ağıllarını, vicdanlarını, düşüncə və mühakimə qabiliyyətlərini, iradələrini, bütün əqli və fiziki funksiyalarını şeytana təslim edərlər. Sonra isə şeytanın iradəsi ilə hərəkət edib onun düşüncələri yönündə yaşamağa başlayarlar.

Allahdan lazımınca qorxub çəkinmədikləri üçün şeytanın, nəfsləri vasitəsilə anbaan özlərinə pıçıldadıqlarını, şeytandan gəldiyini düşünmədən, bütün bunların öz düşüncələri olduğuna inanaraq heç tərəddüd etmədən tətbiq edərlər. Lakin onsuz da bir müddət sonra onlar da bütün bu fikirləri, şeytanın özü qədər mənimsədikləri üçün, şeytanın təlqinlərinə ehtiyac duymadan eynilə onun kimi bu dini müdafiə edəcək və şeytanın səssiz dilini danışacaq hala gələrlər.

Dünya həyatında hər kəsin eyni imtahan mühitinə tabe olmasından ötrü, şeytan təkcə inkar edən insanlara deyil, iman gətirənlərə də təsir etməyə çalışar. İman gətirdiklərini söylədiyi halda, əslində imanı lazımınca yaşamayan bəzi insanlar, Allaha tam təslim olmamaları, yaşadıqları hər hadisəni Quranla qiymətləndirməmələri və gözəl əxlaqı Allah qorxusu ilə yaşamamalarından ötrü, şeytanın pıçıltılarına qulaq asarlar. Şeytana necə müqavimət göstərəcəklərini və onun hiyləli oyunlarını necə zərərsizləşdirə biləcəklərini bildikləri halda, şeytanın sözlərinə etibar edərlər.

Quranı çox yaxşı bildikləri və şeytanın özlərinə necə böyük zərərlər verə biləcəyi məsələsində şüurları çox açıq olduğu halda, ondan lazımi diqqətlə çəkinməzlər. Bunun nəticəsində isə bir tərəfdən ibadətlərini yerinə yetirərkən, digər tərəfdən də göstərdikləri bir çox davranışla şeytanın təbliğini edərlər. Lakin burada bilinməsi lazım olan mühüm məsələ, ümumiyyətlə, bu insanların, davranışlarının yanlış olduğuna özləri də şahid olduğu halda, şeytandan və pislikdən şiddətlə çəkinən gözəl əxlaqlı və ixlaslı insanlar olduqlarını iddia etmələridir.

Şeytan, bu insanların yaxşı davranışlarının və pislikdən açıq şəkildə çəkinmələrinin kifayət etdiyini düşündürüb gizlicə etdikləri pisliklərə fikir verməmələrini və beləliklə də, bunlardan çəkinməyə də ehtiyac duymamalarını təmin edər. Onları din əxlaqından uzaqlaşdırmağa çalışar.

Şeytanın bu oyunu nəticəsində ortaya həqiqi müsəlman xarakterindən uzaqlaşmış fərqli xarakterlər çıxar. Halbuki Allahın Quranda bildirdiyi tək müsəlman xarakteri var. Bu Allahın razı olduğu, insana cənnəti qazandıracaq və cəhənnəmdən uzaqlaşdıracaq yoldur. Bundan savayı, din əxlaqının yalnız müəyyən hissəsini yaşamaq və mömin xarakterindən

fərqli xarakterə sahib olmaq insanı hiss etmədən cəhənnəmə sürükləyə bilər. Lakin, əlbəttə ki, bu insanlar Quranı özlərinə rəhbər tutub Allahın bildirdiyi ayələr yönündə düşünsələr, içərisində olduqları vəziyyəti açıq şəkildə görə bilər və bu vəziyyətdən asanlıqla xilas ola bilərlər.

Sonrakı səhifələrdə şeytanın açıq şəkildə deyil, pisliyin səssiz dilindən istifadə edərək insanlarda meydana gətirdiyi fərqli xarakterlərə və onlarda şeytanın təsirinin hansı davranış pozuntuları ilə ortaya çıxdığına toxunacağıq. Bu insanlar üçün bir növ həyat tərzinə çevrilmiş bu səssiz dillə nə cür mesajlar verildiyini və bu mesajların hansı mənaları ifadə etdiyini göstərəcəyik.

# Pisliyin səssiz dilini danışanlar

Şeytanın təsiri altında hərəkət edən insanları və danışdıqları səssiz dili müəyyənləşdirə bilmək, təkcə imanın insana qazandırdığı ağıl sayəsində mümkün ola bilər. Bu insanları digər insanlardan ayırd edən diqqətçəkən fərq yoxdur. Çünki bu kitabda ələ alınan şeytanın təsiri altında düşən həmin bu insanlar, bəzi cərəyanların təsiri altında qalaraq "şeytana tapındığını" (Allahı tənzih edirik) söyləyən, şeytanı simvolizə etdiyini düşündükləri bəzi xüsusi paltarlar geyən insanlar deyil. Buna görə də, bəzi simvolik xüsusiyyətlər əsasında bu insanlar barədə belə mühakimə sahibi ola bilmək qeyri-mümkündür.

Quranda verilən məlumatlar əsasında belə insanların davranışlarında şeytanın təsiri ilə hərəkət etdiklərini göstərən bir çox dəlil olduğu görünər. Bunlar insanlardan, şərtlərdən və ya hadisələrdən asılı olaraq dəyişə bilər. Dəyişməyən ortaq yönləri isə, pisliyin səssiz dilini danışanlarda görünən bütün bu xüsusiyyətlərin ifrat dərəcədə mənfi olması və həmin bu insanlarda maddi-mənəvi böyük pozuntulara səbəb olmasıdır.

Şeytanın təsiri ilə meydana gələn və insanları həm yanlış əxlaq anlayışına, həm də bədbəxt həyata sürükləyən gizli pisliklərdən bəzilərini, insanların xarakterini formalaşdıran ən əsas xüsusiyyətlər əsasında belə təsnif edə bilərik:

## Gizli pislikləri günahsızlığın və saflığın arxasına sığınaraq edənlər

İnsanların etdiyi pislikləri ört-basdır edə bilmək üçün, günahsızlığın arxasına gizlənmələri şeytanın hiyləli üsullarından biridir. Şeytan, təsiri altına aldığı insanlara etdikləri pislikləri nə cür gizləyəcəkləri məsələsində də yol göstərər.

Günahsızlıq, ümumiyyətlə, insanların gündəlik həyatlarında tez-tez vurğulamağa çalışdıqları bir xüsusiyyət deyil. Həmişə gözəl davranışlar göstərən, gizli işi olmayan yaxşı insanın hər şeyi açıq və ortadadır. Buna görə də, özünün nə qədər xoşniyyətli və günahsız insan olduğunu sübut etmək üçün xüsusi səy göstərməyə ehtiyac duymaz. Pislik edənlər isə gizli etdikləri pislikləri bildiklərinə görə, həmişə bunun narahatlığı ilə yaşayarlar. Gizlətdikləri pisliklərin hər an ortaya çıxma təhlükəsi var. Belə ehtimalla qarşılaşdıqları zaman, özlərini təmizə çıxarda bilmək üçün, əvvəlcə xoşniyyətli və günahsız olduqları təəssüratını mümkün qədər çox vurğulayarlar. Eynilə pislikləri ortaya çıxarıldığı zaman da, yenə günahsızlığın ardına sığınaraq qarşı tərəfi yanıltmağa və özlərini qurtarmağa çalışarlar.

Günahsızlığın ardına sığınmaları eyni zamanda etdikləri gizli pislikləri, ehtiyac duyduqları zaman, təkrarlaya bilmək məqsədini də daşıyır. Etdiklərinin üzərini nə qədər yaxşı örtə bilsələr, sonrakıları da ətraflarındakı insanlara o qədər asan qəbul etdirə biləcəklərini düşünərlər. Əgər günahsız təqlidi etmələri bir dəfə nəticə versə, bu üsulla həmişə müvəffəqiyyət qazanacaqlarını düşünərlər.

Günahsızlıqlarına dair göstərdikləri dəlillərlə, etdikləri pislikləri ört-basdır edib qarşı tərəfin gözündə təmizə çıxmaqla yanaşı, öz vicdanlarını rahatlaşdırmağı da qarşılarına məqsəd qoyarlar. Çünki edilən hər pislik, insanın vicdani sıxıntı çəkməsinə səbəb olar. İnsan pisliyi bunun vicdanına zidd hərəkət olduğunu bilərək edər. Bu vicdan əzabından xilas ola bilmək üçün də, özünü rahatlaşdıracaq, etdiyi pisliyi üzrlü göstərəcək bəhanələr tapmağa çalışar. Halbuki vicdanın bu təzyiqini ortadan qaldıracaq tək həll Qurana uyğun əxlaq göstərməkdir. Allah Quranda insanlara pislik işlədikləri zaman tövbə etmələrini, etdikləri pislikləri saleh əməllər işləyərək yaxşılıqlara çevirmələrini bildirmişdir. Bu əxlaq göstərilmədiyi müddətcə insanın etdiyi pisliyi günahsızlıq görünüşü kimi saxta pərdə ilə örtməyə çalışması, insanı başqa pis əmələ sürükləməkdən başqa işə yaramayacaq. Bununla yanaşı, Allahın; "kim izzəti istəyirsə, artıq bütün izzət Allaha məxsusdur. Gözəl söz Ona tərəf yüksələr və saleh əməl də onu yüksəldər. Pislikləri təşkil edənlər isə; onlar üçün şiddətli əzab var. Onların təşkil etdikləri “puç olub pozular”” (Fatir surəsi, 10) ayəsiylə, bildirdiyi kimi hər pislik mütləq puç olub pozulacaq.

Şeytanın təlqini ilə hərəkət edən insanlar da, eynilə onun kimi özlərini günahsız tanıda bilmək üçün, xüsusi üsullar tapar və qarşılarındakı insanlara təsir edə biləcəyini düşündükləri bəzi üslub, davranış və danışıq tərzinə yiyələnərlər.

Bu üsullardan bəzilərini belə sadalaya bilərik:

## Allahın adından istifadə edib özlərini günahsız göstərməyə çalışmaları

Bəzi insanların, ətraflarındakı insanları xoşniyyətli və günahsız olduqlarına inandıra bilmək üçün əl atdıqları səmimiyyətsiz üsullardan biri, mənəvi dəyərlərdən istifadə etməkdir. Quran əxlaqına heç uyğun gəlməyən həyat tərzi yaşayanlar belə, özlərini xoşniyyətli və təmiz qəlbli insanlar kimi tanıtmaq üçün, lazım gəldikdə Allahın adını zikr edər; dindar olmağın, Allahdan qorxmağın, vicdanlı davranmağın əhəmiyyətindən bəhs edə bilərlər. Lakin Allahın adını zikr edərkən Allahın böyüklüyünü, etdikləri səmimiyyətsizlikləri bildiyini və bundan ötrü özlərini əzablandıra biləcəyini düşünməzlər.

Cəmiyyətdə bu səmimiyyətsiz davranışın bir çox nümunəsinə rast gəlinir. Bunlardan ən çox rast gəlinənlərdən biri, bu cür insanların hər dəfə çətin vəziyyətdə qaldıqda, dərhal "Allahın adını çəkərək yalandan and içmələri"dir. Bu yolla, ortada günahsız olduqlarına dair inandırıcı heç bir dəlil olmasa və hətta haqsız olduqları çox açıq olsa da, qarşı tərəfi asanlıqla razı salmağı bacara biləcəklərini zənn edərlər. Çünki Allahın adını dilə gətirib and içməklə insanların vicdanlarında dərin təsir qoyacaqlarını düşünərlər. Xüsusilə də, dindar insanlar arasında bu üsulun olduqca təsirli olacağına inanarlar.

Bu insanların özlərinə günahsız görünüşü verə bilmək üçün etdikləri, təkcə Allahın adından istifadə edərək and içmək deyil. Özlərini təmizə çıxarda bilmək üçün mümkün olan bütün imani ünsürlərdən bu istiqamətdə istifadə etməyə çalışarlar. Məsələn, göstərdikləri davranış pozuntularını məqbul zəminə oturda bilmək üçün, uzun-uzadı imani söhbətlər edərlər. Gözəl əxlaqa nə qədər əhəmiyyət verdiklərindən, pislikdən necə diqqətlə çəkindiklərindən və bu mövzuda nə qədər həssas davrandıqlarından danışarlar. Yanlış hərəkətin axirətdəki qarşılığından çəkindikləri üçün, bu cür davranışlardan həmişə uzaq dayandıqlarını deyərlər. Lakin mənfəətlərinə zidd olan hər hansı vəziyyətlə qarşılaşdıqları zaman, bu dediklərinə tam zidd davranmaları səmimiyyətsizliklərini göstərir.

Yenə bu yöndə əl atdıqları digər səmimiyyətsiz üsul isə, etdikləri pislikləri ört-basdır edib bunlara məqbul izahlar gətirə bilmək üçün Quran ayələrini öz yanlış məntiqləri ilə şərh etməyə çalışmalarıdır. Allah Quranda bütün ayələrin açıq-aydın dillə endirildiyini bildirmişdir. Dolayısilə, Quranda işlənən bütün ayələrdə ifadə edilən məna çox aydındır. Lakin şeytanın təsiri altına düşən insanlar özlərini haqlı çıxarda bilmək üçün, çirkin cəsarət göstərib etdikləri vicdansızlıqlarını, yanlış şərhlər əlavə edərək söylədikləri ayələrə əsaslandırmağa çalışarlar.

Bu cür şeytani üsullar, hadisələri Qurana əsaslanan ağılla qiymətləndirməyən insanlarda bəzən həqiqətən də təsirli ola bilər. Lakin müsəlmanlar insanların davranışını Allahın Quranda bildirdiyi meyarlara əsasən qiymətləndirərlər. Bir insanın təkcə dili ilə Allahın adını zikr etməsi və ya Allahın adına and içməsi, söhbətlərində dini ünsürlərə yer verməsi, qəlbinin nə qədər təmiz olduğunu dilə gətirməsi, həmin insanın səmimiyyətinə qənaət gətirmək üçün kifayət deyil. Çünki bütün bunlar qəlbində xəstəlik olanların iman gətirənləri yanıltmaq üçün, təqlid edə biləcəkləri davranışlardır. Əsil səmimiyyətin göstəricisi, insanın sözləri ilə dilə gətirdiklərini davranışlarında da göstərməsi və pisliyin gizlisindən də, aşkarından da diqqətlə çəkinməsidir.

Bundan da savayı, belə pis davranış pozuntusu göstərən insanın əsla unutmaması lazım olan, insanlardan gizlənməyi hər nə qədər bacarsa da, etdiyi pisliklərin hamısına Allah şahid olmasıdır. "...Onların heç nəyi Allahdan gizli qalmaz..." (Mümin surəsi, 16) ayəsiylə bildirildiyi kimi, Allah edilən hər pisliyi və bunları ört-basdır edə bilmək üçün irəli sürülən hər səmimiyyətsiz bəhanəni bütün təfsilatları ilə bilir. Buna görə də, insan bütün bunların

hesab günündə qarşısına çıxacağını bilib davranmalı, Allahın rizasına uyğun əxlaq göstərməyi hədəfləməlidir.

## Günahsızlıqlarını sübut edə bilmək üçün ardıcıl yalanlar danışmaları

Şeytanın təsiri ilə hərəkət edən insanların, özlərini günahsız göstərə bilmək üçün əl atdıqları üsullardan biri də yalan danışmaqdır. Lakin yalan danışmaq deyildikdə, ağla təkcə çox açıq və dəqiq ortada olan bir məsələnin tam əksinin deyilərək gizlənməsi gəlməməlidir. Şeytan pisliyin səssiz dilini öyrətdiyi insanlara, yalanı da sübutu çox çətin olacaq şəkildə hiyləgərliklə söyləməyin yollarını göstərər. Əgər sübut edilə bilmirsə, ortada həqiqi mənada bir yalan da olmadığına inanmalarını təmin edər. Həmçinin bu yolla, yalanın adı qoyulmamış şəkildə gizlincə insanlar arasında yayılmasını istəyər.

Dolayısilə, bu insanlar əslində tez-tez yalan danışdıqları halda, özlərini bu davranış pozuntusundan uzaq hesab edərlər. Şeytanın bu yolla söylədikləri yalanlara isə müxtəlif adlar qoyaraq bunlara günahsızlıq qazandırmağa çalışarlar. Məsələn, "ağzımdan belə çıxdı", "yanlış ifadə etdim", "tam deyə bilməmişəm", "yanlış xatırlamışam", "o hissəni deməyi unutmuşam", "başqa mövzu ilə qarışdırmışam" kimi açıqlamalarla söylədikləri yalanı xoşniyyətli və zərərsiz hərəkət kimi göstərməyə çalışar, özlərini də bu açıqlamalar inandırarlar. Söylədikləri sözlərin dinləyənlər tərəfindən "yalan" olduğu qəbul edilsə də, onların bunları dilə gətirməkdəki məqsədlərinin yalan danışmaq olmadığını irəli sürərlər. Mühüm məsələnin bunları söyləyərkən qəlblərində daşıdıqları "niyyət" olduğunu və özlərinin də bu yaxşı niyyətlərindən əmin olduqlarını iddia edərlər. Halbuki bu da yenə başqa yalandır və qəlblərindəkinə Allahı şahid tutduqları halda, Allah yalan danışdıqlarını bilir.

Şeytan açıq-aydın şəkildə yalana təşviq edə bilmədiyi insanları, məhz belə hiyləgər üsullarla dürüstlükdən uzaqlaşdırar. Bəzən bir mövzunu olduğundan fərqli, əskik və ya artıqlamasıyla danışdırıb, bəzən deyilən sözü daha sonra dəyişdirib sözlərin mənasını sapdırmağa təşviq edər. Quranın; "həqiqəti həmişə tərs deyib, günaha düşkün hər kəsin vay halına!" (Casiyə surəsi, 7) ayəsi ilə bu kəslərin "həqiqəti həmişə tərs deyib" söylədikləri yalanlara diqqət çəkilmişdir.

Şeytanın təsiri ilə hərəkət edən bu insanlar, məqbul olmayan davranışlara yol verərkən, bunlara sonra necə izah gətirəcəklərini, bəzən hələ o hərəkəti edərkən ağıllarından keçirib müəyyənləşdirərlər. Bəzən də bunun nəticəsini heç düşünməz; etdikləri pis hərəkətlər ortaya çıxdığı zaman, özlərini təmizə çıxarda bilmək üçün bir anda refleks olaraq yalana əl atarlar. Həmin bu insanların bu reflekslərini hərəkətə keçirən isə, əlbəttə ki, yenə şeytandır. Onlara bir mövzuya ən yaxşı hansı şəkildə izah gətirə biləcəklərini, əksinin

sübut edilməsini necə ən yaxşı şəkildə çətinləşdirib özlərini günahsız göstərə biləcəklərini ilham edər.

Lakin bir yalan, ümumiyyətlə, ardından bir çox yalanı da özü ilə gətirər. Buna görə də, şeytanın təsirinə düşənlər özlərini təmizə çıxarda bilmək üçün ardıcıl yalanlar danışmağa başlayarlar. Təkcə bir mövzudakı səmimiyyətsizliklərini ört-basdır edə bilmək üçün, təlaş içində düşünmədən çoxlu yanlış məlumat verib yanlış məntiqlər irəli sürərlər. Söylədikləri yalanlar qarşılarındakı insanlar tərəfindən sübut edildiyi zaman isə, nə edəcəklərini heç bilməz və bu dəfə də yanlış başa düşüldüklərini, haqsızlığa uğradıqlarını iddia edib özlərinə bəraət qazandırmağa və mövzunu bağlamağa çalışarlar. Hətta belə vəziyyətdə özlərini təmizə çıxartmaq üçün, əvvəlki hissə toxunduğumuz kimi yalan yerə and içməkdən də çəkinməzlər.

Şübhəsiz ki, bu onların Allahı lazımınca tanımamalarından, Allah adına içilən andın nə qədər böyük məsuliyyət olduğunun dərk etməmələrindən qaynaqlanır. Allahdan lazımınca qorxmamalarından ötrü bu mövzuda çirkin cəsarət göstərirlər. Yalan yerə and içib Allahı şahid gətirərkən ən gizlini bilən Allahın özlərini eşitdiyini ağıllarına belə gətirmirlər. Üstəlik, özlərinə bildirildiyi zaman, şeytanın təsiri altında olduqları üçün bu həqiqətə göz yuma bilirlər. Halbuki bəlkə dərk etmirlər, lakin əslində bu yalanları insanlara deyil, Allaha qarşı söyləmiş olarlar. Quranda; "...özləri də bildikləri halda Allaha qarşı (belə) yalan danışarlar" (Ali İmran surəsi, 78) ayəsi ilə bu həqiqətə diqqət çəkilir. Quranın; "bunların heç birinə itaət etmə: tez-tez and içən alçağa" (Qələm surəsi, 10) ayəsiylə, Allah belə insanlara etimad edilməməsinin lazım olduğuna işarə edir.

Quranda hz. Yusifin qardaşlarının ona qarşı hazırladıqları "pisliyi" ört-basdır edə bilmək üçün yenə eyni usula, yalana əl atdıqları bildirilir. Öz aralarında qardaşları hz. Yusifi öldürə bilmək üçün plan qurmuş, ardından da onun "yaxşılığını" istədiklərini söyləyib atalarından hz. Yusifi özləri ilə birlikdə göndərməsi üçün icazə istəyiblər:

**(Bu qərara gəldikdən sonra) "ey atamız!" dedilər. "Sənə nə olub ki, Yusifi bizə etibar etmirsən? Halbuki əslində biz onun yaxşılığını istəyənlərik. Sən onu sabah bizimlə göndər, doyunca gəzsin, oynasın. Əlbəttə ki, biz onu qoruyub himayə edərik". (Yusif surəsi, 11-12)**

Daha sonra hz. Yusifi bir quyunun dibinə salmış, atalarına isə başqa yalanla gəlib onu canavarın tutduğunu söyləyiblər. Eyni zamanda da; “biz doğrunu söyləsək də, sən bizə inanan deyilsən” deyib özlərini günahsız göstərməyə çalışıblar:

**"Axşamüstü atalarının yanına ağlayan vəziyyətdə gəldilər. Dedilər: "ey atamız! Həqiqət budur ki, biz getdik, yarışırdıq. Yusifi də yeməklərimizin (və ya əşyamızın) yanında**

**qoymuşduq. Lakin onu canavar yeyib. Onsuz da, biz doğrunu söyləsək də, sən bizə inanan deyilsən". (Yusif surəsi, 16-17)**

Ataları hz. Yaqub isə onların yalan danışdıqlarını görərək, sözlərinə güvənməmiş və onların pis hiylələrinə qarşı Allaha sığındığını bildirmişdir:

**Həmçinin üstünə yalandan qan (yaxılmış) köynəyini gətirdilər. "Xeyr" dedi. Nəfsiniz sizi yanıldaraq (belə) bir işə sövq edib. Bundan sonra (mənə düşən) gözəl səbir etməkdir. Sizin bu uydurduqlarınıza qarşı (Özündən) kömək istəniləcək olan Allahdır". (Yusif surəsi, 18)**

## Etdikləri pisliklərin məsuliyyətini başqalarının üstünə atmağa çalışmaları

Allah Quranın; "...o, sizi torpaqdan yaradanda da, siz analarınızın bətnində rüşeym halında olanda da sizi yaxşı tanıyırdı. O zaman özünüzü təmizə çıxartmayın! O, çəkinəni daha yaxşı tanıyandır" (Nəcm surəsi, 32) ayəsiylə, insanları nəfslərindəki "özlərini təmizə çıxartma" istəyinə qarşı xəbərdar etmişdir. Lakin davranışlarını Quran əxlaqının tələb etdiyi şəkildə tənzimləməyən bəzi insanlar, nəfslərini pisliklərdən təmizləmək əvəzinə, bunları ört-basdır etməyi seçərlər. Bəzən bu məqsədlə sırf özlərini qurtarmaq üçün etdikləri səmimiyyətsiz davranışın məsuliyyətini başqasına yükləməyə çalışarlar. Lakin bu məqamda ağla təkcə, işlənmiş günahı açıq şəkildə başqasının üstünə atmaq gəlməməlidir. Məsələn, bir insana müəyyən əşya barədə; "bunu sən götürdün?" deyildiyi zaman, həmin insan; "xeyr, mən deyil, filankəs götürdü" deyə yalan danışsa, digərindən soruşduqda yalanın dərhal ortaya çıxacağı bəllidir. Üstəlik, də yalanın, Allahın insanlara qadağan etdiyi davranış forması olduğunu bilənlər bilə-bilə belə hərəkət etməyə vicdanən yanaşmazlar. Dolayısilə, şeytan açıq şəkildə pislik etməkdən çəkinən belə insanlara, ümumiyyətlə, bu cür açıq yalanlar dedirtməkdə müvəffəqiyyət qazanması qeyri-mümkün ola bilər. Bu təqdirdə, onları öz incə üsullarına əsaslanan hərəkətləri etməyə təşviq edə bilər. Bunun üçün işlətdiyi üsul isə, müəyyən pisliyi edərkən bundan duyacaqları vicdan narahatlığını ört-basdır edə bilmək üçün, bu davranışlarının məsuliyyətini başqasına yükləməyə təşviq etmək olar.

Şeytanın bu yolla aldatdığı insanlar özlərini təmizə çıxarda bilmək üçün, ətraflarındakı insanların xoşniyyətli sözlərini və ya hərəkətlərini təhrif edər və bunları bəhanə göstərərək pis davranışlarını qanuniləşdirməyə çalışarlar. Öz davranışlarının məsuliyyətini yükləyəcəkləri bu insanların, xüsusilə səmimiyyətləri, dürüstlükləri, etibarlılıqları və gözəl

əxlaqları ilə tanınan insanlardan olmasına böyük diqqət göstərərlər. Bu yolla özlərinin xoşniyyətlə, təkcə bu insanların sözünə tabe olduğunu söyləyər; əgər ortada yanlış hərəkət varsa, buna görə, əsil onların məsuliyyət daşıdığını iləri sürər. Müdafiə etdikləri bu yanlış məntiqə görə özlərinin heç bir günahı yoxdur; onlar təkcə "dürüst, səmimi və etibarlı" bildikləri insanların sözünə tabe olmuş, dolayısilə ortaya çıxan yanlış davranışa da həmin şəxslər səbəb olmuşdur.

Bu insanlar, bəzən də pis davranışlarını təmizə çıxarda bilmək üçün, eyni üsulu, sözlərin kəlmə mənalarını təhrif etməklə tətbiq edərlər. Bir sözün eyni anda bir neçə məna verdiyi müddəasından istifadə edərək qarşı tərəfin əslində nəzərdə tutduğunu fərqli şəkildə qəbul etdiyi üçün, belə hərəkət etdiklərini irəli sürərlər. Quranda bu cür insanların səmimiyyətsiz davranışlarına; "lakin zülm edənlər, özlərinə deyilən sözü başqası ilə dəyişdirdilər..." (Bəqərə surəsi, 59) ayəsiylə diqqət çəkilmişdir. Şeytan təsiri altına saldığı insanları belə hiyləgər üsullarla pisliyə sürükləyir.

## Əksəriyyətin eyni xətanı etdiyini söyləyərək, hərəkətlərini məqbul hala gətirməyə çalışmaları

Şeytanın təsiri ilə hərəkət edənlərin işlətdiyi səmimiyyətsiz üsullardan digəri də, özləri kimi eyni yanlış davranışı göstərən insanların olduğunu irəli sürərək xətalarını məqbul göstərməyə çalışmalarıdır. Bu, əslində şeytanın ən məlum üsullarından biridir; insanları pisliyə sövq edərkən, ətraflarındakı pis insanlardan nümunələr göstərərək onları cəsarətləndirər. Bu insanların da eyni davranışı göstərdiyini irəli sürərək, insanı bu cür davranışın yanlış olmadığına inandırmağa çalışar. Əlbəttə ki, vicdanları bu insanlara həqiqətdə doğru olanı göstərir, lakin nəfslərini təmizə çıxartmağı qarşılarına məqsəd qoyan insanlar, şeytanın təlqin etdiklərini bilə-bilə özləri üçün bəhanə qəbul edərlər.

Onlara hər hansı səhvləri bildirildiyi zaman, dərhal bu bəhanəni irəli sürüb özlərini haqlı çıxartmağa çalışarlar. Bu davranışın ətraflarındakı insanların əksəriyyətində geniş yayılmış olması, həmin bu insanların müdafiəsinin təməlini təşkil edir. Lakin əslində bu vəziyyətin yanlış davranışlarını qanuniləşdirməyəcəyini çox yaxşı bilərlər. Buna baxmayaraq; "bunu edən təkcə mən deyiləm, bu insanlar da eyni hərəkətləri edir" və ya "bunu hər kəs edir" kimi sözlərlə özlərinə yönəldilən tənqidi əsassız edə biləcəklərini düşünərlər. Bu yolla qarışıqlıq yaradıb diqqəti özlərindən uzaqlaşdırmaq istəyərlər.

Halbuki Qurana görə bu məntiqin heç bir əsası yoxdur. Başqalarının da eyni günahı işləməsi insanı məsuliyyətdən qurtarmaz; qurtarmadığı kimi yüngülləşdirici səbəb də sayılmaz. Çünki Allah Quranın; "yer üzündə olanların əksəriyyətinə itaət etsən, səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq “zənn və təxminlə” yalan danışarlar!" (Ənam surəsi, 116) ayəsiylə, insanları əksəriyyətə tabe olmamaları məsələsində xəbərdar etmişdir. Bir çox insan eyni anda eyni xətaya yol verə bilər; lakin insan təkbaşına vicdanının səsinə tabe olmaqla və Quran əxlaqını yaşamaqla məsuldur. Hər insan axirətdə Allaha təkbaşına hesab verəcək. Eyni xətanı bir insan cahilliyindən, digəri yanıldığından və digəri isə qəsdən pisniyyətlə edə bilər. Heç bir insan başqasının həqiqi niyyətini bilə bilməz. Lakin Allah bütün insanların niyyətlərini, “köksləründə” gizlətdiklərini bilər və onları buna görə sorğu-sual edəcək.

"Ey iman gətirənlər! Üzərinizdəki (məsuliyyət) öz nəfslərinizdir. Siz doğru yola çatsanız, azan sizə zərər verə bilməz. Hamınızın qayıdışı Allahadır. O sizə etdiklərinizi xəbər verəcək!" (Maidə surəsi, 105) ayəsiylə bildirildiyi kimi, hər insan özündən məsuldur. Üstəlik, qeyd olunan insanlar "hamı edir" bəhanəsindən, əksəriyyətə aldandıqları üçün deyil, doğrunu bildikləri halda özlərini qurtarmaq üçün istifadə edirlər.

Halbuki bu vəziyyəti Quranla qiymətləndirsələr, edilən hər xatırlatmanın özlərinə mütləq xeyir gətirəcəyini görərlər. Çünki yanlış bir davranış eyni anda bir çox insan tərəfindən tətbiq olunsa belə, Allahın bunun yanlış olduğunu həmin insana eşitdirmiş olması onun üçün böyük rəhmətdir. Hadisəni bu cür qiymətləndirmək əvəzinə, əksəriyyəti dəlil göstərərək, bu xətalı davranışı gizlətməyə çalışmaq, insana dünya və axirətdə ancaq itki gətirər.

## Yanlış hərəkətlərini düşünmədən etdiklərini iddia etmələri

Şeytanın təlqinlərinə uyan bəzi insanlar da etdikləri səhvlərə bəhanə olaraq "bilmədiklərini" bəhanəsini irəli sürərlər. Halbuki bu da şeytanın insanlara öyrətdiyi özlərini günahsız göstərmək üsullarından biridir. Çox vaxt əslində yanlış olduğunu yaxşı bildikləri pislikləri sanki heç bilmədən və düşünmədən etmişlər kimi özlərini müdafiə etməyə çalışarlar. "Bilsəydim, edərdim?", "cahilliyimdən, düşünə bilmədiyimdən etdim" kimi ifadələrlə özlərini təmizə çıxartmaq istəyərlər. Əlbəttə ki, insan bilmədiyindən və ya cahilliyindən bəzi xətalar edə bilər. Lakin bu vəziyyət şeytanın təsiri ilə yaranan davranış pozuntularından olduqca fərqlidir. İnsanın baxışlarına, səs tonuna, üslubuna, danışıqlarına əks olunan səmimiyyəti, bu mövzudakı dürüstlüyünün başa düşülməsini təmin edər. Şeytanın təsirinə düşənlər isə həqiqətən bilmədiklərindən deyil, səmimiyyətsiz olduqlarına

görə bu bəhanənin arxasına sığınırlar. Həqiqətdə Allahın Quranda bildirdiyi gözəl əxlaqın tələb etdiyi davranışlardan xəbərdardırlar. Bununla yanaşı, vicdanları hansı əxlaqı göstərməyin və hansı davranış pozuntularından çəkinməyin lazım olduğunu hər an onlara bildirir. İnsanın buna baxmayaraq, davranış pozuntularına yol verməsi, bu əxlaqı özünə bildirildiyində isə bunun məlumatsızlığından qaynaqlandığını söyləməsi dürüst davranış deyil. Həmin bu insanlar bundan pisliyin səssiz üsullarından biri kimi istifadə edirlər.

Quran əxlaqına uyğun olmayan davranışı, bilmədikləri üçün etdiklərini söyləyən kəslər, bu səmimiyyətsizliklərini dəstəkləmək üçün; "qəlbindəkini Allahdan və özlərindən başqa heç kimin bilməyəcəyi" həqiqətindən də istifadə etməyə çalışarlar. Əlbəttə ki, insanların qəlblərində olanı təkcə Allah bilər. İnsanlar isə başqasının həqiqi niyyətini bilməzlər. Lakin bu da vardır ki, Allah insanların niyyətlərini xaricə əks etdirən bəzi əlamətləri Quranla bildirmiş və möminlərin vicdanlarına bir kimsənin hiyləgərliyini və ya pis niyyətini anlaya biləcəkləri həssaslıq vermişdir. İman gətirənlər şeytanın təsirinə düşənləri Quranda bildirilən bu əlamətlər sayəsində görə bilərlər. Lakin bu insanlar ortada etdikləri gizli pislikləri sübut edən konkret dəlillərin olmamasından, səmimiyyətsiz əməllərinin üstünü bilərək örtmək üçün istifadə edərlər. Bu yolla özlərini gözəl əxlaqa çağıranların önünü kəsib, özlərinə yönəldilən tənqidin etibarsız olduğunu sübut edə biləcəklərini düşünərlər. Halbuki bu düşüncə onları daha da böyük səmimiyyətsiz əməllərə sürükləyər. Bu yolla etdikləri səmimiyyətsizliyin ətrafdakı insanlar tərəfindən başa düşülmədiyinə inansalar, daha sonra hər dəfə belə vəziyyətlərlə qarşılaşdıqda eyni üsula əl atarlar.

Şeytan nəfslərini təmizə çıxarda bilmək üçün insanlara pisliyin səssiz dilinin bunun kimi daha bir çox incə üsulunu öyrədər. İnsanın bütün bunlardan çəkinə bilməsi üçün, heç unutmaması lazım olan mühüm bir həqiqət var. Allah Quranın; "...onlar təkcə öz nəfslərini azdırarlar və sənə heç nə ilə zərər verə bilməzlər. Allah sənə Kitabı və hikməti nazil etdi və bilmədiklərini öyrətdi..." (Nisa surəsi, 113) ayəsiylə, insanların etdikləri pisliklərlə təkcə özlərinə zərər verdiklərini xatırlatmışdır. Böyük və ya kiçik olsun, gizli və ya açıq olsun Allah insanlara pisliyin hər növündən çəkinmələrini bildirmişdir. Səhv bir hərəkəti sübut edilə bilməyəcək hala gətirib gizlətmək insan üçün qazanc deyil, böyük itkidir. Quran əxlaqına ən uyğun davranış belə vəziyyətdə edilən səhvi səmimiyyətlə qəbul edib, bunu Allahın bəyənəcəyi əxlaqla əvəz etməkdir.

## Uşaq xarakteri göstərərək özlərini günahsız göstərməyə çalışmaları

Hər insan yetkin yaşlara kimi, uşaqlıq dövrü yaşamış və bu yaşlarda göstərdiyi xarakterin ətrafındakı insanlar üzərində yaratdığı təsirə şahid olmuşdur. Uşaq olmağın

insana təbii olaraq təmin etdiyi bəzi üstünlükləri olduğunu görmüş, insanların uşaqlara daxilən simpatiya və anlayışla yanaşdıqlarını təcrübə etmişdir. Bütün bu təcrübələr insanların ağlına yerləşmiş və hansı davranışın hansı reaksiyaya səbəb olacağı mövzusunda məlumat sahibi olmalarını təmin etmişdir. Bəzi insanlar irəli yaşlarda da, çıxılmaz vəziyyətdə qaldıqlarını düşündükləri bəzi anlarda, keçmişdəki bu təcrübələrinə əsaslanaraq uşaq xarakterinə bağlı bəzi xüsusiyyətləri özlərində əks etdirərlər. Lakin bunları hələ uşaqlıqdan xilas ola bilmədikləri üçün deyil, bu şəkildə davrandıqları zaman, ətrafdakı insanlarda uşaq yaşlarındakı kimi yenə simpatiya, mərhəmət, acıma kimi təsirlər yarada biləcəklərinə inandıqları üçün edərlər. Xüsusilə də, səhv etdikləri zaman, bu hərəkətlərinin qarşılarındakı insanlar tərəfindən məqbul görülə bilməsi üçün bu üsula əl atarlar. Çünki uşaqlar hələ inkişaf və təhsil dövrü içərisində olduqlarından bir çox mövzudakı səhvlərini şüurlu şəkildə etməzlər. Buna görə də, uşaqlara səhv hərəkətlərinə görə heç kim hirslənməz; əksinə anlayış, mərhəmət və şəfqətlə cavab verərlər. Demək olar ki, etdikləri hər şey məqbul qarşılanar; "uşaqdır, nə etsə yeridir", "uşaq ağlıdır neyləyəsən", "uşaqdır, ağlı kəsmir" kimi qiymətləndirmələrlə yanaşılar. Lakin, əlbəttə ki, müəyyən təhsil dövründən sonra hər insan yetkin və ağıllı şəxsiyyət ola biləcək səviyyəyə çatar.

Şeytanın insanlara öyrətdiyi mühüm səmimiyyətsiz əməllərdən biri olan bu məqsədli uşaq davranışı, Quran əxlaqını yaşamayan insanlar arasında bəlkə gözlənilən qarşılığı ala bilər. Lakin iman gətirən insanlar Allaha iman gətirən, axirətə inanan insanların imani yetkinlik, qətiyyətli və dirayətli şəxsiyyət göstərə biləcək ağla sahib olduqlarını bilərlər. Buna görə də, nəfslərinə zidd olan anlarda əgər uşaq xarakterinə bənzər hərəkətlər göstərilərsə, bunların şeytanın təsirindən qaynaqlandığını başa düşərlər. Çünki Allahın insanlara bildirdiyi məsuliyyətlərin yerinə yetirilməsi və Quran əxlaqının yaşana bilməsi üçün, ağıl və şüur açıqlığının lazım olduğunu bilərlər. Eyni zamanda Allahın gücünü, hesab gününün varlığını, cəhənnəm əzabının çətinliyini bilərək, asanlıqla başa düşülüb üstəsindən gəlinə biləcək mövzuları bilə-bilə anlamazlıqdan gəlib uşaqlıq etməyin, insana necə məsuliyyət yükləyəcəyindən də xəbərdardırlar.

Şeytan bəzi insanlara bütün bu həqiqətləri unutdurar və özlərini günahsız göstərə bilmələri üçün onları bu gizli üsulun arxasında gizlənməyə təşviq edər. Bəzən təkcə bir səhv etdikləri zaman, səmimiyyətsiz olduqlarını gizlətmək üçün bu yola müraciət edərlər. Şəxsiyyətli və ağıllı insana məxsus səs tonu əvəzinə, acizliklərini və günahsızlıqlarını ifadə edəcəyini düşündükləri uşaq səsi ilə danışarlar. Bəzən danışa bilməmək təqlidi edər, söyləyəcəkləri sözü tapa bilmirmiş, nə demək istədiklərini ifadə edə bilmirmiş, hətta cümlə belə qura bilmirmiş kimi davranarlar. Özlərini çox həyəcanlanmış, ağlı qarışmış və fikrini cəmləyə bilmirmiş kimi göstərib, qarşı tərəfə günahsız olduqları yönündə təsir etməyə və özlərini acındırmağa çalışarlar. Eyni zamanda bu şəkildə vaxt qazanaraq, özlərini necə təmizə çıxarda biləcəkləri mövzusunda yeni üsullar axtararlar. Halbuki danışa bilməmək kimi problemləri olmaz.

Eynilə baxışlarında da heç bir problem olmaz. Lakin bu yöndə də səmimiyyətsiz üsula müraciət edər, hiyləgərlik və saxtakarlıqlarını gizlətmək üçün mümkün qədər saf baxışlarla baxarlar. Bununla da sanki heç nəyi anlamayan, hiyləgərliyin və pisliyin nə olduğunu bilməyən təəssüratını yaratmağa çalışarlar. İti, diqqətli və ağıllı baxışlarla baxa bilən insanlar olduqları halda, bilərək bu baxışları gizlədib ətraflarındakı insanları aldatmağı hədəfləyərlər.

Uşaq səsləri, qırıq-qırıq danışıqlar və saf baxışlarla yanaşı (yenə heç belə olmadıqları halda) bacarıqsızlıq nümayiş etdirərək, vermək istədikləri uşaq görünüşünü gücləndirməyə çalışarlar. Ən bəsit şeyləri bilmirmiş və bacara bilmirmiş kimi hərəkətlər nümayiş etdirərlər. Bununla da, digərlərinin, “eynilə bir uşaq kimi” məsul tutula bilməyəcək kəslər olduqları barəsində qənaət gətirmələrinə çalışarlar. Beləliklə də, özləri barəsində; "o, saf niyyətlidir, pislik edə bilməz; istəsə də bilməz, bacarmaz" dedirdərək şəfqət duyulması lazım olan, zərərsiz və günahsız insan görünüşü yaratmağa çalışarlar. Diqqətçəkən digər mühüm xüsusiyyətləri isə, işlərinə yaradıqda uşaq təqlidi edib ətrafındakıları həqiqi hallarının belə olduğuna inandırmağa çalışan bu insanların, mənfəətləri ilə zidd düşdükləri anlarda birdən-birə xarakter dəyişdirmələridir. Bir anda uşaq kimi davranan, ətrafına saf baxışlarla baxan, dərdini başa salmaqda aciz olan, bacarıqsız insan yox olar, olduqca diqqətli və şəxsiyyətli insan olar.

Bəzən də dalğın olduqları anda həqiqi üzləri ortaya çıxar və şeytanın təsiri altında olduqlarına dair əlamətlər açıq şəkildə görünər. Lakin bunun göründüyünü bildikləri anda, özlərini dərhal yığışdırar və ətraflarına vermək istədikləri görünüşə uyğun olaraq, yenidən uşaq təqlidini etməyə başlayarlar. Bütün bu səmimiyyətsiz üsullar bu insanların uşaq xarakterini, şeytanın bir oyunu kimi məqsədli davranış olaraq tətbiq etdiklərini göstərər.

Göründüyü kimi, şeytan bu insanları təlqinləri ilə arxasınca aparır və istədiyini etdirir. Halbuki Allah bir ayəsində; "ey iman gətirənlər, şeytanın yolunu tutub getməyin. Kim şeytanın yolu ilə getsə, (bilsin ki,) həqiqətən o (şeytan) çirkin və pis əməlləri əmr edər..." (Nur surəsi, 21) sözləri ilə, özlərini təmizə çıxartmaq üçün şeytanın arxasınca gedən insanları belə pis əxlaqa qarşı xəbərdar edir.

Şübhəsiz ki, bir insanın, ağıllı, şəxsiyyətli, gözəl baxan, gözəl danışan, qabiliyyətli, normal və səmimi insan olması var ikən, uşaq əxlaqını seçib özünü bunların tam əksi şəklində tanıtmağa çalışması, ağlın qəbul edə biləcəyi seçim deyil. Bu insanların şeytanın təsiri ilə bu cür xarakter göstərdikləri çox aydındır. Şeytan bu insanları səmimiyyətsizliyə təşviq etmiş, sonra da onlara bunu gizlətməyin yollarını göstərmiş və uşaq kimi davrandıqları təqdirdə günahsız görünəcəklərinə inandırmışdır. İman gətirən bir insanın, Allahın gücünü, Quran ayələrini bildiyi halda, səmimiyyətsizliyə yanaşması axirətdə onu böyük əzaba sürükləyə bilər. Quranın; "...Allahın ayələrini oyun (mövzusu) qəbul etməyin. Allahın sizə verdiyi nemətləri, öyüd-nəsihət üçün göndərdiyi Kitabı və hikməti xatırlayın! Allahdan qorxub çəkinin və bilin ki, Allah hər şeyi Biləndir!" (Bəqərə surəsi, 231)

ayəsiylə, Allah insanları "ayələri oyun mövzusu etməmələri" mövzusunda xəbərdar etmişdir. Bir insanın şüuru açıq və ağlı yerində olarkən, Allahın ayələrini açıq şəkildə qavraya bilərkən bilərək uşaq görünüşünə bürünməyə çalışması, bu ayənin hökmünə girə bilər (doğrusunu Allah bilər).

Belə vəziyyətdə, ağıl və iman sahibi bir insan, insanların gözündə təmizə çıxa bilmək üçün səmimiyyətsiz üsullara əl atmamalı, təkcə Allahın rizasını qazanmağı hədəfləməlidir. Bunun üçün səmimi olmalı və səhv hərəkətə yol versə belə, bunu gizlətməyib Allahın məğfirətinə sığınaraq tövbə etməlidir.

# Neqativliklərini və narazılıqlarını pisliyin gizli dili ilə ifadə edənlər

Pisliyin səssiz dilini bütün insanlar arasında yaymağa çalışan şeytanın, bu məqsədlə insanlara öyrətdiyi üsullardan digəri də "neqativlik"dir. Neqativlik əsasən insanın Allahın (gizli və ya açıq) edilən hər pis əməli gördüyünü və insanın axirətdə bütün bunların qarşılığını tam alacağını unutmasından qaynaqlanar. Bu şüur bulanıqlığı ilə ortaya çıxan neqativ xarakter, gizli pisliklərin ən çox edildiyi xarakterlərdən biridir. Şeytanın təlqinləri ilə neqativ davranışlara yol verən insan bir-birinin ardınca pis əxlaq xüsusiyyətləri göstərməyə başlayar. Lakin bütün bunları yenə sübut edilməsinin mümkün olmadığını düşündüyü, "pisliyin səssiz dili"nin arxasına sığınaraq edər.

Neqativ ruh halına sahib insanın ağlında şeytanın təsirindən qaynaqlanan çoxlu vəsvəsə, şübhə və mənfi düşüncə var. Əgər şeytanın təsirindən xilas olmaq istəsə, əlbəttə ki, bu düşüncələrin hər birinə Quranla lazımi cavabı verərək, neqativ ruh halından dərhal xilas ola bilər. Lakin vaxtını bu vəsvəsələrlə keçirdiyindən, şeytanın təzyiqindən xilas olmağın asanlığını düşünməz. Həmin bu insanları neqativ ruh halına sövq edən səbəblər isə, çox vaxt həqiqətlə heç bir əlaqəsi olmayan boş vəsvəsələrdən ibarətdir. Ağıl və məntiqdən olduqca uzaq olan bu ağılsız düşüncələr, Quranla qiymətləndirilib ortaya çıxarıldığı zaman əsassız olduqları dərhal ortaya çıxar və şeytanın təsiri də dərhal yox olar.

İnsanın ağlına yerləşən və onu neqativ ruh halına sürükləyən bu mənasız düşüncələrin təməlində isə ümumiyyətlə "narazılıq" vardır. Nəfs Allahın yaratdığı çoxsaylı nemət və gözəlliyə baxmayaraq, onu narazı qalacaq, bədbinliyə qapılacaq, hər şeyin mənfi yönlərini görəcək əxlaqa sürükləməyə çalışar. Belə əxlaq anlayışında isə, insan qarşısına çıxan hər hansı şeydən səbəbsiz olaraq narazılıq duya bilər; yaşadığı həyatdan, içində olduğu mühit və şərtlərdən, ətrafındakı insanların rəftarlarından, qarşılaşdığı hadisələrdən, öz ruh halından, hərəkətlərindən və ya bunlar kimi daha bir çox mövzudan neqativ əxlaqa yönələ bilər. Bəzən də bu narazılığın səbəbi, hələ yaşanmamış və yaşanacağına dair heç bir məlumatlarının olmadığı gələcəyə, yəni qeybə əsaslanan hadisələrdir. "Ya belə şey olsa" və ya "bunun nəticəsində mütləq belə hadisə olacaq" kimi tamamilə bədbinliyə əsaslanan, lakin azacıq da olsa həqiqət payı olmayan hadisələri düşünüb narazı olarlar.

Lakin bu düşüncələrin və bunların ortaya çıxartdığı davranışların heç biri Quran əxlaqına uyğun deyil. Buna görə də, şeytan bu ruh halını imanları zəif olan və ya qəlbində xəstəlik olan insanlara yaşatmağa çalışar. Yaşanan narazılıqların təməli insanın ətrafındakı insanlara əsaslandıqda, şeytan bu neqativ ruh halının gizli dillə və sübutu mümkün olmayacaq şəkildə bu insanlara hiss etdirilməsini istəyər. Çünki Quran əxlaqından uzaq həyat tərzi yaşayan cahil cəmiyyətlərdə bu dildən, insanların bir-birlərinə gizli mesajlarla nə demək istədiklərini və bir-birlərindən nələr tələb etdiklərini başa salmaq üçün istifadə edilir.

Şeytan bu əxlaqı iman gətirənlər arasında da yerləşdirmək və onların da eyhamlı, gülməli və mesaj məzmunlu bəzi gizli davranışlarla razılığa gəlmələrini istəyər. Bu yolla onları Quran əxlaqından uzaqlaşdırıb hiyləgərliyə və öz əxlaqına yaxınlaşdıra biləcəyini düşünər.

Şeytanın bu çağırışlarına qulaq asanlar bunun ən böyük zərərini yenə özləri görərlər. Allahın rizasına və Qurana uyğun əxlaq göstərilmədiyi müddətcə, sıxıntı və narahatlıq insanın həyatından əskik olmaz. Yemək, içmək, yatmaq, istirahət etmək, nemətlərdən zövq almaq, dostluq və sevgidən ləzzət almaq, şən, rahat, xoşbəxt olmaq bu insanlar üçün sanki imkansız hala gələr. Bununla yanaşı, yaşadıqları ruh halını və narazılıqlarını açıq şəkildə dilə gətirib çarə axtara bilməmələri də, bu insanları böyük gərginliyə sürükləyər. Onlar belə çətinlik və gərginlik içində olarkən, qarşılarındakı insanların heç nədən xəbərsiz, rahat və hüzurlu olmaları isə bu gərginliyi dözülməz həddə çatdırar. Bəzən bundan ötrü ətraflarındakı insanlara qarşı gizli qəzəbə belə qapıla bilərlər. Özlərini daxilən bütün bu vəsvəsələrlə həmişə doldurduqları üçün, neqativliklərinin dərəcəsi getdikcə daha da artar.

Bu insanların yaşadıqları neqativ ruh halı imanı tam qavraya bilməmələrindən və Allaha lazımınca təslim olmamalarından qaynaqlanır. Buna görə də; "Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslama açar; kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənlərin üstünə məhz belə murdarlıq çökdürər" (Ənam surəsi, 125) ayəsiylə bildirildiyi kimi, Allah bu insanların üzərinə mənəvi kir çökdürür və qəlblərinə dözülməz sıxıntı verir.

Növbəti sətirlərdə şeytanın idarəsinə girən insanların, pisliyin gizli və səssiz dili ilə neqativliklərini hansı hərəkətlərlə göstərdiklərini və bunu hansı məntiqlərlə qanuni gördüklərini izah edib, şeytanın insanlara oynadığı bu oyunun üstünü açacağıq.

## Səssizlik və susqunluqla edilən gizli etiraz üsulları

Şeytani düşüncələrin səbəb olduğu neqativ şəxsiyyətin özünəməxsus ruh halı var. Susqunluq isə, bu ruh halındakı insanların ən mühüm silahlarından biridir. Ətrafdakı hadisələrdən və ya insanlardan duyduqları narahatlığı ən yaxşı ifadə etmə formalarından birinin, bu durğun və səssiz halları olduğunu düşünərlər. Beləliklə də, ətraflarındakı insanların diqqətini özlərinə çəkmək, onlara ortada qeyri-adi bir şey olduğunu hiss etdirmək istəyərlər. Əsil hədəfləri isə içərisində olduqları vəziyyətin onlardan qaynaqlandığını düşünmələrini və bunu düzəltməyə çalışmalarını təmin etməkdir. Bu, Quran əxlaqından fərqli  həyat tərzi yaşayan insanlar arasında çox geniş şəkildə tətbiq olunan üsuldur.

İnsanlar bir-birlərinə bir şey izah etmək istədikləri zaman, əvvəlcə ortada qəribə bir vəziyyətin olduğunu hiss edəcəkləri davranış forması göstərərlər. Ümumiyyətlə, bu insanlara; "nə oldu, nəyin var, nəyəsə görə sıxıldın, necə kömək edə bilərəm?" kimi suallar verilərək və bu ruh halından xilas olmaları təmin edilməyə çalışılar. Qarşı tərəf isə sahib olduğu ruh halının tələbi olaraq, belə xoşniyyətli suallara da eyni tərəddüdlü davranışla qarşılıq verər. "Heç nə yoxdur", "sənə elə gəlib", "yuxusuzam, yorğunam, bundan ötrüdür" kimi düşünülmüş ötəri cavablar verərlər. Bundan savayı, mümkün qədər heç bir mövzuda fikir bildirməz, danışılan mövzulara qoşulmaz və səssiz qalarlar. Hərdənbir qısa cümlələrlə söhbətə qoşulduqları zaman da soyuq və rəsmi üslubdan istifadə etməyə diqqət göstərərlər. Xüsusi səs tonu ilə; "bəli", "xeyr" və ya "bilmirəm" kimi qısa və kəsə cavablar verərlər. Diqqətlərini çəkmək istədikləri insanlar gəlib özləriylə maraqlanana və hətta istədikləri kimi diqqət yetirincəyə qədər bu etirazlarını davam etdirərlər. Bunu əldə etdiklərində də yenə bir müddət daha asta davranar, bu vəziyyətin öz iradələri xaricində olduğu görünüşünü vermək üçün özlərini “zaman keçdikcə açılırmış” kimi aparalar.

Bir neçə sual, bir az maraq və qayğının ardından yavaş-yavaş səs tonlarını normallaşdırar, hərdənbir söhbətlərə qoşular və hərdənbir çətin də olsa sevinə bilirmiş kimi edər və ən sonunda da normal hallarına qayıdarlar. Belə asta davranmalarının səbəbi, qarşılarındakı insanlara bu neqativ ruh halının qarşı tərəfin yanlış hərəkətlərindən qaynaqlandığını və dolayısilə yenə təkcə onların davranışlarını dəyişdirmələri ilə dəyişə bildiyini sübut etmiş olmaqdır.

Bəzən də ətraflarındakı insanların diqqət və marağını özlərinə çəkə bilmiş olmaları da, bu davranış pozuntularının ortadan qalxması üçün də kifayət etməz. Şeytan bu insanları neqativ ruh halına yönəldib susqun edərkən, onları nə istədiklərini tam şəkildə bilmədikləri davranışa sövq edər. Bu təqdirdə maraq göstərilsə də, göstərilməsə də hərəkətlərini dəyişməzlər. Həmin bu insan bir dəfə şeytana uymuş və belə mənfi və etiraz edən bir xarakter göstərməyə başlamışdır və əslində bundan istədiyi anda xilas ola biləcək iradəyə də sahibdir; çünki bunu öz istəyi ilə bilərəkdən edir. Lakin mövcud ruh halının necə ortaya çıxarılacağı bəlli deyil; əgər bir anda bu səmimiyyətsiz davranışdan imtina edib, ağıllı xarakter göstərib, aktiv, danışqan olsa, bu onun digər hərəkətlərini bilərək etdiyini mütləq ortaya çıxardacaq. Məhz əvvəlcə şeytana uyarkən bu təfsilatı görməzlikdən gəldikləri üçün, daha sonra bu vəziyyətdən xilas olmaq istədikləri halda, səmimiyyətsizliklərinin açığa çıxmaması üçün, səssiz etirazlarını davam etdirməyi seçərlər. Şeytan da bu vəziyyətdən faydalanar və guya qurtarmaq adı ilə onları başqa gizli pisliklərə sürükləyər.

Belə vəziyyətdə ən böyük zərəri yenə şeytana qulaq asan insanların özləri görərlər. Yaşadıqları neqativ ruh halından ötrü, bədbəxt və narahat olar, həmişə bəzi mənfəətlərin arxasınca getdikləri üçün içlərindən gəldiyi kimi davrana bilməzlər. Vicdanlarının səsini bilə-bilə dinləmədikləri üçün, bir müddət sonra artıq doğru yolu görə bilməyəcək, yaşadıqları çətinliklərə çarə tapa bilməyəcək hala düşərlər. Allah, şeytanın təlqinlərinə qapılan və bunda

inad edənlərin anlayışlarını qapadar və onları öz səmimiyyətsizlikləri içində vurnuxan aciz kimsələr halına gətirər. Bundan sonra, əvvəllər bilərəkdən etiraz məqsədi ilə etdikləri səssiz, içinə qapalı və durğun hallarını əsil xarakterləri halına gətirərlər. Şeytanın verdiyi əzabla ağılları durğunlaşan və dilsizləşən bu insanların həm əqli, həm də fiziki cəhətdən gücləri yox olar. Quran ayələrində verilən nümunələr belə insanların ruh hallarına belə diqqət çəkir:

**Allah bu məsəli çəkdi: "iki insan; bunlardan biri laldır, heç nəyə gücü çatmır və hər şeyi ilə öz ağasına (yükdür), o, onu hara yollasa, xeyirlə qayıtmaz; indi bu, ədalətlə əmr edən və dosdoğru yol üzərində olanla eyni ola bilərmi? (Nəhl surəsi, 76)**

Digər bir Quran ayəsində isə; "həqiqət budur ki, Allah dərgahında, yerdə vurnuxanların ən pisi, (heç cür) ağlı kəsməyən karlar və lallardır" (Ənfal surəsi, 22) sözləri ilə, bu insanların vəziyyətinə diqqət çəkilir. Quran əxlaqında belə səssiz dilin, eyhamlı hərəkətlərin, şeytanın təsiri ilə edilən neqativ davranışların yeri yoxdur. Möminlərin hər mövzudakı meyarı Qurandır. Ortada səhv bir şey varsa, Quran əxlaqının tələbi, bunun ağıllı üslubla, sözün ən gözəli ilə açıqca deyilməsidir. Həmçinin iman gətirənlər vicdanlarının səsini əsas götürdükləri üçün, Qurana uyğun hər xatırlatmadan öyüd alıb buna daha gözəli ilə cavab verərlər.

## Gözlərdə gizlənən xainlik və üzdəki qaranlıq ifadə

Gözlər, insanın ruhunda yaşadığı bütün duyğuları əks etdirən mühüm səmimiyyət meyarıdır. İman gətirən insanlar gözlərinin bu xüsusiyyətindən ən xeyirli şəkildə istifadə edər, sözləri və davranışlarıyla olduğu qədər gözləri ilə də gözəl əxlaqlarını göstərərlər. Dolayısilə, üzlərində olduqca aydın, nurlu və təmiz ifadə hakimdir. Baxışlarından Allaha dərin təslimiyyətlə bağlı olduqları, dürüst, etibarlı, səmimi, ağıllı, vicdanlı və hzüurlu insanlar olduqları bəlli olar.

Şeytanın təsirinə düşən insanların üzlərində isə bu xüsusiyyətləri görə bilmək, ümumiyyətlə qeyri-mümkündür. Şeytanın özlərinə təlqin etdiyi neqativ ruh halından ötrü, üzlərində hüzur və əmin-amanlıq ifadəsindən əsər-əlamət yoxdur. Əksinə, qəlblərindəki mənfi düşüncələrin üzlərinə əks olunmasından ötrü, qaranlıq, nə düşündüyü bəlli olmayan, anlaşılmaz ifadələr var. Hər nə qədər yaşadıqları şeytani ruh halına dair, dəlil vermədiklərini düşünsələr də, əslində üzlərinin bu halı, xeyirli və yaxşı düşüncələrə sahib olmadıqlarının sübutudur. Bu üzün ardında daha nələrin gizləndiyinin bilinməməsi isə narahat edicidir.

Əlbəttə ki, həmin bu insanlar da üzlərində yaranan bu neqativ təsirdən, qaranlıq və zillətdən xəbərdardırlar. Bəlkə bir hadisədən, bəlkə bir insanın davranışlarından, bəlkə də heç bir həqiqət payı olmayan, tamamilə zehinlərində qurduqları düşüncələri səmimiyyətsiz şəkildə şərh etdiklərinə görə bu neqativ ruh halına düşüblər. Həmçinin bu narazılıqlarını da gizlincə ətraflarındakılara açıqlaya bilmək üçün bu şeytani üsuldan istifadə edirlər. Allah Quranda etdikləri pisliklərdən ötrü vicdanları qaralan insanların üzlərini zillət bürüdüyünü bildirir:

**Pis əməllər qazanmış olanlar isə; hər pisliyin qarşılığı, öz misli ilədir. Bunları zillət bürüyər. Bunları Allahdan (qurtaracaq) heç bir qoruyucu yoxdur. Bunların üzləri, sanki qaranlıq gecənin parçalarına bürünmüş kimidir. Məhz bunlar Od sakinləridirlər; orada əbədi qalacaqlar. (Yunis surəsi, 27)**

Üzləri sanki gecə qədər qaranlıq olan bu insanların baxışları normal deyil. Gözlərində rahat, hüzurlu və məmnun ifadəyə rast gəlmək çox çətindir. Güclü dərəcədə neqativ ruh halında olduqlarından narahatlıq və təvəkkülsüzlükləri gözlərinə əks olunar; bu gərginlik gözlərində fiziki mənada da yığılma yarada bilər. Gözləri mümkün qədər kiçilər və donuqlaşar. Zehinləri necə şeytanın təsiri altındadırsa, eynilə gözləri də güclü şəkildə şeytanın təsiri altındadır. Yoxsa bir insanın gözləri ortada heç nə olmadığı halda, səbəbsiz yerə bu hala düşməz; donuq və mənasız baxışlarla baxmaz. Səmimi, dürüst, normal insanın gözü açıq, aktiv və parlaqdır. Yaşadığı hadisələr əsasında gözündə növbənöv insani mənalar yaranar. Belə insanın gözlərinə rahat baxıla və əlaqə yaradıla bilər. Şeytanın təsiri altında olan insanların gözlərinə baxmaq isə, olduqca çətin və yorucudur. Bu insanla eyni mühitdə olunduğu müddətcə üzərindəki neqativ təsir, orada olan digər bütün insanları narahat edər.

Burada bunu da ifadə etmək lazımdır ki, əlbəttə, bu baxış pozuntusunu düzəltmək tamamilə insanın öz iradəsində olan vəziyyətdir. Qəlbindəki vəsvəsələri, şeytandan gələn pis düşüncələri bir kənara atıb, yerinə Quran əxlaqına uyğun, xeyirli düşüncələr qoyduğu zaman, üzü də, baxışları da Allahın icazəsi ilə aydınlanar və gözəlləşər. Hətta gözəl əxlaqı və Rəbbimizə olan təslimiyyəti dərəcəsində üzündəki nur, baxışlarındakı məna da getdikcə dərinləşər. Lakin həmin bu insanlar bu baxışlardan, müəyyən hədəflər əsasında bilərək istifadə etdikləri üçün, bu vəziyyəti ortadan qaldıracaq səy göstərməkdən də bilə-bilə qaçarlar.

Allah insanları tanımaq və diaqnoz etmək məsələsində baxışların əhəmiyyətinə Quranın bir çox ayəsində işarə etmiş; "əgər Biz istəsək, sənə onları, əlbəttə, göstərərik, beləliklə də onları üzlərindən tanıyarsan..." (Məhəmməd surəsi, 30) ayəsi ilə, üz ifadələrinin münafiqləri tanıdan mühüm xüsusiyyət olduğunu ifadə etmişdir.

Allah Quranda Peyğəmbərimizin (s.ə.v) dövründə yaşayan bir qrup səmimiyyətsiz insanın baxışlarından da nümunələr vermişdir. Bir ayədə, Peyğəmbərimiz (s.ə.v)-ə olan baxışlarındakı pozuqluğun şiddətini; "o inkar edənlər, zikri (Quranı) eşitdikləri zaman, səni az qala gözləri ilə devirəcəkdilər..." (Qələm surəsi, 51) şəklində bildirmişdir.

Halbuki nə cür baxsa da, hər insanın unutmaması lazım olan mühüm bir həqiqət var; Allah özünü hər an görür. Quranın; "gözlər Onu dərk edə bilməz. O isə bütün gözləri dərk edər. O, lətifdir, xəbərdardır!" (Ənam surəsi, 103) ayəsi ilə, Allah bu vəziyyəti insanlara bildirmişdir. Digər bir ayədə isə; "(Allah) gözlərin xainliyini və kökslərin gizlətdiyini bilər!" (Mümin surəsi, 19) hökmü ilə xaincə baxan gözlərə, bu insanların qəlblərində gizlətdiklərinə diqqət çəkilmişdir.

Şeytanın təsirinə düşüb bəzi pis əxlaq xüsusiyyətlərini qəlbində gizlicə yaşadan bu insanların görməzlikdən gəlməmələri lazım olan, çox mühüm bir məsələ daha var. Bu insanlar həqiqi niyyətlərini hərəkətlərində bəlkə açıq şəkildə göstərmir və pis əxlaq xüsusiyyətləri daşıyan davranışlardan ciddi çəkinə bilərlər. Lakin unudulmamalıdır ki, insanın yaşadığı şeytani ruh halını əks etdirən gözlərindəki ifadə də, ona axirətdə böyük məsuliyyətlər yükləyə bilər. Bir insan digər hər rəftarına çox diqqət yetirdiyi halda, sırf içində gizlətdiyi və baxışlarına əks olunan pisliklərdən ötrü, günaha girə bilər və Allahın rizasını və cənnətini qazanmaya bilər (doğrusunu Allah bilər). Allah Quranda, dünya həyatında məsuliyyətsizcə qazandıqlarından ötrü, axirətdə böyük peşmanlıq yaşayacaq insanların varlığını xatırladıb, bütün insanları bu təhlükəyə qarşı xəbərdar edir:

**...Belə ki, saat (qiyamət günü) qəflətən onlara gəldikdə, günahlarını daşıyaraq deyəcəklər: "Onda (dünyada) məsuliyyətsizcə etdiklərimizdən ötrü, ayıb olsun bizə..." deyərlər. Diqqət yetirin, o edibqazandıqları necə də pisdir. (Ənam surəsi, 31)**

## Mənfi və pessimist üslubdan istifadə etmələri

Şeytan hiyləgərliklə idarəsi altına aldığı insanları Qurana zidd davranış formasına yönləndirmək üçün, onlara müxtəlif mənfi danışıq üsulları öyrədər. Bu danışıq üslubunun, daşıdığı şeytani yönlərin sübut edilməz olmasına böyük diqqət göstərilər. Ən əsas xüsusiyyətlərindən biri isə, ilk baxışda müsbət danışıq tərzi kimi görünməsidir. Dinləyən, danışanın olduqca faydalı mövzuya toxunduğunu və nəticədə də, sözlərini yenə Qurana uyğun mövzuya əsaslandıracağını zənn edər. Necə ki, söhbətin ümumi məğzindən bu yöndə

bir mənа da çıxar. Lakin aralarda çox incə üsullarla yerləşdirilmiş Qurana uyğun olmayan şeytani məntiqlər olar.

Həmin şəxsin işlətdiyi cümlələr kağızda yazılsa, bəlkə bunu oxuyan biri deyilənlərdə heç bir şeytani məna görə bilməyəcək. Lakin şeytan insana bunları söylədərkən elə təfsilatlarla dəstəkləyər ki, işlətdiyi sözlər müsbət mənalar daşıdığı halda, sözləri dinləyənlərdə tam əks təəssürat yaradar. Hərdənbir edilən vurğulamalar, səs tonundakı artıb-azalmalar, mövzular və ya cümlələrin arxa-arxaya gətirilmə sırası, müxtəlif mimikalar, üz ifadəsi və ya baxışlarla verilən dəstəklər deyilənlərə çox fərqli mənalar əlavə edər. İman sahibi bir insan, belə bir söhbəti dinlədikdə, Quran əxlaqına uyğun ağıl və vicdana sahib olduğuna görə, burada gizlənən şeytani xüsusiyyətləri bütün təfsilatlarıyla görər.

Belə mənfi üslubla şeytan hansı məqsədi güdür? Əsil üzə çıxarılması lazım olan mövzulardan biri də budur. Əvvəla, şeytan iman gətirənlər arasında fitnə törətmək, onları gizlincə mənfi düşüncələrə sövq edib pessimist ruh halına salmaq, aralarındakı qardaşlığı, birlik və həmrəyliyi yox etmək, hüzurlu və şən olmalarına mane olmaq və nəticə etibarilə də, onları Quran əxlaqından uzaqlaşdırmaq istəyər. Təsirinə saldığı insanların ağzından söylədiyi gizli pisliklər daşıyan danışıqlarla bu hədəfinə nail ola biləcəyini düşünər.

Lakin, əlbəttə ki, səmimi iman gətirənlər arasında belə şey qətiyyən mümkün olmaz. Hər şeydən əvvəl iman sahibləri Allahın rəhməti və qoruması altındadırlar. Allah səmimiyyətlərindən və hər işlərində Allahı vəkil tutmalarından ötrü, onları şeytanın və ya ona tabe olan insanların şərindən qoruyur. Onları doğru yolları üzərində sabit qədəm edir, Öz qatından verdiyi üstün ağıl, anlayış və diaqnoz qabiliyyəti ilə onların belə oyunları görmələrini və aradan qaldırmalarını təmin edir. Dolayısilə, şeytanın bu yöndəki bütün səyi boşa çıxmış olar.

İman gətirən insanlarla bir yerdə olub şeytana tabe olanlar isə əslində onun bu hədəflərini çox yaxşı bilirlər. Lakin şeytana xidmət edərkən öz aləmlərində olduqca fərqli hədəflər arxasınca gedərlər. Ətraflarına bir şeydən narahat olduqlarını ifadə etmək istədiklərinə görə şeytanın onlara ilham etdiyi bu üsuldan bilərək istifadə edərlər. Gizlicə göstərdikləri mənfi üslublarıyla diqqət çəkmək, maraq toplamaq, qayğı görmək və istəklərinin yerinə yetirilməsini təmin etmək istəyərlər. Quran əxlaqını yaşadıqları təqdirdə vicdan və ağıllarından istifadə edib səmimiyyət və dürüstlüklə əldə edə biləcəkləri nemətləri şeytani üsullarla əldə etməyə çalışarlar. Bu da qəti olaraq çıxılmaz yoldur. Möminlər şeytani üsullarla ortaya qoyulan tələblərə heç vaxt cavab verməzlər. İman sahibləri şeytanın təlqinlərinə qarşı insanları Quran əxlaqına çağırmaqla məsuldurlar. Şeytan insanları əks ehtimallarla aldatmağa, onları öz üsulları ilə xoşbəxtliyi yaşaya biləcəklərinə inandırmağa çalışar. Lakin şeytan insanlara yalandan başqa şey vəd etməz.

Heç kim həmişə mənfi danışan, narahatedici baxışlarla baxan, israrla səssiz, susqun və küskün rəftar göstərən, hər şeyin mənfi yönünü görüb pessimist açıqlamalar verən bir

insandan xoşlanmaz. Belə insan xoşbəxt ola bilməyəcək və gözəl həyat yaşaya bilməyəcək. Tək çıxış yolu, pisliyin gizli və ya açıq hər növündən uzaqlaşıb, Allahın dininə təslim olmaq, Quran əxlaqını yaşamağın rahatlığını dadmaqdır.

## Ətraflarındakı gözəllik və nemətləri dilə gətirməkdən qaçmaları

Şeytanın təlqinlərinə qapılaraq hər şeyə mənfi gözlə baxanlar, bir müddət sonra içində yaşadıqları çoxsaylı nemət və gözəlliyi görə bilməyəcək hala düşərlər. Ətraflarındakı hər şeyə tənqid etmək və qüsur tapmaq gözü ilə baxdıqları üçün, zehinlərini yalnız belə düşüncələr məşğul edər. Buna görə də, söhbətlərində, ümumiyyətlə, narahat olduqları mövzulardan gileylənər, lakin Allahın özləri üçün yaratdığı nemətlərdən bəhs etməzlər. Öz aləmlərində qüsur və ya nöqsan kimi gördükləri mövzulardan, olduqca səlis üslubla danışarkən Allahın nemət olaraq yaratdığı gözəllikləri dilə gətirməzlər. Çünki bu əxlaqı yaşayan insanlar şeytanın güclü təsiri ilə yalnız özlərinə qüsurlu görünən şeylərə diqqətlərini yönəldirlər.

Halbuki bu həqiqət çox yaxşı bilinməlidir ki, insanın sahib olduğu nemətlər özünə aid deyil. İnsan əsla belə haqsız iddia və sahiblənmə düşüncəsində olmamalıdır. Ən kiçiyindən ən böyüyünə qədər bütün nemətlər yalnız Allah istədiyi, lütf etdiyi üçün və qullarına olan sonsuz rəhmətinə görə mövcuddur. İnsanların sahib olduqları hər şey Allah onlara lütf etdiyi üçün özlərindədir. Allah Quranda sahib olduğu nemətlər barədə; "bu, mənə, məndə olan elmdən ötrü verilmişdir" (Qəsas surəsi, 78) deyən Qarun adlı şəxsin necə səhv davranış göstərdiyini və bundan ötrü, necə ibrət dolu aqibətə uğradığını belə bildirir:

**Sonunda onu da, sarayını da yerin dibinə keçirdik. Beləliklə də, Allaha qarşı ona kömək edəcək camaatı olmadı. Həmçinin o, özünə kömək edə biləcək insanlardan da deyildi. (Qəsas surəsi, 81)**

Qarunun vəziyyəti bütün insanların düşünüb ibrət götürməsi lazım olan həqiqətə işarə edir. Allah yer üzündəki bütün qullarına saysız-hesabsız nemət verir. Lakin yuxarıda ifadə etdiyimiz kimi, neqativ şəxsiyyətə yiyələnən insanların böyük hissəsi bəlkə də möminlərlə birlikdə yaşayarkən içərisində olduqları rifah mühitinin və rahatlığın verdiyi cəsarətlə belə xarakter göstərə bilirlər. Xoşbəxt ola biləcəkləri, şükür edə biləcəkləri o qədər nemətə baxmayaraq, gileylənmələri nankorluqlarının göstəricisidir. Halbuki sahib olduqları nemətlər əllərindən çıxsa, aclıq, xəstəlik, çətinlik kimi vəziyyətlərlə qarşılaşsalar, belə davranış

göstərə bilməyəcəklər. Tam əksinə çox kiçik nemət belə onlar üçün çox dəyərli olacaq, bunun qiymətini ən yaxşı şəkildə biləcək və şükür edən əxlaq göstərəcəklər.

Allah; "Rəbbinin nemətindən dayanmadan danış" (Duha surəsi, 11) ayəsiylə, insanları həmişə nemətləri xatırlamaq və onlardan danışmaqla məsul etmişdir. Digər bir ayəsində isə Allah, insanların ətrafını əhatə edən nemətlərin çoxluğunu bildirməklə onlar üzərindəki rəhmətini belə xatırlatmışdır:

**Əgər Allahın nemətlərini saymağa cəhd etsəniz, onu ümumiləşdirmə edərək belə sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir. (Nəhl surəsi, 18)**

Şübhəsiz ki, ağıl və məntiq sahibi hər insan, bu həqiqəti çox açıq şəkildə görə bilər. Bunun üçün xüsusi səy göstərməsinə ehtiyac yoxdur; təkcə ətrafa dönüb baxması kifayətdir. O zaman niyə bəzi insanlar bu vəziyyəti anlamazlıqdan gəlir, niyə bu gözəllikləri gördüklərini dilə gətirmir və niyə bunların sevincini yaşamaqdan qaçırlar? Çünki bu şeytanın təsiri ilə baş verir; şeytan insanların bu həqiqətin dərk edərək yaşamalarını istəməz. Buna görə də, özünə qulaq asan insanların diqqətini mənasız düşüncələrə yönəldər və onlara vəsvəsə verər, beləliklə də, bunlardan başqa heç nə düşünə bilməyəcək hala gəlmələrini və Allahın üzərlərindəki rəhmətini təqdir edə bilməmələrini istəyər.

Lakin burada bunu da ifadə etmək lazımdır ki, bəzən şeytan insanlara bilavasitə belə təsir göstərməz. İnsanları bu hissədə ələ aldığımız neqativ xarakterə sürükləməsi ona kifayət edər. Belə əxlaq anlayışına sahib olan insan, artıq mənfi halları öz-özünə tapar, sırf tərslik olsun deyə gözəllikləri dilə gətirməkdən, gözəl sözlər söyləməkdən qaçar. Belə insanlar Allahın özləri üçün yaratdığı nemətləri bütün təfsilatları ilə gördükləri halda, ətraflarındakı insanlara bir şeydən "narazı olduqlarını" bəlli edə bilmək üçün, bilərək bunları dilə gətirməzlər. Bu, şeytanın insanlara öyrətdiyi hiyləgər və səssiz dil ilə verilən mesajlardan biridir. Hər kəsin sevinclə qarşıladığı gözəl bir xəbəri eşitməzlikdən gələr; hər kəs bu mövzuda şövq və həyəcanla səmimi fikirlər bildirərkən, bu insan nə danışanları təsdiqləyər, nə də özü bir söz söyləyər. Çox məcbur qaldığı zaman, söylədiyi bir neçə qısa sözü də xüsusilə soyuq və maraqsız səs tonu ilə söyləyər. Bu yolla, həmin mühitdə olan digər insanlardan olduqca fərqli  ruh halında olduğunu, bir şeydən narazı qaldığını, hətta müjdəli və sevincli xəbərin belə onu bu ruh halından xilas edə bilmədiyi xəbərdarlığını vermiş olar. Halbuki, əlbəttə, göstərilən bu səy tamamilə sünidir. Həmin bu insan istəsə dərhal bu ruh halından xilas ola biləcək iradəyə sahibdir. Lakin bunu bilərək istəmir və bilərək bu şeytani əxlaqı davam etdirir. Nemətlərdən, gözəlliklərdən bəhs etsə, üzərindəki neqativ ruh halı dərhal yox olacaq, doğrunu görə biləcək və Quran əxlaqının tələb etdiyi əxlaqı göstərə biləcək. Bunu istəmədiyi üçün, daxilən şeytanın səsinə qulaq asmağın üzərində yaratdığı

ağırlıqla bilərək susqun qalır. Şeytan qurduğu tələlərlə, insanlara etdikləri pis əməlləri gözəl göstərir, öz iradə və istəkləri ilə onları özlərinə zərər verəcək sistemə sürükləyir.

Quran ayələrində nankor rəftar göstərərək Rəbbimizin nemətlərini xatırlamaqdan qaçan insanların əslində göstərdikləri bu əxlaqdan xəbərdar olduqları belə bildirilir:

**Həqiqətən, insan Rəbbinə qarşı nankordur və həqiqətən, özü buna şahiddir. (Adiyat surəsi, 6-7)**

Digər bir ayədə isə Allah, həmin bu insanların əslində nemətləri görə bilən insanlar olduqlarını belə bildirmişdir:

**Onlar Allahın nemətini bilirlər, sonra da inkar edirlər; onların əksəriyyəti inkar edənlərdir. (Nəhl surəsi, 83)**

Halbuki bu vəziyyətdə insan dərhal Allaha sığınmalı; Quran əxlaqına uyğun olmayan bir davranışda israr etdiyi təqdirdə Allahın əzabla qarşılıq verə biləcəyini xatırlamalıdır. Belə bir insan Rəbbimizin sonsuz gücü qarşısındakı acizliyini, Onun rəhmətinə möhtac olduğunu düşünməklə belə cəsarət göstərə bilməyəcək əxlaq nümayiş etdirməlidir.

Unudulmamalıdır ki, Allahın verdiyi saysız-hesabsız neməti təqdir edə bilməz hala düşən bu insanlar, bir müddət sonra artıq istəsələr də, sahib olduqları nemətlərdən zövq ala bilməyəcək vəziyyətə düşə bilərlər.

## Neqativ əxlaq təkcə insanın özünə zərər verər

Bu insanların şeytanın təsiri ilə yaşadıqları ruh halına və bundan ötrü yaşadıqları sıxıntıya baxıldığı zaman, ətraflarındakı insanlara gizli mesajlar verə bilmək üçün, büründükləri bu xarakterin özlərinə necə zərərlə qayıtdığı açıqca görünə biləcək.

Saatlar, günlər, aylar boyunca bu insanların ağıllarını məşğul edən və heç cür xilas ola bilmədikləri mənfi düşüncələrə belə misallar verə bilərik:

Vicdan əzabı çəkdiyi hadisələri öz-özünə təkrarlamaq, ətrafında pis insanların olduğunu iddia etmək, vicdanına qətiyyən təslim olmamaqda qətiyyətli olmaq. Ətrafındakıları narahat etmək, qürurda inad etmək. Həmişə ən pis ehtimalın həqiqət

olduğunu düşünmək. Sevilməmək üçün əlindən gələni etmək və sonra da "nə üçün sevilmirəm" deyə təəccüblənmək, kədərlənmək. Hər şeyə mənfi gözlə baxmaq və hər şeyə qarşı çıxmaq, sonra da xoşbəxt ola biləcək heç nə olmadığını söyləmək. Getdiyi hər yerə sıxıntı və vəsvəsələrini də aparmaq və başqalarından sıxılmaq. Tərsliyə vərdiş etmək. Özünü çirkinləşdirmək üçün əlindən gələni etmək, sonra buna kədərlənmək.

Bunlar şeytanın təlqin etdiyi neqativ baxış prizması ilə insanlara qurduğu tələlərdən yalnız az hissədir. Şeytanın təsirinə düşərək mənfi baxış prizması ilə hərəkət edən bir insan, az qala özünün düşməni olar. Hər şeyin sonsuz mərhəmət sahibi olan Allahın idarəsində olduğunu unutduğundan daimi qorxu və vəlvələ içində yaşayar. Bu sıxıntılı ruh halından ötrü içinə qapanar; təkliyi seçər. Çünki belə vəziyyətdə hüznünü ümidsiz yaşayar və rahat-rahat fantastik hekayələr qurmağa vaxt tapar. Allahı unutmuş və insanları ön plana çıxardıb onlara yönəlmiş düşüncə tərzi, bu insanlara özlərinə əzab vermələri üçün geniş imkanlar təqdim edər. Yığıncağa getmək, avtobusa gecikmək və ya bir paltarı bəyənməmək kimi səbəblər belə, böyük fəlakətlərmiş kimi fövqəladə əhəmiyyət qazanar. İnsan bunlara əhəmiyyət verməməsinin lazım olduğunu özünə nə qədər sübut etməyə çalışsa da, tapdığı dəlillərin heç bir təsiri olmaz. Çünki sahib olduğu ruh halında bu qeyri-mümkündür. Hər şeyin Allahın məlumatı daxilində başına gəldiyini unudur; insanları və hadisələri özünün yönləndirməsinin lazım olduğuna inanır. Buna gücünün heç cür çatmadığını gördükdə isə məhv olur.

Belə vəziyyətdə ən güclü bədənin belə gərginlikdən çökməsi qaçılmazdır. İnsanların və hadisələrin Allahdan müstəqil olduğunu düşündükləri üçün, xeyirləri və gözəllikləri görə bilməyən, tamamilə mənfi baxış prizmasına sahib olan bu insanları, müəyyən məqamdan sonra artıq heç nə maraqlandırmaz. Hər şeyə pessimist gözlə baxarlar. Hər nə qədər özlərinə etiraf edə bilməsələr də, xoşbəxtliyə və sevgiyə artıq inanmazlar. İçində olduqları vəziyyəti düşündükcə sıxıntıları daha da artar. Ümidsizlik onlara çox çətin gələr. Biri özünə iltifat etsə, özüylə lağ etdiyini zənn edər, birindən yaxşılıq görsə, bunu özünü hörmətdən salmaq üçün etdiyinə inanar. Biri nəsə gizlətsə, bunun özüylə əlaqədar, əleyhində bir mövzu olduğunu düşünər. Beyni həmişə qeyri-sağlam işləyər və bunun Quran əxlaqını yaşayıb Allaha təvəkkül etməkdən başqa həlli yoxdur. Çünki ən yaxşı hadisələr belə özünü Allaha təslim etməyən, neqativ baxan və özünü bədbəxt hiss edən bir insanı məmnun edə bilməz. Allah Quranda bu insanların ruh halına; "Rəbbimiz! Bədbəxtliyimiz bizə üstün gəldi..." (Muminun surəsi, 106) ayəsi ilə işarə edir.

Halbuki Allahın diləməsi ilə hər cür pislikdən xilas olmaq insanın öz əlindədir. Allah bu həqiqəti Quranın bir çox ayəsi ilə insanlara bildirmişdir. Allah nəfsə həm pisliyi, həm də ondan çəkinməyin yollarını ilham etmişdir. Dolayısilə, hər insan yaradılışdan bu imkana sahibdir. "Əlimdə deyil" deyərək, ümidsizliyə qapılmaq isə təkcə Quranı bilməyən, din əxlaqını yaşamayan bir insana aid ola bilər. Möminlər belə aciz və gücsüz danışığın, iman əxlaqına uyğun gəlməyəcəyini bilərlər.

Bir insanın rahat, şən və hüzurlu ola bilməsi, təkcə Allaha özünü təslim etməsi və təkcə Ona yönəlməsi ilə mümkündür. Allahın razı olacağı davranış insanın bu mənfi hala və bunun gətirdiyi hüznə qarşı çıxmasıdır. Allah Quranda həqiqi mənada iman gətirənlər üçün qorxu və kədər olmadığını xəbər vermişdir:

**Möminlərin qəlbinə imanlarını artırsınlar deyə "etimad duyğusu və hüzur" nazil edən Odur... (Fəth surəsi, 4)**

**...Bundan sonra sizə Mənim tərəfimdən hidayət gəldikdə, kim Mənim hidayətimə tabe olsa, onlara qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 38)**

## Donuq və passiv xarakterlə etiraz edənlər

Şeytanın təsirinə düşən insanların sahib olduqları digər bir xarakter forması isə durğun və donuq insan görünüşünə bürünmək və bu yolla müxtəlif gizli etiraz üsullarını tətbiq etməkdir. Məqsədləri bu gizli etiraz aksiyaları ilə ətrafdakı insanlara müxtəlif mesajlar verərək, səmimiyyətsiz əxlaqlarını davam etdirə biləcəkləri bir zəmin yaratmaqdır. Şeytanın göstərdiyi üsullara sarılaraq, əsasən, olduqca fəal, ünsiyyətcil (ekstrovert) və şən insanlar olduqları halda, bilə-bilə özlərini passivləşdirərlər. Soyuq, donuq, içinə qapalı, heç nədən zövq almayan, sanki "ölü kimi, passiv xarakter" göstərərlər. Halbuki şeytanın təsiri altında olmadıqları zaman, xoşsöhbət olmalarıyla, gözəl davranışlarıyla diqqət çəkən, özləri ilə yanaşı ətrafdakı insanları da canlandıran, sevinc bəxş edən kəslərdir. Lakin şeytanın təsirinə düşdükləri zaman, bu hal birdən-birə dəyişər, belə ki, sanki fitrətən belə passiv xarakterləri varmış kimi, ciddi qərarlılıq və açılmazlıq təəssüratı verməyə çalışarlar.

Həmin bu insanlar, bu bilərək formalaşan soyuq xarakterlərinə, şeytanın üsulları ilə bəzi bəhanələr tapıblar. Xoşniyyətlərinin və səmimiyyətlərinin lazımınca anlaşıla bilməməsinin özlərini bu hala gətirdiyi yalanına sığınar, yaşadıqları narahatlığın şiddətinin çox böyük olduğunu, belə vəziyyətdə içinə qapanmamağın və donuq xarakter göstərməmələrinin əllərində olmadığını iddia edirlər. İçində olduqları vəziyyətə görə çox kədərləndiklərini və əldən düşdüklərini, buna görə də, bütün səylərinə baxmayaraq, heç cür sevinə bilmədiklərini irəli sürərlər.

Halbuki bu iddialarının heç biri həqiqəti əks etdirmir. Hər biri şeytanın və nəfsin insanı aldatmaq üçün ortaya atdığı yalanlardan ibarətdir. Hər şeydən əvvəl həqiqi mənada səmimi və xoşniyyətli olan bir insan iman gətirənlər tərəfindən dərhal görülər. Üstəlik, belə bir insan təbii olaraq çox-çox sevilər, hörmət bəslənər və bu insana çox güvənilər. Bütün bunları qazanmaq üçün insanın ayrıca xüsusi davranışa yiyələnməsi və xüsusi səy göstərməsinə gərək yoxdur. Quran əxlaqını yaşaması kifayətdir.

Bununla yanaşı, həqiqətən səhv başa düşülən vəziyyət olsa belə, imanlı insan bu mövzunu həll etmək üçün heç vaxt Qurana uyğun olmayan üsullara əl atmaz. Allah Quranda möminlərə, bir-birlərinə "sözün ən gözəlini söyləmələrini" xatırlatmışdır. Belə vəziyyətdə bu insan qarşı tərəfə söyləmək istədiklərini gizli davranışlarla, səssiz mesajlarla, etiraz üsulları ilə deyil, səmimi şəkildə açıqca deməlidir.

Həmin bu insanların "istəsələr də heç cür sevinə bilməmələri, bədbəxtliklərinə üstün gəlməyə güclərinin və iradələrinin çatmadığı" iddiaları da, irəli sürdükləri digər məntiqlər kimi doğru deyil. Əvvəla heç nə imanlı insanın sevincini yox edə bilməz, içinə qapanmasına, kədərlənib sıxılmasına səbəb ola bilməz. Çünki mömin Allahın hər şeyi xeyir və hikmətlə yaratdığını bilər. Allahın sonsuz şəfqət və mərhəmət sahibi olduğunu, iman gətirən qulları üçün dünyada gözəl həyat və axirətdə hər şeyin ən gözəlini yaradacağını bilməyin daimi sevincini yaşayar. Allahın rizasını və cənnətini ümid etməyin, sonsuza qədər bənzərsiz nemətlər içərisində yaşamaqla müjdələnmiş olmağın xoşbəxtliyi içində olar.

Bununla yanaşı, "gücüm və ya iradəm çatmır" kimi sözlərin də müsəlman sözü olmadığı məlumdur. Allah Quranda münafiqlərin belə üslublarla danışdıqlarına dair nümunələr vermiş və onların bundan, din əxlaqını yaşamamaq üçün səmimiyyətsiz bəhanə kimi istifadə etdiklərinə diqqət çəkmişdir. Möminin üslubu isə həmişə Allaha təvəkkül etmək, ən çətin hadisələr qarşısında belə ruhdan düşmədən; "Rəbbimiz bizimlədir" deyərək, Allaha güvənməyin rahatlıq və güvənini yaşamaqdır. Bu, onların həmişə ümidvar üslubdan istifadə etmələrinə, güclü və iradəli xarakter göstərmələrinə vəsilə olar.

Göründüyü kimi, bütün bu deyilənlər, həmin bu insanların "xoşniyyət" adı altında, əslində tamamilə səmimiyyətsiz əxlaqı müdafiə etdiklərini göstərir. Şeytanın təsiri ilə özlərini aldadır, səmimiyyətsizliklərinə şahid olduqları halda, vicdanlarını irəli sürdükləri bəhanələrlə razı salıb rahatlaşdırırlar.

İstədikləri təqdirdə rahat şəkildə imtina edə biləcəkləri bu davranışları davam etdirməklə, bilərək ətraflarındakı insanları narahat etməyə çalışırlar. Şüuru açıq olub Quran əxlaqının tələbini bilən bir insanın, bilə-bilə belə vicdansızlıq etməsi isə, Allah qatında böyük qarşılıq görə bilər. Dünya həyatında kiçik mənfəət əldə edə bilmək üçün, həm bədbəxt həyat yaşamaq, həm də axirətdə böyük əzaba düşmək isə böyük ağılsızlıqdır.

Burada bunu da ifadə etmək lazımdır ki, xoşniyyət adı altında gizli şəkildə səmimi insanlara zərər verməyə çalışan belə insanlar, bu məqsədlərində heç vaxt müvəffəqiyyət

qazana bilməzlər. Müsəlmanlar edilən hər pis işin həm dünyada, həm də axirətdə təkcə bunu edən insanın qarşısına çıxacağını bilərlər. Bundan nəsə itirmədiklərini, öz məsuliyyətlərinin yalnız yaxşılığa dəvət etmək və etdiyinin axirətdəki qarşılığını insana xatırlatmaq olduğunu dərk edirlər. Buna görə də, bu insanlar əslində təkcə özlərinə zərər verirlər.

## Donuq və mənasız baxışlarla gizli mesajlar vermələri

Allahın insanlara verdiyi ən mühüm nemətlərdən biri gözləridir. Əqli cəhətdən sağlam olan hər insan baxışlarından gözəl istifadə etmək və baxışları ilə duyğularını ifadə etmək qabiliyyətinə sahibdir. Şeytanın təsiri altında olanlar isə, bu mühüm xüsusiyyəti tam əks istiqamətdə qiymətləndirər, Allahın nemət olaraq özlərinə verdiyi gözlərindən, içlərində gizlətdikləri pislikləri əks etdirmək üçün vasitə kimi istifadə edərlər. Donuq və mənasız baxışları ilə bu baxışlarının nəticəsində yaranan passiv, ölüyə bənzər halları bu insanların ən nəzərə çarpan xüsusiyyətlərindəndir. Donuq baxışlarını dəstəkləyən bezgin, yorğun halları ilə, ümumiyyətlə, ətraflarındakı insanlara bəzi mesajlar verməyi hədəfləyərlər. Bəzən diqqət çəkib, narahatlıqlarını bildirməyə və bu narahatlıqlarıyla ətraflarındakı insanları da narahat etməyə planlaşdırarlar. Bəzən yenə şeytanın təsiri ilə baxışlarında sevgi, hörmət kimi gözəl və müsbət ifadələrin yaranmasına mane olmaq istəyərlər. Bəzən də səssiz dillə qəlblərində qəzəb, kin və qısqanclıq kimi mənfi duyğuların olduğunu eyham etməyə çalışarlar.

Lakin, əlbəttə ki, bir insanın belə şeytani iradə göstərib normal insani funksiyasına təzyiq göstərməsi və saatlarla dayanmadan mənasız baxışlarla baxa bilməsi olduqca çətindir. Çünki daha əvvəl də bəhs etdiyimiz kimi, insanın hiss etdiyi bütün duyğular təbii olaraq baxışlarına əks olunar; buna görə də, daxilən yaşadıqlarını gizlətməsi çətindir. Dolayısilə, sağlam və normal ağla sahib bir insan, gözlərini dondura bilmək, duyğularını gözlərindən əks etdirməmək üçün, xüsusi güc sərf etməli, duyğularını və reaksiyalarını bəlli etməmək üçün xüsusi iradədən istifadə etməlidir. Üstəlik, belə hala düşmək üçün, insan, Quranda bildirilən gözəl əxlaq yönündə deyil, şeytanın istəkləri yönündə hərəkət etməlidir. Yoxsa insan qarşı tərəfi narahat etmək üçün səbəbsiz yerə özünü belə çətinliyə salmaz. İnsan bunu edərkən bir tərəfdən Allahın özünə həmişə doğrunu ilham etdiyi vicdanının səsini duyar, digər tərəfdən də onu boğmağa çalışar. Eyni zamanda da şeytana qulaq asıb onun ilham etdiklərini yerinə yetirməyə cəhd edər. Bu, həm fiziki, həm də zehni baxımdan olduqca bezdiricidir.

Lakin buna baxmayaraq, bu davranışlarında da olduqca israr edərlər. Sevgi, hörmət dolu dostanə baxışlarla baxmamaq, içlərindəki kin və qəzəblərini gizlicə eyham etmək və ya

ətraflarındakı insanların davranışlarına etiraz etmək məqsədi ilə xüsusi iradə göstərərlər. Gözəl olan, insana sevinc və xoşbəxtlik verən hər şeydən özlərini təcrid etdikləri kimi, ətraflarındakı insanların sevinci, iman həyəcanları, sahib olduqları nemətlər və gözəlliklər də sanki onları narahat edər. Möminlər nə qədər  aktiv, şən, çox parlaq baxışlı və şövqlü davransalar, bu insanlar da tam tərs vəziyyətdə olarlar. Olduqca passiv, gözündən hara baxdığı bəlli olmayan, sanki boşluğa baxırmış kimi mənasız baxışları və davranışlarıyla öz aləmlərində etirazlarına davam edərlər.

Mənasız baxışlarla tətbiq edilən bu gizli etiraz üsulu möminlərə yönəldildiyi zaman, fərqli mesaj və mənalar daşıyar. Quran əxlaqının yaşanmadığı cəmiyyətlərdə insanlar gündəlik həyatda bir-birinin baxışlarına çox əhəmiyyət verməyə bilərlər. Əlbəttə, bu mövzuya xüsusi diqqət yetirənlər də var. Lakin, əsasən, qarşısındakı şəxsin baxışlarını və ya passivliyini vecinə almayan, əslində özü də bənzər xarakterdə olduğu üçün bundan təsirlənməyən çox insan var. Möminlərin arasında isə bu vəziyyət dəyişər. Mömin ağıl və vicdanından Quran əxlaqının tələb etdiyi şəkildə istifadə etdiyi üçün, qarşı tərəfdəki ən kiçik mənfi halı və şeytanın təsirini dərhal hiss edər. Şeytanın təsiri ilə baxışlarını dondurmuş passiv bir insanı Qurana uyğun əxlaq göstərməsi üçün xəbərdar edər. Allahı və axirəti xatırladıb etdiyi səhvi özünə göstərmək istəyər. Passiv və şövqsüz davranışın Allah qatındakı məsuliyyətini və vicdanından istifadə etmədiyi təqdirdə axirətdə bunun hesabını verə bilməyəcəyini xatırladar. Həmçinin, Allahın insanlar üçün yaratdığı saysız nemətlərin içində bu nemətləri görməzlikdən gəlib donuq xarakter nümayiş etdirmənin Allahın rəhmət və nemətinə qarşı nankorluq ola biləcəyini bildirər. Lakin bu insanlar, içində olduqları vəziyyəti bilərək yaratdıqları üçün, möminlərin bu xatırlatmalarından lazımınca öyüd almazlar.

Lakin yuxarıda da ifadə etdiyimiz kimi, bunun maddi və mənəvi zərərini də ən çox özləri görərlər. Əvvəla insanın ən təbii xüsusiyyətlərindən biri olan duyğularını baxışlara əks etdirməyi tormozlamaq üçün xüsusi səy göstərmək çox çətindir. Sevinilәsi bir hadisə qarşısında sevinməmək, çox bəyəndiyi bir şeyi bəyənməmiş kimi davranmaq, şən olmaq varkən bədbəxt görünməyə çalışmaq kimi rəftarlarla bir çox nemətdən yalnız özlərini məhrum edərlər. Sevinc, aktivlik, coşğu kimi insanın təbiətində olan hisslərini dondurub, sanki ölü bir insan təəssüratı verməyə çalışmalarının özlərindən başqa heç kimə zərəri olmaz. Bunun nəticəsində yaranan sıxıntı və stressdən ötrü vücud cəhətdən əldən düşər, orqanizmləri zəifləyər və bir çox xəstəliyə meylli vəziyyətə gələ bilərlər.

Bütün bunlar gözləri ilə şüurlarının altındakı mənfi düşüncələri ətrafa əks etdirmək istəyən insanlarla əlaqədar, ilk baxışda görünəcək xüsusiyyətlərdir. Belə insanların dünyada yaşayacaqları sıxıntılı həyatla yanaşı, əsil axirətdə alacaqları sonsuz qarşılığı xatırlatmaq lazımdır. Çünki dünya həyatı çox müvəqqəti və qısadır. Axirətdə isə insan etdiklərinin qarşılığını sonsuza qədər alacaq.

## Sevgisiz, biganə, soyuq və laqeyd davranışlar

Allah insanları yaradılış etibarilə sevgiyə uyğun şəkildə yaratmışdır. İnsanlar əsasən sevib-sevilməkdən, maraq göstərilməsindən məmnun olarlar. Lakin şeytanın bəzi insanlara qarşı işlətdiyi üsullar nəticəsində, həmin insanlar iradələrindən istifadə edib özlərini bu nemətdən məhrum edərlər. Əvvəla ətraflarındakı insanlara şeytani üsullarla bəzi mesajlar vermək üçün göstərdikləri etiraz davranışları, bu insanları sevib-sevilməkdən uzaq insanlar halına gətirər. Şeytanın göstərdiyi yola tabe olmaq üçün, bilmədən özlərinə çox çətin həyat yaşadar və özlərini bütün gözəlliklərdən bilərək və istəyərək məhrum edərlər.

Lakin şeytanın insanlara etdirdiyi digər bütün davranış pozuntuları kimi əslində bu da insanın yaradılışına zidd vəziyyətdir. Quranın; "onları (hökmən) sapdıracaq, ən ağlasığmaz xülyalara salacaq, onlara mütləq davarların qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm! Kim Allahı tərk edib Şeytanı özünə dost (vəli) tutsa, şübhəsiz ki, o, açıq-aydın ziyana uğramışdır" (Nisa surəsi, 119) ayəsi ilə bildirildiyi kimi, şeytan insanların fitrətini pozaraq zövq alıb xoşbəxt olacaqları həyatı yaşamalarına mane olar. Tam əksinə, onları özlərinə zülm edəcəkləri, nemətlərdən məhrum qalacaqları mühitə sürükləyər. Sevgi də Allahın dünya həyatında insanlar üçün yaratdığı ən böyük, ən gözəl nemətlərdən biridir. Lakin şeytanın təsiri altındakı bir insan sevib-sevilməkdən məhrum qalar. Şeytan əslində sevgiyə çox açıq olan bu insanları müxtəlif bəhanələrlə sevgilərini bəlli etməmələri, gizlətmələri və hətta imtina etmələri üçün razı salmağa çalışar. Verdiyi təlqinlərlə onları sevdikləri və həqiqətən seviləsi bir çox xüsusiyyətə sahib insanlara qarşı tərs, soyuq və etinasız rəftarlar göstərməyə məcbur edər.

Şeytanın tələsinə düşənlər bir tərəfdən sevgilərini lazımınca yaşaya bilməmələrinin, digər tərəfdən də bu rəftarları üzündən sevilməmələrinin sıxıntısını yaşayarlar. Seviləcək bir çox xüsusiyyətə sahib insanlara qarşı bilərək tərs və soyuq rəftar göstərmələri, bu kəsləri də sevilməyəcək insanlar halına gətirər və şeytanın təsiri ilə seviləcək bütün xüsusiyyətləri korlaşar. Quranda; "şübhəsiz ki, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar öz nəfslərinə zülm edirlər!" (Yunis surəsi, 44) ayəsi ilə xatırladıldığı kimi, insanlar bu vəziyyəti öz əlləriylə yaradırlar.

Şeytanın təlqinləri ilə belə pis rəftar göstərən insanların bu mövzuda özlərini razı salmaq üçün formalaşdırdıqları şeytani düşüncələrdən bəzilərini belə sadalaya bilərik:

## Qarşılıqsız sevgi göstərməyi qürur və eqoizmləri ilə uzlaşdıra bilməmələri

Quran əxlaqını yaşayanların ən nəzərə çarpan xüsusiyyətlərindən biri təvazökarlıqları və həlim xasiyyətli olmalarıdır. Onlara bir çox nemətin qapısını açan, Allahın dünya həyatında insanlar üçün yaratdığı gözəlliklərdən lazımınca zövq almalarını təmin edən də məhz bu təvazökar əxlaqlarıdır. Təvazökar xarakterlərindən ötrü cənnətdəki ən gözəl nemətlərdən biri olan sevgini dünyada da ən dərin şəkildə yaşaya bilən insanlardır. Bir insanın seviləcək xüsusiyyətlərini bütün təfsilatları ilə görə bilərlər; qəlblərindəki sevgilərini qarşı tərəfə bütün səmimiyyətləri ilə göstərə bilən, eyni zamanda gözəl əxlaqlarından ötrü özləri də çox sevilən kəslərdir.

Şeytanın təsirinə düşənlərin ən nəzərə çarpan xüsusiyyətlərindən biri isə qürurlu və eqoist olmaları, öz mənliklərini böyük və dəyərli hesab etmələridir. Şeytan, cənnətdən qovulmasına səbəb olan bu xüsusiyyətini insanlara da aşılayıb onların da Allahın rəhmət və nemətlərindən məhrum olmalarını istəyər. Getdikcə böyüyən qürur və böyüklənmə duyğuları onların ətraflarındakı insanlara, nemətlərə və gözəlliklərə sevgi bəsləməsinə mane olar. Zamanla insanı bürüyüb əhatə edər və insanın təxmin edə bilməyəcəyi ölçülərə çatar. Allah bu insanların qəlblərindəki böyüklənmə arzusunun heç vaxt nail ola bilməyəcəkləri bir istək olduğunu belə bildirir:

**...Onların qəlblərində özünə nail ola bilməyəcəkləri böyüklük (istəyin)dən başqası yoxdur... (Mümin surəsi, 56)**

Lakin qürur və böyüklənmə Quranda; "Ona: “Allahdan qorx!” deyildiyi zaman, təkəbbürü onu günaha sürükləyər, əhatə edər. Belə insana cəhənnəm kifayət edər. O nə pis məskəndir!" (Bəqərə surəsi, 206) ayəsi ilə bildirildiyi kimi, Allahın bəyənmədiyi davranışdır.

İnsanın heç vaxt nail ola bilməyəcəyi böyüklük duyğusu ilə yaşaması, həmişə özünü, hər şeydən və hər kəsdən daha çox sevməsi və həmişə mənlik duyğusu ilə hərəkət etməsidir. Öz mənliyinə və nəfsinə olan sevgisi o qədər böyükdür ki, onun istəklərini yerinə yetirmək bu insan üçün hər şeydən daha əhəmiyyətli olar. Bu mövzuda şüursuz cəsarət göstərər.

Bu yolda sevdiyi insanları da asanlıqla gözdən çıxara bilər, nəfsinin eqoist həvəsləri üçün asanlıqla bu insanlara qarşı mənfi davranışlar nümayiş etdirə bilər.

Belə insanların özlərinə qarşı duyduğu sevgi elə şiddətlidir ki, eqoistlikləri üzündən seviləcək yüzlərlə üstün xüsusiyyətə sahib olan möminlərə qarşı belə sevgisiz və etinasız davranışlar nümayiş etdirə bilərlər. Möminlərin dünyada ən çox sevə biləcəkləri, ən yaxın dost ola biləcəkləri və ən çox güvənə biləcəkləri insanlar olduqlarını bilmələrinə baxmayaraq, yenə də onlara lazımi qədər sevgi göstərə bilməzlər. Lakin bu, bəhs edilən

insanların istəmədən düşdükləri vəziyyət deyil, əlbəttə. Vicdanları özlərinə gözəl əxlaqın tələbini ilham etdiyi halda, sırf nəfslərinin eqoist istəklərini yerinə yetirə bilmək üçün şüurlu şəkildə sevgi göstərməkdən qaçırlar. Bunu bəzən yenə bir etiraz üsulu, bəzən həmin insana qarşı qəzəblərinin, küskünlüklərinin, qısqanclıqlarının ifadəsi, bəzən də təkcə böyüklük hisslərinin tələbi olaraq edərlər. Bundan gizli etiraz və səssiz mesaj kimi istifadə edər və bu yolla istədikləri nəticələri əldə edəcəklərini zənn edərlər.

Əlbəttə, iman gətirənlər arasında belə davranışın qəbul edilməsi qeyri-mümkündür. İman gətirənlər arasında qəbul ediləcək davranış, təkcə Quran əxlaqına uyğun olandır. Allahın Quranla insanlara bildirdiyi əxlaqı yaşayıb istəklərinə nail olmağa çalışan insanlar Allahın icazəsi ilə müvəffəqiyyət qazanarlar. Əks halda isə etdikləri şeytani davranışlarının zərəri özlərinə bürüyüb əhatə edər və özlərinə əziyyət verməkdən başqa heç nə edə bilməzlər. Allahın bəyəndiyi əxlaqı yaşamaq əvəzinə, şeytana tabe olmalarının qarşılığı olaraq belə çətinlik içində yaşayarlar.

## Sevgini əvvəlcə qarşı tərəfdən gözləmə vəsvəsələri

Şeytanın təsirinə düşən insanlar eqoistlikləri ucbatından sevgini həmişə əvvəlcə qarşı tərəfin göstərməsini gözləyərlər. Çünki qarşılarındakı insanlar onlara nə qədər sevgi göstərsələr, özlərinin də buna görə qarşılıq verməli olduqlarını düşünərlər. Əgər göstərdikləri sevgi qarşı tərəfdə göstəriləndən daha coşğulu və ya çox olarsa, bunun özlərini alçaldacağına inanarlar. Belə vəziyyət onların qürur anlayışlarına tamamilə ziddir; həyatlarının hər mərhələsində olduğu kimi, sevgini də təkcə öz qürurlarına zərər gəlməməsi şərti ilə və bu anlayışın icazə verdiyi qədəri ilə yaşayarlar.

Halbuki Quran əxlaqında qürurun yeri yoxdur. Eynilə, sevgi ilə qürur da qətiyyən bir-birləri ilə uyğun olmayan xüsusiyyətlərdir. Qürurun olduğu yerdə sevgi olmaz; çünki belə bir insan hər şeydən və hər kəsdən çox özünü sevər. Əsil sevginin tələb etdiyi rəftarları da yalnız özünə qarşı göstərə bilər.

Buna görə də, əsil sevgini ən gözəl şəkildə yaşaya bilən insanlar, təkcə nəfslərinin eqoist istəklərindən xilas ola bilmiş möminlərdir. Möminlərin yaşadığı bütün sevgilərin təməli Allah sevgisinə əsaslanır. Buna görə də, heç vaxt qarşı tərəfin davranışından asılı sevgi anlayışına sahib olmazlar. Mömin üçün bir insanın sevilmə meyarı, həmin insanın Allahın rizasına uyğun şəkildə yaşamasıdır. Allahın istədiyi həyatı yaşayan, Allahdan qorxduğu hiss edilən bir insana mömin təbii olaraq sevgi duyar və bu sevgisində dünyəvi xüsusiyyətlərə görə seçim etməz, heç bir qarşılıq gözləməz. Hər hansı hesab aparmadan,

içindən gələn kimi səmimi sevgisini göstərər. Qarşı tərəfdən sevgi görməsə belə, Allahın rizası üçün bu insana qarşı səmimi sevgi, şəfqət və qayğı göstərər.

Şeytanın təsiri altında olan insan üçünsə, nəfsi hər şeydən əvvəl gələr; nəfsinə ağır gələcəyini düşündüyü belə sınağa əsla yanaşmaz. Bu insanlar üçün nəfslərinin məmnun edilməsi, təriflənmələri, təqdir edilmələri sanki hər şeydən əhəmiyyətlidir. Buna görə də, sevginin, iltifatın, tərifin mütləq birinci qarşı tərəfdən gəlməsini gözləyərlər. Hətta çox vaxt sevgi gördüklərində də, qarşılıq verməməyi seçərlər. Çünki şərtlərə baxmayaraq, sevgi göstərmək qürurlarına ağır gəlir.

Bunun üçün, pisliyin səssiz dilindən istifadə edib bir çox hiyləgər oyuna əl atarlar. Buna gündəlik həyatdan bir çox nümunə vermək mümkündür. Bir-birlərinə hörmət, sevgi duyan, dost və yoldaş olan insanlar qarşılaşdıqları zaman qəlblərindəki bu səmimi duyğuları müxtəlif şəkillərdə bir-birlərinə ifadə edərlər. Hal-əhval soruşmaq, iltifat etmək, qarşı tərəfin məmnun olacağı gözəl rəftarlar göstərmək bunlardan bəziləridir. Şeytanın təsirinə düşən insanlar uşaqların belə düşünə bildiyi bu rəftarlardan müxtəlif bəhanələrlə qaçarlar. Lakin bütün bunları xüsusi üslubla, qarşı tərəfə bilərək etdiyini hiss etdirəcək şəkildə edərlər. Məsələn, əvvəlcə danışılması lazım olan olduqca fərqli mövzular varmış kimi, sevgi göstərmək əvəzinə bunlardan bəhs edərlər. Yaxud qarşı tərəfin diqqətçəkən gözəl xüsusiyyətlərinə görə iltifat etmək əvəzinə bilərəkdən heç əlaqəsi olmayan insanları tərifləyərlər. Yaxud da həmin insana iltifat etmək əvəzinə olduğu məkandan, dekorasiyadan, əşyaların və portretlərin gözəlliyindən bəhs edərlər. Əgər başqa birisi onlara iltifat edib gözəl söz söyləyərsə, bu insanlar hər hansı bəhanə ilə bu sözləri eşitməzlikdən gələr və ya söhbəti dayandırıb diqqəti başqa istiqamətə çəkməyə çalışarlar. Bəzən də qarşı tərəfin gözəl xasiyyətlərindən bəhs edildiyi zaman, üzünə təəccüblü, başa düşməmiş kimi bir ifadə hakim edərək gizli şəkildə özlərinin eyni qənaətdə olmadığı təəssüratını verməyə çalışarlar. Əgər çox çətin vəziyyətdə qalsalar, özləri də (içlərindən gəlmədiyinin başa düşüləcəyi şəkildə) etinasız və donuq səslə söhbtə qoşularlar. Lakin bir tərəfdən üzləri ilə bunların səmimi hissləri olmadığı mesajını verməyə çalışarlar.

Qəribə olan isə bəzən bu kəslərin qəlblərində yaşadıqları ilə bu etdiklərinin tamamilə ziddiyyət təşkil etməsidir. Şeytanın ilhamı ilə pisliyə meyl edir, vicdanlarının səsinə qarşı çıxırlar. Lakin əslində doğrunu bilir; qarşılarındakı insanların əslində seviləcək və hörmət ediləcək nə qədər çox xüsusiyyətləri olduğunu görə bilirlər. Buna baxmayaraq, şeytani əxlaqda inad edirlər.

Burada bunu ifadə etmək lazımdır ki, şeytanın bu insanları təşviq etdiyi bu davranış, Quran əxlaqından uzaq həyat sürən insanlar arasında xeyli geniş yayılıb. Bir-birlərini çox sevdiklərini söyləyən insanlar belə, dostluqlarını demək olar ki, qürur döyüşünə çevirərlər. Lakin iman gətirənlər arasında belə meyar yoxdur. Möminlər Quran əxlaqını yaşayanlara qarşı qarşılıqsız və səmimi bir sevgi duyarlar. Əvvəlcə kimin sevgi göstərdiyinin, bu

vəziyyətin neçə dəfə təkrarlandığının, həmin insanın nə qədər coşğulu, qarşı tərəfin isə nə qədər sadə rəftar göstərdiyinin heç bir əhəmiyyəti yoxdur. Sevgi möminlər üçün gözəl əxlaqın tələbi olan bir ibadətdir. Həmişə ilk öncə sevgi göstərmək, həmişə iltifat etmək, fədakarlıq etmək, coşğulu olmaq, möminin Allah qorxusunun, axirət inancının, imanının göstəriciləridir. Buna görə də, heç vaxt bunların hesabını aparmazlar. Qarşı tərəf özlərinə qətiyyən sevgi göstərməsə belə, imanlarından ötrü möminlər tərəfindən mütləq seviləcəklərini bilməyin əmin-amanlığı və rahatlığı içindədirlər.

## Layiq olduqları sevgini görə bilmədiklərini iddia etmələri

Şeytanın təsiri ilə hərəkət edən insanların bir xüsusiyyəti də, qarşı tərəf özlərinə nə qədər sevgi göstərsə də, bundan razı olmamaları və bunu kafi görməmələridir. Əsasən nəfslərindəki böyüklük hərisliyinin tələbi olaraq, layiq olduqlarından olduqca çox sevgi, maraq və diqqət tələb edərlər. Həmişə daha çoxuna layiq olduqlarını düşündükləri üçün, heç cür məmnun olmamalarına səbəb olan gözlənti içindədirlər. Bu məqamda heç düşünmədikləri mövzulardan biri isə, özlərinin bu sevgiyə həqiqətən də layiq olub-olmamalarıdır.

Möminlər Quran əxlaqı ilə hərəkət etdiklərinə görə, bütün qüsur və səhvlərinə baxmayaraq, gözəl əxlaqa təşviq etmək məqsədi ilə qarşılarındakı insana sevgi və şəfqət göstərə bilərlər. Bu vəziyyəti şeytanın təsiri ilə qiymətləndirənlər isə, özlərinə göstərilən maraq və diqqətin möminlərin üstün əxlaqından qaynaqlandığını təqdir edə bilməzlər. Layiq olduqları üçün belə maraq gördüklərini düşünərlər. Hətta bu vəziyyət bəzən elə hal alar ki, böyüklənmə hərisliyi ilə mükəmməl olduqlarını düşünən bu insanlar, özlərinə hər kəsdən daha çox sevgi göstərilməsini istəyərlər. Az olduğuna qənaət gətirdikləri sevgi formalarını da pisləyərlər.

Lakin bu mövzudakı fikir və tələblərini də, yenə şeytanın hiyləgər üsulları ilə qarşı tərəfə hiss etdirməyə çalışarlar. Heç vaxt açıq şəkildə; "mən bundan daha yaxşısına layiqəm", "mənə hər kəsdən çox sevgi göstərilsin, hər kəsdən daha üstün olduğum hiss etdirilsin" kimi ifadələrlə bu düşüncələrini dilə gətirməzlər. Hətta özlərinə bu yöndə bir söz deyilsə, bunu qətiyyən qəbul etməz və var gücləriylə etiraz edərlər. Qəlblərində qətiyyən belə böyüklük hissinin olmadığını, özlərini çox qüsurlu gördüklərini, çox səhv yönlərinin olduğunu bildiklərini və buna görə də, belə imtiyazlı sevgiyə onsuz da layiq olduqlarına inanmadıqlarını söyləyərlər. Lakin bu müdafiələrində, əlbəttə, səmimi deyildirlər. Lakin daxilən bunların tam əksinə inandıqlarını bilirlər. Şeytanın öyrətdiyi üsulla bu mövzudakı həqiqi inanclarını gizli dillə qarşı tərəfə ifadə edərlər. Lakin bir tərəfdən bu vəziyyəti rədd

etməklə özlərinə səmimi görünüş verəcəklərini, digər tərəfdən isə bu mövzudakı həqiqi qənaət və tələblərini qarşılarındakı insanlara gizli şəkildə hiss etdirəcəklərini düşünərlər. Necə ki, dilləri ilə rədd etdikləri düşüncələri, üz ifadələrindəki narazılıqla, tərs, etinasız, soyuq və rəsmi davranışları ilə göstərərlər.

Möminlər, əlbəttə, bu insanların həqiqi düşüncələrindən və bu şeytani üsullarla əldə etmək istədiklərindən xəbərdardırlar. Lakin onların bu davranışlarına yalnız Qurani əxlaqla cavab verərlər. Çünki böyüklənmə hərisliyinə qapılan bir insanı həmişə təriфləmək, ucaltmaq, ona sanki gözəl əxlaq göstərirmiş kimi davranmaq, onun qürur və eqoistliyini daha da gücləndirəcək və ona daha da zərər verəcək. Buna görə də, möminlər belə vəziyyətdə bu insana qarşı layiq olmadığı sevgi ilə yaxınlaşmaq əvəzinə, səmimi şəkildə ona öyüd verər və Quran əxlaqını yaşamağa dəvət edərlər. Əslində səmimi olaraq Allaha iman gətirən və axirətdə xeyirli həyatla qarşılaşmaq istəyən bir insan üçün, bu ən böyük sevgi göstərişlərindən biridir. Şeytanın təsiri ilə düşünənlər isə bu yanaşmanı təqdir edə bilməz və layiq olduqları marağı görə bilmədikləri düşüncəsi ilə daha da mənfi hərəkətlərə yol verərlər.

## Sevgilərinə qarşılıq görə bilmədikləri üçün sevgi göstərmədiklərini bəhanə etmələri

Şeytanın ilhamı ilə hərəkət edən insanların oynadığı oyunlardan biri də, "özləri çox sevdikləri halda sevilmədiklərini iddia etmələri və buna görə də, soyuq və donuq davranmaları"dır.

Əvvəla bunu ifadə etmək lazımdır ki, şeytanın əxlaqını mənimsəyən bir insanın bu xüsusiyyətləri ilə birlikdə sevilə bilməsi qeyri-mümkündür. Bu insanın bəlkə də bir çox gözəl əxlaq xüsusiyyəti var; bəlkə ətrafındakı insanlardan sevgi gözləyərkən özünə bu xüsusiyyətlərini meyar götürür. Lakin şeytana tabe olmaqla edilən hərəkətlər, insanın sahib olduğu gözəl xüsusiyyətlərə də kölgə salar. Məsələn, bir insan nə qədər çalışqan, fədakar və ya incə düşüncəli olsa da, şeytanın təsiri ilə neqativ xarakterə sahib olması, mənasız və donuq baxması və ətrafındakı insanlara qarşı soyuq davranması onun müsbət xüsusiyyətlərini də şübhə altına salır. Çünki əsil əhəmiyyətli olan insanın gözəl əxlaqı Allah qorxusundan ötrü yaşamasıdır. Əgər insan bəzi mövzularda gözəl xüsusiyyətlər göstərib bəzi mövzularda bunun əksini edirsə, bu insanın müsbət xüsusiyyətlərinə də Allah qorxusuna görə sahib olduğundan əmin olmaq olmaz. Bu da həmin insana qarşı dərin sevgi duyulmasına mane olar.

Həmçinin bunu da xatırlatmaq lazımdır ki, möminlərin bir insana Allah rizası üçün səhvini söyləmələri, axirəti üçün onu pisliklərdən çəkindirmələri ən səmimi sevgi

göstərişlərindən biridir. Lakin şeytani məntiqlərindən ötrü hər mövzuda mənfi xüsus axtaran bu insanlar, özlərinə edilən xəbərdarlıqları da müsbət mənada qəbul etməzlər. Bu kəslərin nəfslərinə görə, sevgi, insana heç bir nöqsan və səhvinin deyilməməsi, həmişə təriflənməsi və təqdir edilməsidir. Halbuki möminlər səhvi olan bir insana bunu söyləməməyi vicdanən qəbul etməzlər. "Mömin kişilərlə mömin qadınlar bir-birlərinin vəlisidirlər. Yaxşı əməlləri əmr edər, pis əməllərdən çəkindirərlər..." (Tövbə surəsi, 71) ayəsinin tələbi olaraq, Allah rizası üçün bir-birlərini pis əməllərdən çəkindirərlər.

Necə ki, şeytanın təsiri altındakı insanlar da əslində möminlərin bu mövzudakı səmimiyyətlərini və Allahın rizasına uyğun hərəkət etdiklərini bilərlər. Lakin ayədə bildirildiyi kimi; "...vicdanları qəbul etdiyi halda, zülm və böyüklənmədən ötrü..." (Nəml surəsi, 14) etdikləri səmimiyyətsizliyi görməzlikdən gələrlər. Bu rəftarları çox vaxt elə həddə çatar ki, edilən xəbərdarlıqlardan öyüd alıb hərəkətlərini düzəltmək əvəzinə, vicdanlarının səsini susdurub onlara şeytanın başqa üsulu ilə cavab verərlər. Şeytani məntiqlərinə görə, "özləri əslində qarşılarındakı insanları çox sevirlər; lakin özləri seviləsi əxlaqa sahib olmadıqları üçün, müəyyən mənada bu insanlara yaxşılıq etmək istəyirlər".

Əlbəttə ki, bu olduqca səmimiyyətsiz, ağılsız və Qurana uyğun olmayan bir üsuldur. Əgər bir insan səmimi şəkildə Allahdan qorxursa və pis əxlaqından ötrü sevilmədiyini düşünürsə, belə vəziyyətdə dərhal əxlaqını düzəltməyi və seviləcək hala gəlməyi hədəfləyər. Üstəlik, möminlərin sevilməyən xüsusiyyətlərə malik insana qarşı səmimiyyətsiz sevgi göstərməyəcəklərini, həmişə Quran əxlaqına uyğun hərəkət edəcəklərini və bu üsullarına cavab verməyəcəklərini bilər. Buna baxmayaraq, həmin bu insanların belə düşüncələrə qapılıb, bu istiqamətdə hərəkət etmələri özlərinə şeytanı vəli tutmuş olmalarından qaynaqlanır.

## Sevgisiz və soyuq davranmalarının şəxsiyyətli xarakterlərindən qaynaqlandığını irəli sürmələri

Şeytanın Qurana uyğun olmayan əxlaqı mənimsədə bilmək üçün, insanlara ilham etdiyi düşüncələrdən biri də; "şəxsiyyətli insan olmağın ciddiyyət, soyuqluq və rəsmiyyət kimi xüsusiyyətlər sayəsində mümkün ola biləcəyi" fikridir. Əlbəttə ki, bu əxlaqı tətbiq edən insanların bir çoxu əslində şəxsiyyətli olmaqla səmimi sevgini yaşamaq arasındakı fərqi çox yaxşı bilirlər. Bir insanın şəxsiyyətli olması Quran əxlaqına uyğun davranışdır; buna görə də, Quran əxlaqını əks etdirən digər xüsusiyyətlərə zidd olması qeyri-mümkündür. Bir insan, şəxsiyyətli olduqda soyuq, səmimi və rahat olduqda isə şəxsiyyətsiz olacaq deyə bir qayda yoxdur. Bu, tamamilə şeytanın yalanıdır və bu əxlaqı göstərənlərin hiyləgərliyindən

qaynaqlanır. Şəxsiyyətli olmaq, bir insanın ağıllı, şüuru açıq, səmimi və etibarlı olması, daha da əhəmiyyətlisi Allahdan qorxan imanlı insan olması ilə mümkün ola bilər. Ciddiyyət, rəsmiyyət kimi xüsusiyyətlərlə şəxsiyyətli olmağın heç bir əlaqəsi yoxdur.

Həmin insanlar bütün bunları çox yaxşı bilir. Necə ki, onlar da irəli sürdükləri məntiqdən, şeytani əxlaqa qanuni zəmin hazırlaya bilmək üçün yalnız bir bəhanə kimi istifadə edirlər. Əvvəlki sətirlərdə ətraflı qeyd edildiyi kimi, böyüklük və qürurluluq duyğularından ötrü, qarşılarındakı insanlara sevgi göstərmək nəfslərinə ağır gəlir. Yaxud bu insanların hər hansı davranışlarına etiraz etmək, onlara müəyyən şəkildə mesaj vermək, küsülü və qəzəbli olduqlarını ifadə etmək üçün bilərək soyuq davranırlar. Bütün bunları açıq şəkildə etmələrinin Quran əxlaqına uyğun olmayacağını bildikləri üçün də, bunu şeytanın gizli üsulları ilə, səssiz dillə ifadə etməyə çalışırlar.

Nəticə etibarilə passiv və donuq, soyuq və sevgisiz xarakter göstərib, ətraflarındakı insanlara gizli eyhamlar vurmaq istəyənlərin, əsil problemləri qəlblərindəki səmimiyyətsizlikdir. Əslində Allahdan kifayət qədər qorxmaz, imanı və Quran əxlaqını lazımınca yaşamaz və möminləri özlərinə tam olaraq dost bilməzlər. Sahib olduqları Allah qorxusu və yaşadıqları din əxlaqının iman gətirənləri necə etibarlı insanlar etdiyini bildikləri halda, onlara lazımınca güvənə bilməzlər. "Sizin dostunuz (vəliniz), təkcə Allah, Onun Elçisi, rüku edənlər olaraq namaz qılan və zəkatı verən möminlərdir" (Maidə surəsi, 55) ayəsi ilə bildirildiyi şəkildə, onları özlərinə dost və sirdaş tutmazlar. Qəlblərindəki bu xəstəlik hərəkətlərinə əks olunur və buna görə də, onlara lazımınca sevgi və səmimiyyət göstərə bilmirlər. Halbuki Allah; "kim Allahı, Onun Rəsulunu və iman gətirənləri özünə dost (vəli) tutsa, şübhəsiz ki, qalib gələcək olanlar, Allahın tərəfdarlarıdır" (Maidə surəsi, 56) ayəsi ilə insanın təkcə bu yolla müvəffəqiyyətə nail ola biləcəyini xatırlatmışdır. Bu əxlaqdan üz döndərən insanın dostu isə şeytan olacaq. Belə dostluğun nəticəsi isə Quranda belə bildirilmişdir:

**...Kim Allahı tərk edib Şeytanı özünə dost (vəli) tutsa, şübhəsiz ki, o, açıq-aydın ziyana uğramışdır. (Nisa surəsi, 119)**

İnsanlar güvəndikləri insanların yanında çox rahat və təbii davranar, onların özləri ilə əlaqədar məlumat sahibi olmalarından narahat olmazlar. Məsələn, bir ana uşağı ilə əlaqədar hər mövzunu bilər. Bu, onun çatışmazlığı və ya səhvi də olsa, qarşılıqlı surətdə heç biri bundan narahat olmaz. Ana uşağının yaxşılığı üçün bu səhvini düzəltməyə kömək edər; uşağı da anasının yaxşı niyyətini bildiyi üçün heç bir narahatlıq hissi yaşamaz. Uşağının hansı səhvi olsa da, anası ona həmişə sevgi göstərər və fədakarlıq, yaxşılığını ondan əsirgəməz. Anasının şərtsiz sevgisindən əmin olan uşaq da, anasına təbii olaraq daimi sevgi və yaxınlıq duyar. Aralarındakı heç bir mövzunun bu sevgiyə mane ola biləcəyini düşünməz.

Allah rizasına uyan və Allah qorxusuna əsaslanan birgəlik içində olan möminlər üçün bənzər vəziyyət hakimdir. Möminlər dünya və axirətdə sonsuza qədər birlikdə olmaq niyyəti ilə bir araya gələrlər. Quranın; "Allahın ipinə hamınız möhkəm sarılın. Dağılıb ayrılmayın. Həmçinin Allahın sizin üzərinizdəki nemətini xatırlayın. Bir zaman, siz bir-birinizə düşmən idiniz. O, qəlblərinizin arasını uzlaşdırıb isinişdirdi və siz Onun neməti sayəsində qardaş oldunuz..." (Ali İmran surəsi, 103) ayəsi ilə bildirildiyi kimi, bir-birlərini qardaş kimi sevərlər. Bir-birlərinə qarşı heç bir mənfəət əlaqəsinə əsaslanmayan, yalnız Allah sevgisinə əsaslanan, Allahın rizasının meyar qəbul edildiyi daimi sevgi bəsləyərlər. Hətta əxlaqları gözəlləşdikcə və Allah rizasını qazanmaq mövzusundakı səyləri artdıqca bir-birlərinə duyduqları sevgi və bağlılıq da getdikcə artar.

Lakin şeytanın təsiri altındakı insanlar belə düşüncəyə sahib deyildirlər. Çünki onların zehinlərində kök salan düşüncələr, səmimi möminlərin düşüncələrindən çox fərqlidir. Allaha və möminlərə olan bağlılıqları kifayət qədər güclü olmadığı üçün, onlarla həqiqi dostluq və yaxınlıq qura bilməzlər. Bundan ötrü də, qarşılıqsız və ya birtərəfli sevgiyə niyyət etməkdən qaçar və həmişə təmkinlə hərəkət edərlər.

Əlbəttə ki, bu davranışları hər mövzuda olduğu kimi, özlərindən başqa heç kimə zərər verməz. Allahın ən gözəl nemətlərindən biri olan sevgi göstərməyi, sevgi görməyi, yaxınlığı, marağı yaşamayıb yalnız öz-özlərini bu gözəlliklərdən məhrum edərlər. Ətrafları nə qədər izdihamlı kimi görünsə də, qürurlanan halla tənha həyat yaşayarlar. Göstərdikləri bu Qurandan uzaq əxlaqdan ötrü; "bundan ötrü, bu gün özünə heç bir mehriban dost yoxdur" (Haqqə surəsi, 35) ayəsi ilə bildirildiyi kimi, axirətdə də dostları olmayacaq.

## Gözəl sözdən, iltifatdan, xoşsöhbət olmaqdan qaçmaları

Allah Quranda gözəl sözün əhəmiyyətini belə misalla xatırlatmışdır:

**...Gözəl söz kökü yerdə möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. Rəbbinin icazəsi ilə meyvəsini hər zaman verər. Allah insanlar üçün misallar çəkər; ümid edilir ki, onlar öyüd alıb düşünərlər. (İbrahim surəsi, 24-25)**

Həmçinin Allah digər bir ayədə də insanlara sözün ən gözəlini söyləmələrini bildirmiş, əks təqdirdə şeytanın araya girib insanların arasını vuracağını belə xəbər vermişdir:

**Qullarıma, ən gözəl sözləri deməl追ərini söylə. Çünki şeytan aralarını vurmaqdadır. Şübhəsiz ki, Şeytan insanın açıq-aydın düşmənidir! (İsra surəsi, 53)**

Həyatlarının hər anını Allahın razı olacağı şəkildə yaşamaq niyyətində olan möminlər, bu ayələr əsasında həmişə gözəl sözlər söyləməyi özlərinə hədəf seçmişlər. Özlərini şeytanın istəkləri əsasında yaşamağa hazırlamış insanlar isə, bir çox mövzuda olduğu kimi, bu mövzuda da, əksinə davranarlar. Gözəl sözdən, iltifatdan, xoşsöhbət olmaqdan qaçmalarının isə bir çox səbəbi var.

Bu insanların hər mövzuda olduğu kimi, gözəl söz söyləyənlərdən olmaq mövzusunda da qarşılarına çıxan ilk maneə "qürurları"dır. Qürurlu insanın əsas xüsusiyyəti öz nəfsini ön planda tutması və digər bütün mövzuların, hətta əsil məqsədi olan Allahın rizasını qazanma səyinin belə, nəfsindən sonra gəlməsidir.

Belə bir insan özü üçün mühüm əhəmiyyəti olan böyüklənmə duyğusunu bir kənara qoyub, ətrafındakı insanlara gözəl sözlər söyləməyi, iltifat etməyi və onlarla xoş söhbətlər etməyi olduqca çətin hesab edər. Çünki ona görə ən ağıllı insan özüdür, özü bu qədər ağıllı ikən, başqa birini öz istəyi ilə tərifləməsi mümkün olmaz. Yenə ona görə ən məntiqli insan da özüdür və onun qədər məntiqli insanın başqa insanın sözlərini dinləyib ona tabe olması yersiz olar. Ona görə, ən gözəl xüsusiyyətlərə sahib olan da özüdür, o zaman o, iltifat etməli deyil, ona iltifat edilməlidir...

Şeytanın təsirinə düşən bu insanların gözəl söz deməkdən qaçmalarının digər səbəbi isə, qəlblərindəki "kin və ya qısqanclıq" duyğularıdır. Allah insan nəfsinin qısqanclığa və eqoistliyə əlverişli olduğunu; "...nəfslər isə “qısqanclığa və eqoist həvəslərə” hazır (əlverişli) edilmişdir..." (Nisa surəsi, 128) ayəsi ilə açıqlamışdır. Allahdan qorxub çəkinən möminlər bu ayədən ötrü, qısqanclıqdan Allaha sığınar və nəfslərinin bu yönünü tərbiyə edərlər. Ətraflarındakı hər hadisədə Allahın üstün təcəllilərinini görər və bunları coşğu ilə dilə gətirməkdən özlərini saxlaya bilməzlər. Gözəlliklər, nemətlər və müvəffəqiyyətlər qarşısında duyduqları sevinci israrla gündəmə gətirib, Allahın nemətinə qarşı olan şükürlərini ifadə edərlər. Yaşadıqları sevgini, coşğunu təbii şəkildə kənara əks etdirərlər.

Şeytana tabe olanlar isə nemətlərdən zövq ala bilməz, sakit həyat yaşaya bilməzlər. Özləri bu vəziyyətdə olarkən, ətraflarındakı səmimi möminlərin nemətlərdən dərin zövq almaları, xoşbəxt, rahat və sevincli olmaları onları daxilən qısqanclığa və qəzəbə sürükləyər. Halbuki eyni gözəl həyatı yaşamaq onların da əlindədir. Allah, iman gətirib saleh əməllər işləyən, gözəl əxlaq göstərən hər insana bu gözəl həyatı vəd etmişdir. Öz seçimləri əsasında şeytanın əxlaqını mənimsədikləri üçün yaşadıqları narahat həyatdan ötrü bundan məhrum olar, ardınca da bu nemətə sahib olan möminlərə həsəd aparar.

İçlərində gizlənən və şeytanın təlqinləri ilə getdikcə böyüyən kin və qısqanclığı açıqca dilə gətirməkdən çəkindikləri üçün, şeytanın səssiz dilinə müraciət edərlər. Gözəlliklər, nemətlər və müvəffəqiyyətlər qarşısında səssiz qalmağı və susmağı seçərlər. Bunları mümkün qədər heç ağızlarına almaz, yayınmağa çalışarlar. Qəzəblərindən ötrü; "səssiz etiraz" üsuluna əl atıb mənfi düşüncələrini və narazılıqlarını qərarlı səssizliklə ifadə etməyə çalışarlar.

Bu insanların gözəl sözlər söyləyib iltifat etməkdən, mehriban söhbət mühiti yaratmaqdan qaçmaqla, etmək istədikləri digər şey isə qarşılarındakı insanlara "dəyər vermədiklərini vurğulamaq"dır. Lakin bunun səbəbi qarşılarındakı insanları həqiqətən dəyərsiz görmələri deyil. Bunu nəfslərinə ağır gəldiyi üçün, qısqanclıqlarından və ya qürurlarından ötrü edərlər. Lakin kitabın əvvəlindən bəri diqqət çəkdiyimiz bütün gizli pisliklərdə olduğu kimi, bu davranışlarında da özlərini açıqca biruzə verməməyə, təkcə sübut edilə bilməyəcək etirazlar etməyə böyük diqqət göstərərlər. Əgər hər kəsin gözəl sözlər danışdığı mühitdədirlərsə, tamamilə səssiz qalmalarının içlərindəki bu pisliyin başa düşülməsinə səbəb olacağını bildikləri üçün bu cür vəziyyətlərdə fərqli üsula müraciət edərlər.

Bəzən, sanki uyğun söz tapa bilmirmiş kimi qırıq-qırıq danışar, bəzən də demək məcburiyyətində qaldıqları sözlərə səmimiyyətsizlik əlavə edərlər. Bəzən ağızlarından səhv bir söz çıxmış və deyəcəklərini istədikləri şəkildə ifadə edə bilməmiş kimi davranaraq, gizli dillə bu mövzudakı istəksizliklərini və soyuqluqlarını göstərərlər. Bəzən də əvvəlcə gözəl söz söyləyirmiş yaxud səmimi iltifat edirmiş kimi davranıb, ardından əlavə etdikləri hiyləgərcəsinə hazırlanmış digər bir sözlə bunun mənasını dəyişdirməyə yaxud da təsirini yox etməyə çalışarlar. Şeytanın təsiri altında olduqları üçün bir şeyi həqiqətən bəyəndikləri halda, qürurlarına ağır gəldiyi üçün bunu həqiqi dəyərini hiss etdirməyəcək sözlərlə tərifləməyə çalışarlar. Məsələn, "çox gözəl" ifadəsi əvəzinə, "pis deyil" kimi başdansovma sözlərlə mövzunu əhəmiyyətsiz göstərməyə cəhd edərlər. Bunlar kimi səmimiyyətsizliklərini vurğulamaq üçün işlətdikləri daha bir çox incə üsul var və bunların hər biri şeytan əməli olan hiyləgər üsullardır.

Bu mövzuda bilinməsi lazım olan budur ki, göstərdikləri hiyləgər davranışlarla, sərf etdikləri mesaj dolu sözlərlə təkcə özlərini çətinliyə salarlar. Bunların heç biri səmimi möminlərə təsir etməz, zərər verə bilməz. Əksinə, möminlərin səmimiyyətsiz insanları tanımalarına və şeytanın insanlara necə bir oyun oynadığını görmələrinə vəsilə olar.

## Diqqəti cəlb etmək üçün özlərini əsrarəngiz göstərmə cəhdləri

Şeytanın təsiri altındakı insanların ətraflarında olanların diqqətini çəkə bilmək üçün, müraciət etdikləri səssiz üsullardan digəri isə, özlərini "əsrarəngiz insanlar kimi tanıtmağa çalışmaları"dır. Bunun üçün də, bu hissənin əvvəlindən bəri açıqladığımız durğun, səssiz və passiv xarakterə bürünərlər. Özlərini olduqlarından daha fərqli göstərməyə çalışarlar; lakin bu fərqliliyin həqiqi hallarından daha mənfi təəssürat yaratmasına diqqət yetirərlər. Bunun onlara necə bir mənfəət təmin edəcəyi isə naməlumdur. Çünki heç bir insan özünü ətrafına pis insan kimi tanıtmaq istəməz. Bir çox yaxşı xüsusiyyəti olduğu halda, mənfi cəhətlərini ön plana çıxardıb vurğulamağı istəməz. Əksinə, həmişə olduğundan daha ağıllı, daha gözəl xasiyyətli, daha şəxsiyyətli, daha etibarlı biri kimi tanıtmaq istəyər. Bir insanın belə səy göstərməsi, şübhəsiz ki, təkcə şeytanın bu insanın doğru yollarının üstündə oturması və onu doğru yoldan azdırmağa çalışmasıyla gerçəkləşər.

Ələ aldığımız bütün digər üsullar kimi, şeytanın bu hiyləgər üsulu da Quran əxlaqına qətiyyən uyğun gəlmir. Əvvəla imanı qavrayan bir insan heç vaxt özünü bilə-bilə əsrarəngiz insan kimi tanıtmaz. Tam əksinə, nə qədər açıq, dəqiq, səmimi şəxsiyyətə sahib olduğunu, dürüstlüyün və etibarlılığını əlindən gələnin ən çoxunu edərək bəlli etməyə çalışar. Əsrarəngiz davranışlar göstərib, özünü olduğundan fərqli göstərməyin, əsrarəngiz danışmağın münafiq xarakterli insanların xüsusiyyəti olduğunu bilər. Quranın bir çox ayəsində peyğəmbərlərin göndərildikləri cəmiyyətlərə özlərini tanıdarkən əvvəlcə etibarlı insanlar olduqlarını vurğuladıqlarına diqqət çəkilmişdir. Ayələrdə hz. Nuhun özünü qövmünə belə tanıtdığı bildirilir:

**Bir zaman qardaşları Nuh onlara dedi: “Məgər qorxmursunuz? Həqiqət budur ki, <u>mən sizə göndərilmiş etibarlı bir peyğəmbərəm</u>. Artıq Allahdan qorxun və mənə itaət edin. (Şuəra surəsi, 106-108)**

Saleh möminlər özlərinə peyğəmbərlərin bu əxlaqını nümunə götürərlər. Şeytana tabe olan insanlar isə bütün bu həqiqətləri çox yaxşı bildikləri halda, bulanıqlaşan ağılları və xeyli örtdükləri vicdanlarının zəifliyindən ötrü, israrla şeytanın üsuluna sarılarlar. Heç cür başa düşülə bilməyən və dolayısilə, nə düşündüyünün və nə hiss etdiyinin aydın ola bilməsi üçün, həmişə üzərinə düşülən bir insan olmağın özlərini mühüm mövqeyə gətirəcəyinə inanarlar. Buna görə də, qarşı tərəfin özləriylə maraqlanan insanlar olmasını təmin etmək üçün, həmişə özlərini sirlərlə dolu, anlaşıla bilməz, nəyi nə üçün etdiyi bilinməyən insan kimi tanıdarlar. Lakin özlərinə maraq göstərilməsi də onları rahat etməz. Özlərini əsrarəngiz göstərməklə nəyi əldə etmək istədiklərini özləri də tam olaraq bilmirlər. Təkcə diqqəti cəlb etmək istədiklərini bilirlər; bunun nəticəsində ətraflarındakı insanların sevgilərini, yoxsa nifrətlərini qazanacaqlarını heç düşünməzlər. Şeytan mövzunun bu əhəmiyyətli hissəsini

onlara unutdurar. Bunu təckə etdikləri şeytani davranışların çıxılmaz yol olduğunu anladıqları zaman düşünməyə başlayacaqlar.

Nə istədiklərinin aydın olması üçün özlərinə çoxlu sual verilsə də, bunların heç biri onların necə insan olduğunu tapmağa kifayət etməz. Xüsusilə həmişə üstüörtülü cavablar verərlər ki, nə demək istədiklərinin başa düşülməsi üçün özlərinə yenə suallar verilsin. Bu yolla ətraflarındakı insanların əsas gündəm mövzusunu meydana gətirə biləcəklərini düşünərlər. Bu, onlara görə, qarşı tərəfin onlara çox dəyər verdiyinin və onları qazanmaq üçün hər cür çətinliyə dözəcəyinin bir işarəsi kimidir. O zaman bu vəziyyətə şahid olan digər insanların da özlərinə ona görə dəyər verəcəklərini, onların gözlərində daha üstün mövqeyə yerləşirib; "bu insanlar həqiqətən əhəmiyyətlidir" deyə düşünəcəklərini zənn edərlər. Bir davranış pozuntusundan belə bir nəticəyə gəlmək isə, təkcə, üstünlük ölçüsünün təqva və Allaha yaxınlıqla olacağını düşünməyən, Quran əxlaqı ilə hərəkət etməyən insanlar üçün keçərli ola bilər. İman sahibləri belə hərəkətin Qurana uyğun olmadığını bilərlər.

Buna görə də, müsəlmanlar dürüst şəxsiyyətə sahib insanlardır; nəyi niyə etdikləri də çox aydındır. Heç bir hərəkətləri pis düşüncə daşımaz, şübhə doğurmaz. Quran əxlaqı ilə hərəkət etdikləri üçün, bir şey etdikləri və ya söylədikləri zaman bu, Allahın icazəsi ilə ətrafdakı insanlar üzərində mütləq müsbət təsir yaradar. "Niyə belə dedi", "bir şey mi eyham etməyə çalışdı", "nə demək istədi" kimi şübhələr meydana gəlməz. Əsrarəngiz təəssürat diqqətlə çəkinərlər. Quranın; "lakin Allah sizə imanı sevdirdi, onu qəlblərinizdə bəzəyib cəlbedici etdi və sizə inkarı, günahı və asiliyi çirkin göstərdi. Məhz onlar doğru yola tapanlardır!" (Hucurat surəsi, 7) ayəsi ilə bildirildiyi kimi, Allah iman gətirənləri hidayətə yönəltmiş, şeytanın əxlaqını onlara çirkin göstərmişdir.

Lakin şeytanın hiyləgər təlqinləri ilə hərəkət etdikləri üçün, Quran əxlaqından uzaqlaşan insanlar əsrarəngiz olmağı daha cəlbedici və diqqətçəkən görərlər. Özlərini digər insanlardan fərqli göstərmə arzusu daha üstün gəldiyindən, şübhəli, narahatedici, nə düşündüyü bilinməyən və planları, sirləri açıla bilinməyən insan görünüşünə bürünərlər. Ardından da müsəlmanların özlərinin necə insan olduqlarını tapmalarını, hansı gözləntilərinin olduğunu anlamalarını gözləyərlər.

Halbuki müsəlmanlar gözəl əxlaqı bütün yer üzündə hakim etmək kimi, çox mühüm məsuliyyətləri boyunlarına götürmüş insanlardır. Lakin özlərini olduqlarından xeyli böyüdüb əhəmiyyətli hesab edən bu insanlar, hər şeyin bir kənara qoyularaq təkcə özləriylə maraqlanılmasını gözləyərlər. Özlərinə çox-çox dəyər verər, digər insanların da bu şəkildə dəyər verməsini gözləyərlər.

Bu dünyagörüşləri istiqamətində şeytanın hiyləgər oyunlarına əl atarlar. Öz aləmlərində qarşılarındakı insanları müəyyən sınağa çəkərlər. Özlərinə nə qədər dəyər verildiyini, onların özləriylə maraqlanma dərəcəsinə görə müəyyənləşdirmək istəyərlər. Həqiqətən sevilib-sevilmədiklərini, özlərinə güvənilib-güvənilmədiyini ölçmək üçün bu

hiyləgər və ağılsız üsuldan istifadə edərlər. İstədikləri təqdirdə təkcə niyyət dəyişikliyi ilə aradan qaldıra biləcəkləri yanlış davranışlarını, təkcə özlərinə maraq göstərildikdə dəyişdirməyə qərarlıdırlar. Onların səhv məntiqlərinə görə, bu maraq onların sevilmə ölçüsüdür; əgər həqiqətən dəyər verilib sevilirlərsə, qarşılarındakı insanların bunu böyük diqqət və maraqla göstərmələri şərtdir.

Əlbəttə ki, bütün bunlar Quran əxlaqına qətiyyən uyğun gəlməyən, şeytani fikirlərə əsaslandığı üçün, heç vaxt istənilən nəticələri verməyəcək mənasız cəhdlərdir. Həmin bu insanlar bu şeytani cəhdlərdən, səssiz eyhamlardan, hiyləgər oyunlardan imtina etmədikləri təqdirdə böyük sıxıntıya düçar olarlar. Şeytanın əxlaqı onları getdikcə əhatə edər. Şeytanı dost tutduqları üçün müsəlmanları da sanki düşmən kimi görməyə başlayarlar. Onların hər sözlərini, hər davranışlarını şeytani məntiqlərlə şərh edib, bundan qəlblərindəki pisliyi daha da böyütmək üçün istifadə edərlər. Etdikləri bu hiyləgər və səmimiyyətsiz çıxarışları, sanki əzbərləyirmiş kimi yadda saxlayarlar. Bu da onların qəlblərində dərin qəzəbin və kinin yaranmasına səbəb olar. Necə ki, nəfslərinə tərs düşən bir vəziyyətlə qarşılaşdıqları zaman, bu kin dərhal üzə çıxar və həmin insan o günə qədər yadda saxladığı və öz aləmində qarşı tərəfə qarşı fürsət kimi istifadə edə biləcəyini düşündüyü bütün bu məlumatları açıb deyər. Allah Quranda; "pisliyi təşkil edən" belə insanları əzabı ilə xəbərdar edir:

**Artıq “pisliyi təşkil edənlər”, Allahın özlərini yerin dibinə keçirməyəcəyindən və ya bilməyəcəkləri bir yerdən əzabın gəlməyəcəyindən əmindirlər?! (Nəhl surəsi, 45)**

Beləliklə də, bu insanların heç cür açıla bilməyən əsrarəngizliklərinin, durğunluqlarının səbəbləri və irəli sürdükləri bütün bəhanələrin əsassız olduğu ortaya çıxmış olar. Əslində qəlblərində böyük qəzəb var; bunu hər nə qədər gizlətsələr də; "Allah gizlətdiklərini və aşkar etdiklərinizi bilər!" (Nəhl surəsi, 19) ayəsi ilə xəbər verildiyi kimi, Allah buna şahiddir.

## Keylik və tənbəlliklə gizli mesajlar verməyə çalışmaları

Donuq və səssiz xarakterə bürünərək pisliyin gizli dili ilə ətraflarındakı insanlara mesajlar verməyə çalışan insanların bir çoxu bu məqsədlə key, asta və dalğın davranarlar. Bu yolla şövqsüz, istəksiz və bir şeydən narahat olduqlarını səssiz dillə ətraflarındakı insanlara hiss etdirməyə çalışarlar. Digər insanlarla müqayisə edildiyi zaman, bu insanların bir hissəsinin davranışlarında böyük astalıq hiss edilər; bu vəziyyət yerişlərindən oturub-qalxmalarına və yeməklərindən təmizliklərinə qədər hər şeylərinə hakimdir. Eynilə dalğın

olmaları da diqqətçəkəndir. Hamı danışdığı halda onlar uzaq bir yerə baxıb durarlar. Söhbətdən ayrı qalar, təkcə arabir bu insanlarla danışarlar. Qəribə olan budur ki, çox həqiqi təəssürat vermələrinə baxmayaraq, əslində bütün bunları təqlid olaraq edərlər. Məqsədləri, bura qədər qeyd etdiyimiz bütün davranış pozuntularında olduğu kimi, gizlicə pis əxlaqlarını yaşada bilməkdir. Şübhəsiz ki, bu da digər məqsədli hərəkətlərində olduğu kimi, olduqca çətindir. Şən, aktiv və ünsiyyətcil (ekstrovert) bir insanın iradəsindən istifadə edib bütün günü özünü astalaşdırması, donuqlaşdırması, səssizləşdirməsi, hərəkətsiz və key hala gətirməsi... Üstəlik, buna bir-iki gün deyil, demək olar ki, bütün həyatı boyu dözə bilməsi...

Şeytan bu insanları gözəl həyatdan məhrum edə bilmək üçün, onlara bu üsulu cəlbedici göstərər, lakin eyni zamanda onlara elə böyük bir oyun oynayar ki, belə bir tələyə düşdüklərini anladıqları zaman, ümumiyyətlə, onsuz da şeytan çoxdan məqsədinə nail olmuş olar. Şeytan sanki hipnoz etmiş kimi, bu insanları təsiri altına alar. Bəhs edilən rəftarları göstərmələri məsələsində onları həmişə təşviq edər, belə ki, sonda bu onların təbii xüsusiyyətləri halına gələ bilər. Artıq istəsələr də, bu key, yuxulu, asta haldan xilas olmağın yolunu görə bilməyəcək davranışa sahib olarlar. İçlərindən sevinmək, canlanmaq və aktiv olmaq gəlməz.

Şeytanın təsiri altındakı insanlar, imana qarşı apardıqları israrlı mübarizə nəticəsində vücud cəhətdən yorulduqları kimi, zehni cəhətdən də çox yorğun, diqqətləri dağınıq hala düşə bilərlər. Davam etdirdikləri bu yorucu mübarizə nəticəsində bədənləri və zehinləri iflas edər. Diqqətli ikən diqqətsiz, aktiv ikən passiv insan halına gələrlər. Vücud cəhətən zəifləyər, xəstəliklərə meylli orqanizmə sahib olarlar. İmmun və sinir sistemləri zəifləyər. Bunların təsiri sürətlə vücudlarında özünü göstərər. Dərilərində, üzlərində, vücudlarında bu mübarizənin izləri yaranmağa başlayar. Zamanın keçməsiylə sürətli yaşlanma prosesinə daxil ola bilərlər. Əzələləri zəifləyər. Üzlərində dərin cizgilər əmələ gələr. Gözlərinin altı çöküb qaralar. Saçları və dırnaqları zəifləyər. Hava bir az dəyişən kimi asanlıqla xəstələnə bilərlər. Unutqanlıq, beyin yorğunluğu, düz danışa bilməmək, yüksək ağlama meyilliyi, stress kimi əsəbi təsirlər görünər.

Qavramada ciddi problemlər yaşamağa başlaya bilərlər. Eşitmə orqanları çox yaxşı işlədiyi halda, özlərinə deyilən şeyləri eşitməyə bilər, yanan yeməyin qoxusunu hiss etməyə bilərlər, səsə və qoxuya qarşı həssaslıqları azala bilər, təhlükəyə qarşı hissləri zəifləyə bilər. Bu bilərək yaşadıqları durğunluqları bir müddət sonra özlərinə zərər verməyə başlayar. Məsələn, kəsici alətlərdən və ya texniki bir alətdən istifadə edərkən, sadə təmir prosesi icra edərkən belə, həm özlərinə, həm də başqalarına təhlükə saça bilərlər. Bu əxlaqı yaşayan bəzi insanlar vicdanlarına qarşı içlərində apardıqları güclü mübarizədən ötrü fiziki cəhətdən də yorğun düşə bilərlər. Hərəkət qabiliyyətləri getdikcə azalmağa, astalaşmağa başlaya bilər. Sürətli hərəkət edə bilməzlər. Üzərlərində qarşı tərəfi narahat edəcək astalıq, keylik görünər. Hər fürsətdə tək qalıb, insanlardan uzaqlaşmağa, bir kənara çəkilib yatmağa meyl edərlər. Vücudlarının normal ehtiyacından çox yatarlar. Buna baxmayaraq, yenə də gümrahlaşa

bilməz; yenə yatmaq və yenə dincəlmək istəyərlər. Vicdanları üzərində yaranan güclü təzyiqdən ötrü orqanizmlərinin zəiflədiyini, xəstəliyə meylli, zəif hala gəldiklərini özləri də görərlər. Əvvəlcə nə qədər çalışqan və aktiv olsalar da, hiyləgərcəsinə qurduqları tələlər onlara durğunluq, ifrat astalıq və yorğunluq kimi geri qayıdar. Qan xəstələrindəkinə bənzər növdə ciddi hərəkət astalığı görülər. Belə bir insanın saçını düzəltmək üçün qolunu qaldırması, başını sağa-sola döndərməsi belə normal insanda olduğu kimi olmaz. Olduqca asta, kəsik-kəsik hərəkətlərlə yeriyərlər. Yemək yemələri, bir iş verildikdə bu işi bitirmələri çox uzun davam edər. Əllərinə bir kitab götürüb yatağa uzanar, lakin kitabın hələ birinci və ya ikinci səhifəsində olarkən yuxuya gedərlər. Qapı döyülsə eşitməz, biri yanlarında təhlükədən xilas olsa bunu fərq edib müdaxilə edə bilməzlər.

Həmçinin həm fiziki, həm də zehni mənada yaşadıqları bütün bu sıxıntıların başqa insanlarda da görülə bilən normal narahatlıqlar olduğunu irəli sürərək içərisində olduqları vəziyyəti anlamazlıqdan gəlməyə çalışarlar. Halbuki bu əxlaqla yaşamağı seçdikləri, özlərini təkcə kənardan dəyişdirib daxildə saxladıqları gizli pislikləri tərk etmədikləri üçün belə qarşılıq alırlar.

Göründüyü kimi, hiyləgərlik və səmimiyyətsizliklə nəsə əldə etməyə çalışan insanlar, öz qurduqları tələyə özləri düşürlər. Şeytanla əməkdaşlıq edib mənfəət əldə edə biləcəklərini güman etdikləri halda, şeytanın oyununa gəlir, böyük itki yaşayırlar. Durğunluq, astalıq və soyuqluqdan fürsət kimi istifadə edəcəklərini güman edərkən, bütün bunlar xəstəlik kimi orrqanizmlərini bürüyüb əhatə edər. Lakin unudulmamalıdır ki, səmimi olaraq bu vəziyyətdən xilas olmaq istəyən insan, şeytanla əməkdaşlıqdan imtina etdiyi, Allaha və Qurana təslim olduğu təqdirdə, Allahın diləməsiylə şeytanın üzərindəki təsiri yox olacaq və bu insan həm özünə, həm də ətrafına nemət olacaq əxlaq qazanacaq.

## Hər şeydən imtina etmiş kimi ölümü gözləyən xarakter göstərmələri

Pis əxlaqın verdiyi vicdani sıxıntı və göstərdiyi ciddi təzyiq bir insanın uzun müddət dayana biləcəyi vəziyyət deyil. Allah qorxusuna sahib, şüuru açıq bir insan bu vicdan əzabına çox dayana bilməz və dərhal Allaha sığınıb Ona təslim olar. Normal ağla sahib olan hər insan, vicdan üzərindəki bu təzyiqin vücuduna ciddi şəkildə zərər verdiyini, çox sağlam bir insanın vücudunun belə buna uzun müddət dayana bilməyərək məhv ola biləcəyini hiss edər.

Vicdan əzabı insanı maddi-mənəvi çox böyük sıxıntıya salar. Quranda, doğru olan rəftarın Peyğəmbərimiz (s.ə.v)-ə dəstək olmaq olduğunu bildikləri halda, bundan qaçan insanların yaşadığı vicdan əzabının şiddətinə belə diqqət çəkilmişdir:

**(Döyüşdən) geri saxlanılan üç (insanı) da (bağışladı). Belə ki, bütün yer üzü genişliyinə baxmayaraq, onlara dar gəlmiş, nəfsləri də özlərinə dar (sıxıntılı) gəlmişdi və Allahdan başqa sığınacaq olmadığını yaxşı başa düşdülər. Sonra tövbə etsinlər deyə onların tövbəsini qəbul etdi. Şübhəsiz ki, Allah, (təkcə) O, tövbələri qəbul edəndir, Rəhmlidir. (Tövbə surəsi, 118)**

Quranda verilən bu nümunədə olduğu kimi, Quran əxlaqına uyğun hərəkət etməyən hər insan bənzər vicdan əzabı içərisində yaşayacaq. Bu Allahın insanlara olan rəhməti, doğru yolu görmələri üçün yaratdığı xüsusi vəziyyətdir. Lakin şeytanı özlərinə rəhbər tutan insanlar, bu vəziyyəti də görməzlikdən gələr və vicdanlarının səsinə qulaq asmamaqda inad edərlər. Bunun əvəzinə əzab və sıxıntı içərisində yaşamağı, nemətlərdən, gözəlliklərdən zövq almadan ömür sürməyi qəbul edərlər. Quranın; "...kafirlərdən başqası Allahın rəhmətindən ümid kəsməz" (Yusif surəsi, 87) ayəsiylə bildirildiyi kimi, ümidsizliyə qapılmalarından ötrü, imandan və imanın qazandıracağı hüzur və xoşbəxtlikdən getdikcə uzaqlaşarlar.

Allah Quranda, şeytandan başqa heç bir dostları olmadan, bədbəxt həyat yaşadıqları halda, yenə də öyüd almaqdan israrla qaçan bu insanların vəziyyətini isə belə xəbər vermişdir:

**Allahdan "içi titrəyərək qorxan" öyüd alıb düşünər. "Bədbəxt" olan ondan qaçar. (Əla surəsi, 10-11)**

Halbuki Allah insanlara xoşbəxt olmağın, bütün bu sıxıntılardan xilas olmağın yolunu göstərmişdir. Bunun təkcə Allahın göstərdiyi hidayət yoluna tabe olmaqla mümkün olacağı Quranda belə bildirilmişdir:

**...Kim Mənim hidayətimə tabe olsa artıq o sapmaz və bədbəxt olmaz. (Taha surəsi, 123)**

Həmin bu insanların bu inadkar rəftarı, Quran əxlaqının tək çıxış yolu olduğunu anlamağa yanaşmamalarından qaynaqlanar. Dünyada və axirətdə xoşbəxt olmaları üçün özlərinə verilən öyüdləri dinləməz, əxlaqlarını gözəlləşdirmə məsələsində səy göstərməzlər. Ağılları, diqqətləri və iradələrindən vicdanlarından ötrü istifadə etməzlər.

Halbuki müsəlmanlar, bunun tam əksinə, özlərini dəyişdirmək üçün iradə göstərərlər. Özlərinə verilən öyüdlərə qarşı olduqca həssas davranar, diqqətlərini bu mövzulara yönəldərlər. Çünki Rəbbimizə olan inanclarının tələbi olaraq, təkcə Allahın rizasını qazana bilmək üçün özlərində dəyişiklik etdikləri təqdirdə, Allahın üzərlərindəki nemətləri dəyişdirib artıracağını bilərlər. Allah Quranda bu həqiqəti belə bildirir:

**Səbəbi budur: bir qövm (cəmiyyət), özündə olanı dəyişdirənə qədər, Allah ona nemət olaraq bəxş etdiyini dəyişən deyil... (Ənfal surəsi, 53)**

**"Rəbbiniz belə buyurmuşdu: "And olsun, əgər şükür etsəniz həqiqətən sizə artıraram və and olsun, əgər nankorluq etsəniz, şübhəsiz ki, Mənim əzabım çox şiddətlidir". (İbrahim surəsi, 7)**

İman sahibi bir insan üçün heç vaxt hər hansı mövzuda çıxış yolu olmaması qeyri-mümkündür. Möminlər, ən çətin, ən mürəkkəb və ən qeyri-mümkün görünən vəziyyətlərdə belə, Allahın rəhmətiylə insanlara köməyini çatdırdığını, özlərini zülmətlərdən nura çıxartdığını bilərlər. Allaha olan bu sarsılmaz etimadlarından ötrü Allahın icazəsi ilə yaşadıqları bütün çətinliklərin üstəsindən gələ bilərlər. Şeytanın təsiri ilə özünü böyük ziyana sürükləmiş insanların da, bu vəziyyəti gördükləri vaxt, əsil etməli olduqları şey, belə bir əxlaq göstərməkdir. Belə bir insan Allahın köməyinin, rəhmətinin çox geniş olduğunu, ayədə bildirildiyi kimi, Rəbbimizin ən etibarlı dost və köməkçi olduğunu əsla unutmamalıdır:

**"...Bir vəli (ən etibarlı dost) olaraq Allah kifayət edər, bir köməkçi olaraq da Allah kifayət edər". (Nisa Surəsi, 45)**

# Ümidsizlik və təvəkkülsüzlüyə qapılanların gizli səmimiyyətsizlikləri

Şeytanın insanları doğru yoldan uzaqlaşdıra bilmək üçün işlətdiyi ən mühüm üsullardan biri də, onları “ümidsizliyə və bədbinliyə sürükləmək”dir. Şeytan cahiliyyə inancını yaşayan insanlara ümidsizlik, təvəkkülsüzlük kimi davranış pozuntularını məqbul göstərmiş və beləliklə də, onları inkara sürükləmişdir. Eyni üsulu iman gətirənlər üzərində də işlətmək və bu cahiliyyə əxlaqını mənimsədərək, onları da Quran əxlaqından və imandan uzaqlaşdırmaq istəyər. Çünki Quranın; "...Allahın rəhmətindən ümid kəsməyin. Çünki kafirlərdən başqası Allahın rəhmətindən ümid kəsməz" (Yusif surəsi, 87) ayəsiylə bildirildiyi kimi, ümidsizlik mühüm inkar əlamətidir. Bu həqiqəti bilən şeytan, qəlbində xəstəlik olan insanlar üzərində ümidsizlikdən təsirli silah kimi istifadə edər. Lakin bunu edərkən digər bütün hiylələrində olduğu kimi, onları necə bir təhlükəyə sürüklədiyini hiss etdirməmək üçün hər cür oyuna əl atar. Onlara açıq şəkildə; "Allahın rəhmətindən, bağışlanmaqdan ümid kəsin" kimi təkliflər verdiyi təqdirdə, oyunlarının üstünün açılacağını və müvəffəqiyyət qazana bilməyəcəyini bilər. Çünki imandan xəbərdar olan bir insan, belə düşüncəyə qapılmağın imandan dönmək mənasına gələ biləcəyini də bilər. Şeytan bu vəziyyətdə ümidsizliyi müxtəlif düşüncələrin arxasına gizlədərək, məqbul və qanuni görünən bəhanələrlə ört-basdır edərək onlara yaşatmağa çalışar. Belə vəziyyətdə insan açıqca; "ümidimi itirdim", "hər cür xeyrdən ümidimi kəsdim" kimi bir üslubdan istifadə etməz bəlkə də, lakin bu inancın tələbini bütün əxlaqında yaşayacaq və həyatını bu düşüncələr əsasında yönləndirmiş olacaq. Şeytanın istədiyi də onsuz da bu nəticəni əldə edə bilməkdir. Hansı yolla olsa da, insanları əzaba yaxınlaşdırmaq...

Şeytan, bu hədəfinə nail ola bilmək üçün çox sistemli, incə üsullara əsaslanan və planlı bir yol izləyər. Mərhələ-mərhələ fərqli üsullardan istifadə edərək insanı istədiyi vəziyyətə gətirməyi hədəfləyər. Vicdanlarının səsini susdurub, nəfslərinin istəklərinə tabe ola bilmək üçün onsuz da bəhanə axtaran bu insanlar, şeytanın özlərinə göstərdiyi bu yola asanlıqla təslim olarlar. Şeytan onlara əvvəlcə ortada “çox böyük problemlər, çox ciddi çatışmazlıqlar olduğu bəhanəsini göstərər. Bu bəhanəyə sığınan insanlar “bu problemlərin üstəsindən gəlinməsi çox çətin, içindən çıxılması çox zəhmət tələb edən mövzular” olduğunu müdafiə edərək vicdanlarını rahatlaşdırmağa çalışarlar. “Səmimiyyətlə əllərindən gələn hər şeyi etdiklərini, lakin hər yolu sınadıqları halda, heç cür nəticə ala bilmədiklərini, heç cür problemlərinin üstəsindən gələ bilmədiklərini iddia edərlər. Ortada "sonsuz dövr" olduğunu, həllsizliyin onları zəruri olaraq çarəsizliyə sürüklədiyini irəli sürərlər. Sığındıqları bu səmimiyyətsiz bəhanəyə görə, bu onların əlində olan vəziyyət deyil; içərisində olduqları vəziyyət və yaşadıqları hadisələr onları bu qənaətə gəlməyə məcbur edir”. Artıq hüznə

qapılmış və ümidlərini itirənlərdən olmuşdurlar. Şeytan bu insanlar üzərində oynadığı oyunu tamamlamışdır.

Lakin bu da unudulmamalıdır ki, həmin bu insanlar, irəli sürdükləri bütün bu bəhanələrin səmimiyyətsizliyini və yalan olduğunu çox yaxşı bilirlər. Ümidsizliyin, təvəkkülsüzlüyün və belə çarəsiz bir üslubun, Quran əxlaqına qətiyyən uyğun olmadığını bilirlər. Vicdanları anbaan özlərinə etdikləri səmimiyyətsizliyi xatırladır, onları Quran əxlaqına uyğun şəkildə düşünməyə çağırır. Lakin onlar şeytanın göstərdiyi bu yoldan, nəfslərinin azğınlığı naminə bilə-bilə bir bəhanə kimi istifadə edirlər.

Vicdanlarının səsini bilə-bilə susdurub, səmimiyyətsizliyi seçmələri bu insanların böyük vicdan əzabı yaşamalarına səbəb olar. Bu vicdan sıxıntısından ötrü, həm zehni, həm də fiziki cəhətdən xeyli çökərlər. Şeytanın təlqinlərinə qeyd-şərtsiz tabe olduqları üçün içərisində olduqları bu vəziyyətə qarşı mübarizə aparacaq, səmimiyyətsizlikdən xilas olmaq üçün yeni bir həmlə edəcək gücü özlərində tapa bilməzlər. Əvvəlki hissədə qeyd etdiyimiz kimi, belə insan, şeytanın təsiriylə hər şeyi normal axışına buraxıb sıxıntılarıyla, əzablarıyla həyat sürməkdən başqa çıxış yolu qalmadığına özünü razı salmağa çalışar. Sanki ölümü gözləyirmiş kimi müxtəlif fəaliyyətlərlə məşğul olmağa, etdiyi səmimiyyətsizliyin dünyada və axirətdə səbəb ola biləcəyi aradan qaldırılması mümkün olmayan təhlükələri unutmağa çalışar. Çünki Allah; "insanların elələri vardır ki; "biz Allaha və axirət gününə iman gətirdik" deyərlər; halbuki iman gətirmiş deyildirlər. (Guya) Allahı və iman gətirənləri aldadırlar. Halbuki onlar, təkcə özlərini aldadır və bunu anlamırlar. Qəlblərində xəstəlik var. Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də, onlar üçün ağrılı-acılı əzab var" (Bəqərə surəsi, 8-10) ayələriylə özlərini və iman gətirənləri səmimiyyətsizcə aldatmağa çalışan bu insanlar üçün ağrılı-acılı əzab olduğunu bildirir. Həmin bu insanlar da bu vəziyyəti dərk edirlər.

Lakin Allahdan lazımınca qorxmamalarından ötrü bu həqiqəti düşünmək əvəzinə özlərinə xatırladılan əzabı unutmağa çalışarlar. Bunun üçün bəzən fiziki cəhətdən yorucu işlərlə məşğul olaraq, bəzən sıx zehin məşğul edən işlərə dalaraq, bəzən də yalnız yorğun və miskin şəkildə yataraq vaxt keçirərlər. Məhz bu mərhələdə şeytanın vəzifəsi də böyük ölçüdə tamamlanmış olar. Bu vəziyyətə gətirdiyi; daxilən inanılmaz şəkildə çürüdüb çökdürdüyü bir insanla artıq daha çox vaxt itirməsinə ehtiyac qalmamışdır. Hərdənbir onun bu düşüncələrini yeniləməsi, ona vəziyyətinin ciddiliyini, həllsizliyini və içərisində olduğu çarəsizliyi xatırladaraq onu kədərləndirməsi kifayət edəcək. Çünki artıq bu mərhələdən sonra insan, şeytanın vəzifəsini bütün təfsilatlarıyla öz boynuna götürmüş olacaq; onun min dəfələrlə zehnindən keçirərək əzbərlətdiyi fikirlərini, artıq öz-özünə təkrarlayıb xatırladacaq. Artıq bunlar onun üçün vəsvəsə və ya xülya kimi deyil, qəti həqiqətlərmiş kimi inandığı mühakimə olaraq zehnində yer tapacaq.

Şeytanın təsiri altında olduğu üçün imanı yaşamamaqda müqavimət göstərən insan, əslində tam yaşayan ölü kimidir. Həyatdan, nemətlərdən, insanlardan, bir sözlə, heç nədən zövq almaz. Ruhu korlaşmış, zehni bulanıqlaşmış, bədəni, ruhundakı bu yükü daşımaqdan yorulmuş, taqətsiz qalmışdır. Şeytanın, vicdanını, zehnini, bədənini sanki qabıq kimi örtüb, üzərində tam hakimiyyət qurduğu bu insan, artıq görünüşü, şövqsüzlüyü və zehnini bürüyən şeytani ruh halı ilə, şeytanın təbliğini edən elçi mövqeyinə gəlmişdir. Halı, rəftarı, danışıqları, üz ifadəsi, səs tonu və ümidsiz, çarəsiz, həllsiz danışmalarıyla ətrafındakı insanları da özüylə eyni bezginliyi və ümidsizliyi yaşamağa çağıran kimidir.

Belə bir mərhələdə həqiqətən iman gətirən şüuru açıq insanların bu insana olan çağırışları, yol göstərmələri çox böyük nemətdir. Öz ağlı, mühakiməsi çökmüş bir insan üçün, həqiqətləri görə bilən, yaxşı və pisi, doğru və yanlışı ayırd edə bilən insanların təmiz ağılları Allahın rəhmətinin təcəllisidir. Möminlər, özlərinə fayda və zərər verəcək şeyləri ayırd edə bilməyəcək vəziyyətə düşmüş, bu insanları Quran əxlaqına, dünyada gözəl həyata, axirətdə isə qurtuluşa çağırırlar. Bu, həmin bu insanların bəlkə də ölmədən əvvəl qarşılarına çıxan son imkanları, özlərinə edilən son xəbərdarlıq və dünya həyatı ilə yanaşı sonsuz həyatlarını da əzab içərisində keçirmələrinin qarşısını ala biləcək son təbliğ ola bilər. Bu məqamda Allaha, Qurana və səmimi möminlərin tövsiyələrinə qeyd-şərtsiz təslim olmaq və Qurana görə hərəkət etmək lazımdır. Bu təqdirdə, Allahın mərhəməti sayəsində insan şeytanın təsirindən xilas ola biləcək, həqiqi imanı yaşaya biləcəyi ağla və vicdana sahib ola biləcək. Lakin bunun üçün əvvəlcə ümidsiz düşüncələrindən, təvəkkülsüz fikirlərindən tamamilə xilas olmalıdır.

Sonrakı sətirlərdə şeytanın insanları hansı yolla həllsizliyə və ümidsizliyə sövq etdiyini, onlarla zehinlərində necə danışdığını, bu danışıqların gecə-gündüz demədən günün 24 saatı, aylarla, illərlə imtina etmədən, hər an necə fərqli formalara bürünərək davam etdiyini nümunə verərək izah edəcəyik. Lakin bundan əvvəl bu rəftarın Quran əxlaqıyla necə ziddiyyət təşkil etdiyinə və səmimi iman gətirən bir insanın şeytanın bu təhriklərinə qarşı nə cür rəftar göstərməsinin lazım olduğuna toxunacaq, Quran əxlaqı yaşandığı təqdirdə şeytanın bu oyununun iman gətirənlər üzərində heç bir təsirinin olmayacağını izah edəcəyik.

## Quran əxlaqında ümidsizliyin və təvəkkülsüzlüyün yeri yoxdur

Allah Quranda insanlara, qarşılarına çıxa biləcək hər cür hadisə haqqında ən doğru həll yollarını bildirmişdir. Buna görə də, iman gətirən bir insanın həyatında həlli olmayan heç bir məsələ yoxdur. Allahın Quranda göstərdiyi yola tabe olduğu təqdirdə mömin, qarşılaşdığı hər problemin üstəsindən rahatlıqla gələ bilər. Allah hz. İbrahimə bu vəziyyəti;

"dedilər: "Səni həqiqətlə müjdələdik; elə isə ümid kəsənlərdən olma" (Hicr surəsi, 55) ayəsi ilə bildirmişdir.

"And olsun, Biz Quranı zikr (öyüd alıb düşünmək) üçün asanlaşdırdıq. Lakin öyüd alıb düşünən var mı?" (Qamər surəsi, 17) ayəsiylə bildirildiyi kimi, Allah İslam dinini insanlar üçün asanlıq dini etmişdir. İnsan həyatı boyu hansı çətinliklə qarşılaşsa da, necə böyük səhv etsə də, Allah bunların hər biri üçün bir çıxış yolu yaratmış və bunları Quran vasitəsilə qullarına bildirmişdir. İnsanın din əxlaqının bu asanlığını qavraya bilməsi üçün, Rəbbimizin üstün sifətlərini təqdir edə bilməsi, Allahın sonsuz gücünü, sonsuz elmini qavraması lazımdır. Bu şüura malik bir insanın həyatında ümidsizliyin, həllsizliyin, çarəsizliyin yerinin olması qeyri-mümkündür. Allah səmimi-qəlbdən iman gətirənlərin vəlisi, dostu, köməkçisi, yol göstəricisidir. Onları hər cür sıxıntıdan, hər cür çətinlikdən qurtarmağa qadirdir.

Çətinliyi də, asanlığı da yaradan Allahdır. Allah bütün bunları (müəyyən hikmətlər əsasında) insanları sınamaq, kimin Rəbbimizə bağlılıqda qətiyyət göstərəcəyini ortaya çıxartmaq üçün yaradır. Ən çətin anda belə əsla ümidsizliyə qapılmayan, Allaha olan etimadında səbir və qətiyyət göstərən insanlar üçün Allah çətinliklə birlikdə asanlığı da yaradar. Allah Quranda bu köməyini belə müjdələyir:

**Və səni asan olan üçün müvəffəq edəcəyik. (Əla surəsi, 8)**

**Deməli, həqiqətən çətinliklə birlikdə asanlıq var. Həqiqətən çətinliklə birlikdə asanlıq var.**

**Bu zaman boş qaldığın vaxt, dayanmadan (dua və ibadətlə) yorulmağa davam et.**

**Eləcə də, təkcə Rəbbinə rəğbət et. (İnşirah surəsi, 5-8)**

Ayələrdə bildirildiyi kimi, insanın bu asanlıqları görə bilməsi üçün etməsi lazım olan "təkcə Rəbbimizə yönəlmək"dir. Lakin bəzi insanlar şeytanın və nəfslərinin özlərini istiqamətləndirməsinə icazə verdikləri üçün, Quranda bildirilən bu asanlıqdan məhrum qalmış olarlar. Bir tərəfdən yanlış yolda olduqlarını görər, digər tərəfdən isə bu vəziyyəti Allaha təslim olmaq əvəzinə, yenə şeytanın köməyi ilə həll etməyə çalışdıqları üçün həmişə çıxılmaz vəziyyətlə üzləşərlər. Quran əxlaqına qayıtmadıqları müddətcə bu vəziyyət həmişə təkrarlanar. Şeytan da bitmək bilməyən bu təkrarların həllsiz vəziyyətlə qarşı-qarşıya olunmasından qaynaqlandığı düşüncəsini ortaya atar. Həmçinin getdikcə bu insanları bu düşüncəni vəsvəsə halına gətirəcəkləri şəkildə razı salar. Halbuki çıxış yolu tapa bilməmələri tamamilə Quranda bildirilən yola tabe olmamalarından qaynaqlanır.

Əsil mühüm məsələ isə, bu insanların əslində istədikləri təqdirdə dərhal bu ruh halından xilas ola biləcəkləridir. Çünki vicdanları özlərinə nələr etməli olduqlarını söyləyir. Allaha sığınmağın onları bu çıxılmaz vəziyyətdən xilas edəcəyini, Allahın bütün dualara cavab verən olduğunu, onlara mütləq kömək edəcəyini, Allah vicdanları ilə ilham edir. Lakin onlar şeytanın təsiri altında olduqları və iman gətirənlərə qarşı bu inkar əxlaqından fürsət kimi istifadə edib, istədikləri bəzi şeyləri əldə etmək üçün, xüsusən şeytanla əməkdaşlıq etməyə davam edər, bu rəftarlarından imtina etməzlər.

## Ümidsizliyə qapılan insanların gizli səmimiyyətsizlikləri

Ümidsizliyə qapıldıqlarını söyləyərək, xeyirdən ötrü səy göstərməyə yanaşmayan insanlar, bu vəziyyətləri qanuni və məntiqli göstərə bilmək üçün ortaya müxtəlif iddialar atarlar. Şeytanın hiyləgər üsullarıyla təvəkkülsüz və bədbin rəftarlarının haqlı səbəbləri olduğunu sübut etməyə çalışan insanlar, irəli sürdükləri bu bəhanələrin səmimiyyətsizliyindən xəbərdardırlar. Həmçinin Quranda bildirilən həll yollarına tabe olduqları zaman, Allahın insanları hər cür sıxıntıdan, çatışmazlıqdan xilas edəcəyini də bilirlər. Özlərinə böyük zərərlər verməsinə baxmayaraq, Quran əxlaqından kənar bir həyat tərzi yaşamaqda niyə bu qədər israr etdikləri isə olduqca düşündürücüdür. Bunun cavabını Allah Quranda belə bildirir:

**...Lakin <u>onların qəlbləri sərtləşdi və şeytan onlara etdikləri əməlləri cəlbedici (bəzəkli) göstərdi</u>. (Ənam surəsi, 43)**

Şeytan, etdikləri əməlləri bu insanlara qəribə şəkildə zövqlü göstərir. Belə ki, şeytanın göstərdiyi bu yola tabe ola bilmək üçün özlərinə zülm etməyi, bədbin ruh halında yaşamağı, ömür boyu bədbəxt olmağı qəbul edir; müəyyən mənada mənəvi cəhətdən öz əlləriylə özlərini öldürürlər. Göstərdikləri pis əxlaq xüsusiyyətlərindən ötrü, ətraflarındakı insanların sevgisini, hörmətini, etibarını itirməyi, heç bir yaxın dost və yoldaşları olmadan şeytan ilə baş-başa, tək-tənha bir dünyada yaşamağı, gözəl xasiyyətli olub xoşbəxt həyat yaşamaqdan daha cəlbedici görürlər.

Şübhəsiz ki, öz əlləriylə yaratdıqları bu vəziyyət, Allahın şeytanı dost tutmalarından ötrü onlara dünya həyatında verdiyi qarşılıqdır. Dünya həyatında Allahın rəhmətindən, köməyindən ümid kəsdiklərini söyləyərək bədbəxt həyat yaşamağı seçən bu insanlar üçün,

axirətdə artıq istəsələr də heç ümid yeri olmayacaq. Allah bu insanları acı əzabla xəbərdar etmişdir:

**Onlardan (əzab) yüngülləşdirilməyəcək və orda onlar ümidlərini itirmiş şəxslərdir. (Zuxruf surəsi, 75)**

**Allahın ayələrini və Ona qovuşmağı "yox sayıb inkar edənlər"; məhz onlar, Mənim rəhmətimdən ümid kəsiblər və məhz onlar, acı əzab onlarındır. (Ənkəbut surəsi, 23)**

Lakin öz əleyhlərində həddi aşmış bu insanlar əgər vicdanlarının səsini dinləyib hələ vaxt olarkən, şeytanın göstərdiyi bu yolu tərk etsələr, Allah rəhm edən, bağışlayan və qullarının bütün günahlarını əfv edəndir.

Bu insanların Quran əxlaqına uyğun gəlməyən çarəsiz və ümidsiz üslublarını məqbul hala gətirə bilmək üçün irəli sürdükləri hiyləgər və səmimiyyətsiz məntiqlərdən bəziləri bunlardır:

## Səhvlərinin düzəldilə bilməyəcək qədər böyük olduğunu, buna güclərinin və iradələrinin çatmadığını iddia etmələri

Allaha qəlbən iman gətirən insanlar, dünya həyatında onlara verilən müddəti, Rəbbimizin razı olacağı əxlaqa nail ola bilmək üçün ciddi səy içərisində keçirərlər. Qəlblərindəki Allah qorxusu, onların, Allahın bəyənməyəcəyi rəftarlar göstərməsinə, bu rəftarlarda bilə-bilə israr etməsinə mane olar. Allaha duyduqları sevgi və bağlılıq elə güclüdür ki, bu güc (hansı çətinliklə qarşılaşsalar da) böyük şövqlə bunların üstəsindən gəlmələrini təmin edər. Allah qorxusu və Rəbbimizə duyduqları sevginin gücü ilə etdikləri səhvlərdən imtina etmələri də yenə onlar üçün olduqca asan olar.

Allahdan tam mənasıyla qorxmayan, axirəti lazımınca düşünməyən insanlar isə bu gücü özlərində tapa bilməzlər. Çünki Allaha olan bağlılıqları və Onun rizasını itirməkdən duyduqları qorxu zəifdir. Axirətdəki sonsuz həyatlarını əzab və peşmançılıq içərisində keçirə biləcəklərinə də, elə də çox ehtimal verməzlər. Buna görə də, cəhənnəm qorxusu da onları kifayət qədər hərəkətə gətirməz. Belə vəziyyətdə Allahın razı olmayacağı yönlərini görsələr də, bu mövzularda səhvlərini düzəltmək üçün şövqlü və çalışqan davranmaqdansa, müxtəlif açıqlama və bəhanələrlə bunları başdan sovmağı daha məqbul görərlər. Bu məqsədlə irəli

sürdükləri bəhanələrdən biri; "etdikləri səhvləri düzəltməmələrinin əsil səbəbinin bunların düzəldilə bilməyəcək qədər böyük olması"dır. “Elə səhv rəftarlar göstərmiş, elə səhvlər etmişlər ki, bunları edə bilən bir insan onsuz da artıq nə qədər səy göstərsə də bunların yaratdığı ziyanı aradan qaldıra bilməyəcək”. Lakin, əlbəttə ki, bütün bu düşüncələr şeytan əməli olan aldatma, böyük yalandır. Allahın Quranda bildirdiyi ayələr, bu düşüncənin Quran əxlaqında heç bir etibarlı yönü olmadığını açıqca göstərir. Əvvəla Allah insanlara güclərinin çatmayacağı yük yükləməyəcəyini bildirmişdir:

**Heç kimə gücü çatmayacağı yük yükləmərik; Bizdə haqqı söyləyən bir Kitab var və onlara heç bir haqsızlıq edilməz. (Muminun surəsi, 62)**

Allah sonsuz rəhmli və bağışlayan, qullarından səmimiyyətlə Özünə yönələnlərin tövbələrini qəbul edəndir. Rəbbimiz şirkdən başqa insanların bütün günahlarını bağışlayacağını bildirmişdir. Şirkdə də, yenə insan bundan hələ vaxt olarkən, imtina etdiyi təqdirdə Allahın bağışlayıcılığı ilə qarşılıq görə bilər. Quranda sonsuz mərhəmət sahibi olan Rəbbimizin bağışlayıcılığı belə bildirilir:

**(Məndən onlara) De: "Ey Mənim öz əlehlərinə qarşı həddi aşmış qullarım. Allahın rəhmətindən ümid kəsməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayar. Çünki, O bağışlayandır, rəhmlidir". (Zumər surəsi, 53)**

Digər bir ayədə isə Allah səmimi səy göstərən qullarının qüsurlarını örtəcəyini və onları üstün edəcəyini bildirir:

**Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, qüsurlarınızın üstünü örtər və sizi “şərəfli, üstün” məqama daxil edərik. (Nisa surəsi, 31)**

Allahın rizasını qazana biləcək əxlaq göstərən insan üçün səhvlərini düzəldə bilmək olduqca asandır. Həqiqət bu qədər açıq olarkən və Allah əfv edəcəyini, bağışlayacağını, hətta pis əməllərini yaxşı əməllərə çevirəcəyini bildirmişkən, insanın “səhvini düzəldə bilməsinin qeyri-mümkün olduğunu” söyləməsi Qurana uyğun deyil. Bu bəhanəni ortaya atan insan, hiyləgərliyin arxasına gizlənərək, əslində haqqdan qaçdığını, gözəl əxlaqı yaşamağa yanaşmadığı üçün, belə səmimiyyətsizlik etdiyini çox yaxşı bilir. Allah vicdanında bu həqiqəti ona bütün təfsilatları ilə hiss etdirir. Əxlaqındakı çatışmazlıqları, yanlış istiqamətləri

düzəltməyi çətin hesab edir, güclü imana sahib olmamasından ötrü bu gücü və iradəni özündə tapa bilmir.

Allah Quranda təkcə qəlblərində xəstəlik olan münafiqlərin bu üslubu işlətdiklərinə diqqət çəkmişdir. Peyğəmbərimiz (s.ə.v) ilə birlikdə mübarizə aparmaqdan qaçmaq istəyən münafiqlər buna bəhanə olaraq; "güclərinin çatmadığını" söyləmişlər:

**Əgər yaxın fayda və orta səfər olsaydı, onlar mütləq sənin ardınca gedərdilər. Lakin çətinlik onlara uzaq gəldi. Sənin üçün; "<u>əgər gücümüz çatsaydı mütləq səninlə birlikdə (döyüşə) çıxardıq" deyə Allaha and içəcəklər</u>. Öz nəfslərini həlak edirlər. Allah onların həqiqətən yalan danışdıqlarını bilir. (Tövbə surəsi, 42)**

## Səhvlərini düzəldə bilmək üçün üzərində uzun müddət düşünməli olduqlarını irəli sürmələri

Daha əvvəl də ifadə etdiyimiz kimi, şeytan insanın gözəl əxlaq göstərməsini, vicdanından istifadə edərək Qurana uyğun həyat yaşamasını istəməz. Bunun üçün, yuxarıda qeyd etdiyimiz kimi ona gözəl əxlaq sahibi olmağı, nəfsinin pisliklərindən təmizlənməyi, səhvlərini düzəltməyi çox çətin göstərər. Etdiyi səhvin çox böyük olduğunu təlqin edər. Belə düşünən bir insan, bu səhvi düzəldə biləcəyindən və Allahın özünü bağışlaya biləcəyindən ümid kəsərək özünə və hadisələrə qarşı bədbin ruh halına girə bilər.

Nəfsi, bu insanı, səhvini düzəldə bilmək üçün üzərində dərin-dərin düşünməli olduğu yönündə aldadar, onu əsas məqsədindən uzaqlaşdırar. Bu səhvi niyə etdiyini, hadisələrin necə irəlilədiyini, ətrafındakı insanların özünü necə qiymətləndirdiyini, ona nələr söylədiklərini və bunlar kimi mövzunun ən kiçik təfsilatlarını belə saatlar, günlər, həftələr boyu tək-tək təhlil edər. Halbuki bütün bunları belə dərindən araşdırmasının özünə faydası olmayacaq. Lakin əgər səmimi davranaraq diqqətini bunu necə düzəldə biləcəyinə yönəltsə, Allahın icazəsi ilə bu vəziyyəti lehinə çevirə biləcək.

Bu vəziyyətə belə nümunə verə bilərik; asta və durğun davranan bir insana aktiv və şən olmasının tövsiyə edildiyini düşünək. Bu insanın edəcəyi çox asandır. Təkcə gülərüzlü olub, hadisələri Allahın xeyirlə yaratdığını dərk edərək rahat və hüzurlu olacaq. İnsanın, bu mövzu üzərində saatlarla düşünməsinə, mürəkkəb üsullar formalaşdırmasına ehtiyac yoxdur. Dərhal düzəldilə biləcək bu vəziyyəti, şeytan insana üzərində uzun-uzadı düşünməsi lazım olan bir mövzu kimi göstərər. Bəzən insana şən olması üçün əvvəlcə digər

səhvlərini düzəltməsinin, bunun üçün də vaxt ayırıb düşünməsinin lazım olduğunu təlqin edər. Şeytanın məqsədi vaxt qazanmaq, təxirə saldırmaq və beləliklə də, insanı əsil deyiləndən, doğru hədəfindən uzaqlaşdırmağa çalışmaqdır. Halbuki çıxış yolu çox asandır; deyilən rəftarın edilməsiylə mövzu dərhal həmin anda həll olacaq.

Belə rəftar dəyişikliyi, susamış bir insanın mətbəxə gedərək su içməsi qədər asandır. İnsanın hər dəfə susadıqda suyu içə bilmək üçün saatlarla düşünməsinə, suyu necə içəcəyini planlaşdırmasına ehtiyac yoxdur. Edəcəyi təkcə suyu içməkdir. Eynilə səhvini düzəltməli olduğunu düşünən bir insan da, bunu təkcə tətbiq edərək düzəldə bilər.

## Möminlərə çarəsizlik içərisində olduqları təəssüratını verməyə çalışmaları

Nəfslərindəki pisliklərdən xilas ola bilmədikləri üçün ümidsizliyə qapıldıqlarını söyləyən insanlar, əslində belə ruh halı içərisinə girməyi özləri seçərlər. Bu seçimlərinin səbəbi isə pis xasiyyətlərindən, yanlış rəftarlarından imtina etməyi və sonra da bu məsələdə qətiyyət göstərməyi istəməmələridir. Bunun əvəzinə belə bir bəhanənin ardına sığınmaq nəfslərinə daha cəlbedici gələr. Üstəlik, Quran əxlaqına görə yanlış olan rəftarları, daxilən nəfslərinin xoşuna gəlir. Məsələn, qürurlu və eqoist bir insan, təvazökar, həlim əxlaq qazanmaq üçün nəfsini bu yöndə yetişdirməlidir. Lakin təvazökar rəftarlar nəfslərinə çox tərs gələr; istədikləri zaman, içlərindən gəldiyi kimi qürurlana bilmək istəyərlər. Bundan ötrü də, bu məsələdə nəfslərinin üstünə getməməyi seçərlər. Lakin müsəlman əxlaqına uyğun gəlməyən bu seçimlərini açıq-aydın müdafiə edə bilməyəcəklərini də bilərlər. Bu vəziyyətdə ardına sığındıqları səmimiyyətsiz bəhanə isə əsasən, "çarəsizlik içərisində olduqları və çıxış yolu tapa bilmədikləri" şəklindədir.

Halbuki irəli sürdükləri bütün bəhanələr kimi bu da tamamilə həqiqətdən kənardır. Quran əxlaqı hər məsələdə insanlar üçün ən qəti və ən asan həlldir. Allah; "həqiqət budur ki, qulluq edən bir camaat üçün bunda (Quranda) “açıq mesaj” (və ya həqiqi çıxış yolu) var" (Ənbiya surəsi, 106) ayəsiylə bu həqiqəti insanlara bildirmişdir.

Allah digər ayələrdə isə; "...kim Allahdan qorxsa, (Allah) ona bir çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim də Allaha təvəkkül etsə, Allah ona kifayət edər..." (Talaq surəsi, 2-3) hökmüylə Özündən qorxanlara çıxış yolu göstərəcəyini bildirmişdir. Bütün bu ayələr Quran əxlaqını yaşayan bir insan üçün hər məsələdə çıxış yolu tapılacağını göstərir. Buna görə də, əgər ortada belə vəziyyət varsa, bu, insanların Qurana tabe olmayıb şeytanın üsullarına sarılmış olmalarından irəli gəlir.

Allah Quranda iman gətirənlərin ölüm, aclıq, xəstəlik kimi səbir tələb edən çox böyük çətinliklərlə qarşılaşdıqları zaman belə, əsla bu cür çarəsiz üslub işlətmədiklərini həmişə Allaha olan etimadlarını, təvəkküllərini dilə gətirdiklərini bildirir. Ayələrdə təkcə qəlblərində xəstəlik olan münafiq xarakterli insanların çətinliklər qarşısında yorulduqlarından və Allahın rəhmətindən ümid kəsən üslub işlətdiklərindən bəhs edilir. Halbuki Allaha sığınan bir insan heç vaxt belə çıxılmaz vəziyyətlə qarşılaşmaz. Çünki Allah qullarına qarşı çox lütfkar, çox geniş mərhəmət sahibi olan, qullarını çox sevəndir. Rəbbimiz Quranda bu lütfünü və mərhəmətini Peyğəmbərimiz (s.ə.v)-ə endirdiyi ayələrlə belə xatırlatmışdır:

**Rəbbin səni tərk etmədi və küsmədi. Şübhəsiz ki, sənin üçün son olan, ilk olandan (axirət dünyadan) daha xeyirlidir. Şübhəsiz ki, Rəbbin sənə verəcək, beləliklə sən məmnun qalacaqsan. Yetim ikən sənə sığınacaq vermədimi? Eləcə də, səni yol bilməz ikən, doğru yola yönəltmədimi? Yoxsul ikən zəngin etmədimi? (Duha surəsi, 3-8)**

Allah möminləri, insanları yaxşı əməllərə çağırıb, onları pislikdən uzaqlaşdırmaqla məsul etmişdir. Üstəlik, ümidsizlik, həlssizlik və ya qeyri-mümkünlük anlayışları iman sahiblərinin məqbul görəcəkləri düşüncələr deyil. Həmçinin iman sahibləri qarşılaşdıqları hər hadisəni Quranla qiymətləndirdikləri üçün bu oyunun münafiq xarakterli əxlaqın məhsulu olduğunu asanlıqla görər və bu insanlara Quran əxlaqıyla cavab verərlər.

Bəhs edilən insanlar isə çıxılmaz vəziyyətdə olduqlarını izah edən bu sözlərlə çox vaxt ətraflarındakı insanlara "rəftarlarını dəyişdirməyəcəkləri və bu məsələdə inadkar olduqları" mesajını vermək istəyərlər. Məqsədləri, qarşılarındakı insanları başqa çıxış yolu olmadığına inandırmaq və özlərini bu şəkildə qəbul etmələrini təmin edə bilməkdir. Bu yolla gizlicə Quran əxlaqını tam yaşamamaq məsələsində israrlı olduqlarını ifadə edərlər.

Lakin bu da iman gətirənlərə qətiyyən təsir etməyəcək bir üsuldur. Çünki möminlər özlərinə Quranı meyar qəbul edər və Allahın özlərinə bildirdiyi əxlaqa uyğun şəkildə hərəkət edərlər. Şeytanın əxlaqına bənzər rəftarlar göstərən bir insanı heç vaxt o halıyla olduğu kimi qəbul edib özlərinə dost tutmazlar. Allahın; "məhz bunların, Allah bunların qəlblərində olanı bilir. O zaman sən onlardan üz döndər, onlara öyüd ver və onlara nəfsləriylə əlaqədar təsiredici söz söylə" (Nisa surəsi, 63) və "o zaman, əgər "öyüd və xatırlatma" fayda verəcəksə "öyüd verib xatırlat" (Əla surəsi, 9) ayələriylə xatırlatdığı meyarlar çərçivəsində öyüd verib xatırladar, bu öyüdləri qəbul edib gözəl əxlaq göstərdikləri təqdirdə onların əxlaqlarını qəbul edərlər.

Halbuki digər bütün hesablarında olduğu kimi, bu məqamda da böyük yanılmaya qapılıblar. Çünki Allah Quranda səmimiyyətsiz insanları tanıdan dəlilləri iman gətirənlərə bildirmişdir. Həmçinin Allah onları Öz dərgahından üstün ağıl və diaqnoz qabiliyyəti ilə

dəstəkləmişdir. Bu insanlar səmimiyyətsizliyi gizli və sübut edilə bilməyəcək şəkildə edib, sonra da xoşniyyətli olduqlarını iddia edərək özlərini təmizə çıxarda biləcəklərini düşünməklə yanılırlar. Çünki danışıqları, rəftarları, baxışları, üz ifadələri və irəli sürdükləri bütün bəhanələr iman gətirənlərin onların əsil əxlaqlarını anlamaları üçün kifayət edir.

## Özlərinə təqdim edilən çıxış yollarının yanlış olduğunu iddia etmələri

Şeytan insanların doğru yoldan üz döndərmələrini, səhvlərində israr etmələrini istəyər. Xüsusən də doğru yola çağırıldıqları və ya özlərinə fayda verəcək öyüd aldıqları zaman, bu vəziyyətə qarşı dərhal tədbir almağa çalışar. Çünki belə vəziyyətdə insanın vicdanı da fəaliyyətə keçəcək və ona, israrla çağırıldığı gözəl əxlaqa əməl etməsini tövsiyə edəcək.

Vicdanlarına tabe olmaq əvəzinə, nəfslərinin istəyini qorumağa çalışan insanlar, belə vəziyyətlə qarşılaşdıqları zaman, şeytanın göstərdiyi bu yola dərhal uyarlar. Özlərinə Quran əxlaqına uyğun tövsiyələr verildikdə, əksini ilham edən nəfslərinə tabe olmaq üçün hiyləgər üsullara əl atar və özlərini razı salacaq bəhanələr taparlar. Bunların ən başında gələnlərindən biri, "səhvin doğru, lakin çıxış yolunun yanlış olduğu" bəhanəsidir. Həmin bu insanların xətalı olduqları, Quran əxlaqına uyğun rəftar göstərmədikləri olduqca aydındır. Belə vəziyyətlə qarşılaşdıqları zaman, səhvlərini rədd etmələrinin səmimiyyətsizliklərinin açıqca başa düşülməsinə səbəb olacağını bilərlər. Buna görə də, daha hiyləgər bir üsula sarılaraq bu bəhanəni irəli sürərlər. Özlərini mütləq doğru yola yönəldəcək Quran vasitəsilə öyüd verildiyi halda, səmimiyyətsizliklərindən ötrü bunu qəbul etməzlər.

Özlərinə təsvir edilən çıxış yollarının doğru olmadığını, səhvlərinin fərqli səbəblərdən qaynaqlandığını və fərqli şəkillərdə həll edilə biləcəyini iddia edərlər. Arxasınca da "həll yolu" adı altında nəfslərinə uyğun alternativlər təqdim edərlər. Quran əxlaqına tabe olmaq əvəzinə şeytani üsullara əl atmaları bu insanları qarışıqlıq içərisinə salar. Asanlıqla həll edə biləcəkləri məsələləri belə içindən çıxılmaz hala gətirər.

Şeytanın təlqinlərinə tabe olan belə bir insan, ağıl və səmimiyyətlə verilən gözəl nəsihətdən bilə-bilə uzaqlaşar. Möminlər özünü haqq və xeyirli olan rəftara çağırır, lakin o şeytanın təsiriylə tamamilə qapanmış ağlını bəyənərək haqqdan üz döndərir. Bu insanların göstərdikləri rəftar Quranda belə bildirilir:

**“Ona: “Allahdan qorx!” deyildiyi zaman, təkəbbürü onu günaha sürükləyər, əhatə edər. Belə insana cəhənnəm kifayət edər. O nə pis məskəndir!” (Bəqərə surəsi, 206)**

## Səhvlərinin nədən qaynaqlandığını bilmədiklərini və nə etməli olduqlarını anlamadıqlarını iddia etmələri

Şeytanın ümidsiz ruh halına sürüklədiyi insanların, Quran əxlaqını yaşamağa çağırıldıqları zaman, irəli sürdükləri səmimiyyətsiz bəhanələrdən biri də; "harada səhv etdiklərini və bunu düzəldə bilmək üçün nə etməli olduqlarını bilmədikləri" şəklindədir. Halbuki bu insanlar imanı qavramış, Quran əxlaqının tələblərini, Allahın çəkinilməsinin lazım olduğunu bildirdiyi rəftarları bilən insanlardır. Allah Quranda bəhanələrini hər nə qədər irəli sürsə də hər insanın özü üçün bir bəsirət olduğunu bildirmişdir. (Qiyamət surəsi, 14-15)

Digər bir ayədə isə Allah; "...şübhəsiz ki, doğruluq azğınlıqdan ayrılmışdır. Artıq kim tağutu inkar edib Allaha iman gətirsə, o, sapsağlam qulpdan yapışmış olar, belə ki, bu qopmaz. Allah Eşidəndir, Biləndir" (Bəqərə surəsi, 256) hökmüylə doğru ilə yanlış arasında açıq-aydın fərq olduğunu xatırlatmışdır. İnsan şüur sahibi olaraq yaradılmışdır. Etdiyi müsbət və mənfi rəftarları bilər. Çünki içində özünü yönləndirən vicdanının səsi var. Gözəl rəftar göstərdikdə vicdanı rahatlayar, hüzurlu olar. Əks təqdirdə isə vicdanı sıxılar. Yəni insan özünə etiraf etməsə belə, vicdanı səhvini özünə söyləyər. Buna görə də, səhvlərinin nədən qaynaqlandığını bilmədiyi, deyildikdə də anlamadığı bəhanəsini irəli sürən bir insan, nəfsinin bir oyunu ilə üz-üzədir.

Bu insan əvvəla səhvini qəbul etmək istəmir. Çünki əgər səhvini qəbul etsə bu səhvindən imtina etməli olacaq. Buna görə də, təsvir ediləni anlaya bilmədiyini söyləyər və bunu davam etdirməyə zəmin hazırlayar. Əgər anladığını etiraf etsə, bu təqdirdə bir daha təkrarlaması, bu dəfə həmin səhvi bilərək etdiyini göstərəcək. Buna görə də, belə bir söz söyləyərək özünü təmizə çıxartmağa, günahsız göstərməyə çalışar. Şeytanın məqbul göstərdiyi bu yanlış məntiqə görə qarşısındakı şəxslərin, onun, anlamadan, düşünmədən səhv bir rəftar göstərdiyinə qənaət gətirməsini, hətta səhvindən ötrü ona mərhəmət etməsini istəyər.

Allah bu səmimiyyətsiz üsulun əsassızlığını; "...halbuki onların bir hissəsi, Allahın sözünü eşidir, (yaxşı qavrayıb) anladıqdan sonra, bilə-bilə dəyişdirirdilər" (Bəqərə surəsi, 75) ayəsiylə insanlara bildirmiş, anladıqları və yaxşı qavradıqları halda, bilə-bilə anlamadıqlarını iddia edən bu insanlara qarşı iman gətirənləri xəbərdar etmişdir. Digər bir ayədə isə Allah; "...lakin, bu camaata nə olur ki, heç bir sözü anlamağa çalışmırlar?" (Nisa surəsi, 78) sözləriylə bu insanların bilə-bilə deyilənləri anlamaqdan qaçdıqlarını xəbər vermişdir.

## Özlərinə ön mühakimə ilə baxıldığını; buna görə də, etdikləri müsbət dəyişikliklərin görülə bilmədiyini irəli sürmələri

İmanı lazımınca yaşamamalarından qaynaqlanan bədbin ruh hallarına bəhanə tapmağa çalışan insanların, bu məqsədlə sığındıqları bəhanələrdən biri isə; "özlərinə ön mühakimə ilə baxılması"dır. Bu düşüncələri isə təməldəki inanc pozuntusundan qaynaqlanır. Allahın rizasını qazanmaq üçün yaşayan insanlar etdikləri hər şeyi Allahın bilməsini və Onun razı olmasını kifayət hesab edərlər. Bu əxlaqı lazımınca yaşamayan insanlar isə təqdiri və tərifi başqalarından gözləyərlər. Təkcə Allahın rizasını qazanmaq üçün yaşamaları lazım olan gözəl əxlaq xüsusiyyətlərini, insanların məmnuniyyətini qazanmaq üçün yaşayarlar. Lazımınca təqdir edilmədiklərini düşündüklərində isə göstərdikləri müsbət əxlaq xüsusiyyətlərində iradə işlətməzlər. Gözəl əxlaqlı ola bilmək üçün əllərindən gələni etdiklərini, lakin bunun heç cür lazımınca görülüb təqdir edilə bilmədiyini müdafiə edərlər. Xüsusilə də özlərinə səhv bir rəftarları xatırladılmış, lakin bu yöndə heç bir dəyişiklik etməyibdirlərsə, bu vəziyyəti dərhal ön mühakimə bəhanəsiylə ört-basdır etməyə çalışarlar.

Rəftarlarını çox dəyişdirdikləri, hətta tam fərqli insan olduqları halda, həmişə keçmiş səhvləriylə, keçmiş xarakterləriylə qiymətləndirildiklərini söyləyərlər. Bu məsələ həll edilmiş olsa belə, gələcəkdə edəcəkləri səhvlərdə də həmişə eyni baxış prizmasının hakim olacağını iddia edərlər. Özlərini nə qədər düzəltsələr də, nə qədər yaxşı olsalar da, etdikləri keçmiş səhvlərin heç unudulmayacağını və özlərinə həmişə həmin gözlə baxılacağını irəli sürərlər. Özlərinə ön mühakimə ilə baxıldığı müddətcə də, bu psixoloji təzyiqdən ötrü cəsarətlərinin yox olacağını və özlərini dəyişdirə bilməyəcəklərini müdafiə edərlər. Bütün bu səmimiyyətsiz bəhanələrin ardına sığınaraq bu şərtlər altında dəyişmələrinin qətiyyən mümkün olmadığına inandıqlarını söyləyərlər.

Göründüyü kimi səmimiyyətsiz bəhanələrə əsaslanan bu ssenaridən çıxan məntiq, səhvin bu insanlarda deyil, başqalarında olduğu şəklindədir. Halbuki bütün bu deyilənlər əsassız böhtanlarla doludur. Hər şeydən əvvəl möminlər Allahdan qorxan, sui-zənnə qapılmağın, insanlara ədalətsizliklə yaxınlaşmağın Qurana uyğun olmadığını bilən insanlardır. Buna görə də, səmimi səy göstərən bir insana qarşı heç vaxt belə nöqteyi-nəzərlə yaxınlaşmazlar. Bununla yanaşı, əgər bir insan həqiqətən özündə müsbət dəyişikliklər aparıbsa, möminlər vicdanlarındakı həssaslıqdan ötrü bunu dərhal görər və buna çox sevinərlər. Hamısından əhəmiyyətlisi insanın səhvlərini bağışlayacaq olanın Allah olduğunu və əsil Ona qarşı məsul olduqlarını bilərlər. Bir insanı Quran əxlaqına uyğun hərəkət etdiyi halda, keçmişdəki səhvləriylə mühakimə etmələrinin Quran əxlaqına uyğun olmayacağını bilirlər. Quran əxlaqının tələbi olaraq möminlərə qarşı hər zaman gözəl zənn bəsləyər, onların gözəl yönlərini həmişə ön plana çıxardaraq tərifləyib təşviq edərlər.

Dolayısilə irəli sürdükləri digər bütün bəhanələrdə olduğu kimi, bu da səmimiyyətsiz və iman gətirənlər arasında heç bir əsası ola bilməyəcək bir bəhanədir. İnsan bütün bu düşüncələrinin şeytan məhsulu olduğunu görüb, dərhal Allaha təslim olmalı və səhvini Quran əxlaqına uyğun şəkildə düzəltməyə çalışmalıdır.

## Emosionallıqdan istifadə edərək səssiz dillə mübarizə aparanlar

Şeytanın insanları, hiyləgərcəsinə Quran əxlaqından uzaqlaşdırmaq üçün istifadə etdiyi davranış pozuntularından biri də; "emosionallıq"dır. Emosional düşünməyə başlayan bir insan ağılla düşünməkdən uzaqlaşar, doğru və məqsədəuyğun düşünə bilmə qabiliyyətini itirər. Quranı meyar qəbul etməklə deyil, duyğularını meyar qəbul etməklə hərəkət etməyə başlayar. Xüsusən də kin, qəzəb, qısqanclıq, eqoizm və ya qürur kimi pis xüsusiyyətlərlə dolu olan nəfsin təhrikləri, bu ruh halını yaşayan insanları yönləndirən əsas qüvvəyə çevrilər. Bu mərhələdən sonra isə şeytanın işi olduqca asanlaşmış olar. Bu insanı istədiyi kimi təsiri altına alıb yönləndirə biləcək.

Həqiqətən də emosionallığı həyat tərzi kimi yaşamağa başlayan insanlar, böyük təhlükəyə doğru sürüklənərlər. Tezliklə xilas olmaları lazım olan emosionallıq, din əxlaqını lazımınca yaşamalarına maneə törədəcək, Allahın razı olacağı rəftarlardan uzaqlaşmalarına səbəb olacaq.

Şeytanın təsiri ilə belə ruh halı içərisinə girən insanlar bir müddət sonra emosionallıqdan səssiz dil kimi istifadə etməyə başlayarlar. Allah bir ayədə; "...şeytan, onların etdikləri əməlləri bəzəyib cəlbedici etdi və onları haqq yoldan çıxartdı. Halbuki onlar görə bilən insanlar idilər" (Ənkəbut surəsi 38) deyə buyurur. Ayədə şüurları açıq, ağıllı düşünə bilən, pisliklərdən çəkinə bilən insanlar olduqları halda, Quran əxlaqı əvəzinə şeytanın üsullarıyla hərəkət edən insanların doğru yoldan azacağı bildirilmişdir.

Həmin bu insanlar emosionallıqdan ətraflarındakı insanlara qarşı fürsət kimi istifadə edərlər. Çətin vəziyyətdə qaldıqları məqamlarda insanları öz anlayışlarına görə səmimi, xoşniyyətli və günahsız olduqlarına inandıra bilməyin ən yaxşı yolunun emosionallığa müraciət etmək olduğunu düşünərlər. Eynilə bu rəftarı kin, qəzəb, qısqanclıq kimi içlərində gizlətdikləri pislikləri kənara əks etdirməyin, inad edərək istədiklərini əldə etməyin, ehtiraslarını, zəif nöqtələrini gizlətməyə çalışmağın da bir yolu hesab edərlər. Şeytanın təlqinləri nəticəsində bu xarakterə bürünərək ətraflarındakı insanlara çox təfsilatlı mesajlar verə bilərlər.

Lakin emosionallıq deyildikdə ağla təkcə bilinən bəzi müəyyən rəftarlar gəlməməlidir. Şeytan, təsiri altına aldığı insanlara bu əxlaqında bütün çirkli zənginliklərini öyrədər. Sonrakı sətirlərdə emosionallıqdan gizli dil kimi istifadə edən insanların, hiyləgər üsullarına və bunlarla vermək istədikləri mesajlara toxunacaq, şeytanın bu insanlar üzərindəki oyununun üstünü açacağıq.

## Ağlayaraq özlərini acındırmağa və günahsız göstərməyə çalışmaları

Emosionallığın ən məlum yönlərindən biri, şübhəsiz ki, ağlamaqdır. Şeytanın verdiyi təlqinlərlə emosional davranan insanlar, bu vəziyyətlərindən qarşılarındakı insanlara təsir edərək istədiklərini əldə edə bilmək üçün bir fürsət kimi istifadə etməyi qarşılarına məqsəd qoyarlar. Onları belə düşüncəyə sövq edən ən mühüm səbəblərdən biri isə, bunun cahil insanlar arasında təsirli üsul olduğuna həyatları boyu bir çox dəfə şahid olmuş olmalarıdır. Quran əxlaqından uzaq yaşayan və həyatlarını bəzi cahil qaydalar əsasında yönləndirən bəzi insanlar ağlamağın, günahsızlığın mühüm dəlili olduğunu düşünərlər. Öz aləmlərində ağlayaraq, doğrunu söylədiklərini, lakin bu vəziyyəti qarşısındakılara sübut edə bilmədikləri üçün, haqsızlığa uğradıqlarını, böyük çarəsizlik və kədər yaşadıqlarını sübut etmiş olacaqlarını düşünərlər. Bu azğın inanclarına əsaslanaraq üzləriylə mümkün qədər günahsız olduqlarını vurğulayaraq qarşı tərəfdə acıma hissi oyatmağa çalışarlar.

Uşaqlıq illərindən etibarən ətrafında bu üsulun nə qədər çox sınanıldığını və bu cür insanlar arasında nə qədər təsirli olduğunu görən insanlar, şeytanın təsiriylə səmimiyyətsizliklərini gizlətmək üçün eyni üsula sarılarlar. Gözyaşından silah kimi istifadə etdikləri zaman, insanları səmimi, xoşniyyətli və dürüst olduqlarına inandıra biləcəklərini; şeytanla etdikləri əməkdaşlığı onlardan gizlədə biləcəklərini düşünərlər. Xüsusən də özlərinə daha gözəl əxlaqlı olmaları üçün xatırlatma edilmiş və onlar da nəfslərinə tabe olub bu mövzuda iradə göstərməmişdirlərsə, dərhal emosionallığın ardına sığınar və bu yolla özlərini təmizə çıxartmağa çalışarlar. Öz aləmlərində qarşılarındakı insanların göz yaşlarını gördükləri zaman, özlərinə acıma hissi dolu şəfqət duyacaqlarına inanarlar. Bu insanların bütün səmimiyyətləriylə əllərindən gələn hər şeyi etdiklərinə, lakin güclərinin bu qədərinə çatdığına qənaət gətirəcəklərini düşünərlər. Bu inanclarına görə, dilləriylə söyləyə bilməyib, nəticə ala bilmədikləri xüsuslarda, gözlərindən axan bir neçə damla su məsələni həll etmiş olacaq və qarşı tərəf tam razı salınmış olacaq.

Lakin cahil baxış prizmasıyla hərəkət edən insanlar arasında qəbul edilən bu yanlış üsul, iman gətirənlər tərəfindən qətiyyən məqbul qarşılanmaz. Belə şeytani üsulla ortaya çıxan insanların günahsızlıqlarına və xoşniyyətlərinə möminlərin qənaət gətirmələri qeyri-

mümkündür. Çünki iman gətirənlərin meyarları Quran əxlaqıdır. Quranda bir insanın səmimiyyətinə və xoşniyyətinə dəlil ola biləcəyi bildirilən xüsusiyyətlər çox fərqlidir. Səmimi bir insanın üz ifadəsi, baxışları, səs tonu, ağıllı və vicdanlı danışıqları, Quran əxlaqına dəqiqliklə tabe olması, bu insanın Allahdan qorxan bir insan olduğunun açıq şəkildə başa düşülməsinə səbəb olar.

Bu əxlaqa sahib bir insanın dürüstlüyünü, xoşniyyətini sübut edə bilmək üçün xüsusi səy göstərməsinə və xüsusi üsullar işlətməsinə ehtiyacı yoxdur. İman gətirənlər Allahın özlərinə vermiş olduğu iti ağıl, anlayış və vicdan həssaslığı sayəsində, bu insanı asanlıqla diaqnoz edə bilərlər. Buna görə də, emosionallıqdan və bunun mühüm səmimiyyətsizliklərindən biri olan ağlamaqdan, iman gətirənlərə qarşı istifadə etmək boş səydən kənara çıxa bilməz. Tam əksinə, Allah Quranda ağlamağın, qəlblərində xəstəlik və zəiflik olan münafiq xarakterli insanların bir xüsusiyyəti olduğuna işarə etmişdir.

Quranda hz. Yusifin qardaşlarının qurduqları məkrli planı, ağlama üsulu ilə ört-basdır etməyə çalışdıqlarından bəhs edilmişdir. Atalarının hz. Yusifə olan sevgisini qısqanan qardaşları bir yerə toplanaraq, öldürmək məqsədiylə onu bir quyunun dibinə buraxmağı qərara almışlar. Bu planı qurduqdan sonra ən günahsız hallarına bürünərək atalarının yanına getmişlər. "Sən onu sabah bizimlə göndər, doyunca gəzsin, oynasın. Əlbəttə ki, biz onu qoruyub himayə edərik" (Yusif surəsi, 12) deyərək, qardaşlarının yaxşılığını istədikləri və istənilən halda himayə edəcəkləri məsələsində atalarına zəmanət verməyə çalışmışlar. İcazə alıb hz. Yusifi bir quyunun dibinə buraxdıqdan sonra isə atalarının yanına, əllərində süni şəkildə qan yaxdıqları hz. Yusifə məxsus bir köynəklə və ağlayaraq gəlmişlər. Bir tərəfdən ağlayıb, digər tərəfdən də tamamilə yalanlardan ibarət olan bir hekayə uyduraraq atalarını günahsız olduqlarına inandırmağa çalışmışlar:

**"Axşamüstü atalarının yanına ağlayan vəziyyətdə gəldilər. Dedilər: "ey atamız! Həqiqət budur ki, biz getdik, yarışırdıq. Yusifi də yeməklərimizin (və ya əşyamızın) yanında qoymuşduq. Lakin onu canavar yeyib. Onsuz da, biz doğrunu söyləsək də, sən bizə inanan deyilsən. Eləcə də, üzərinə yalandan qan (yaxılmış) olan köynəyini gətirdilər..." (Yusif surəsi, 16-18)**

Hz. Yusifin qardaşları özlərini günahsız göstərəcək ən yaxşı rəftarın ağlamaq olduğunu düşünərək birlikdə ağlama təqlidi etmişlər. Göründüyü kimi ağlayaraq günahsız görünməyə çalışmaq, insanların mənfəətlərinə nail olmaq, yalanlarını ört-basdır etmək üçün işlətdikləri məlum saxtakarlıq üsuludur. Dövrümüzdən yüzlərlə il əvvəl olduğu kimi bu gün də eyni xəstəlikli məntiqlə, planlı şəkildə işlədilən şeytani bir üsuldur.

İman gətirənlər arasında belə bir üsulun müvəffəqiyyət qazanması heç vaxt mümkün olmaz. Müsəlmanlar təkcə Allaha tam təvəkkül edən, hər hadisənin Allahın təyin etdiyi tale əsasında baş verdiyini bilən, Allaha itaətkar olan insanlara qarşı həqiqi mənada mərhəmət bəsləyərlər. Allah qorxusundan ötrü gücləri çatdığı qədər gözəl əxlaqlı olmaq üçün səy göstərən insanlara qarşı həqiqi sevgi bəsləyər və bu insanların sözlərinə güvənərlər.

## Allah qorxusundan ötrü ağladıqlarını iddia etmələri

Quranda təkcə Allah qorxusundan ötrü ağlamağın rəhmani rəftar olduğu bildirilmişdir. Allah; "...Onlara Rəhman (olan Allah)ın ayələri oxunduğu zaman, ağlayaraq səcdəyə qapanarlar" (Məryəm surəsi, 58) ayəsiylə peyğəmbərlərin üstün əxlaqından və imani dərinliklərindən təriflə bəhs etmişdir. Allah digər bir ayədə, imana təslim olmalarından ötrü gözləri yaşla dolan insanların əxlaqını belə xəbər verir:

**Elçiyə nazil ediləni dinlədikləri zaman, haqqı bildiklərindən ötrü gözlərinin yaşla dolduğunu görərsən... (Maidə surəsi, 83)**

Əvvəlki sətirlərdə qeyd edildiyi kimi, emosionallığın və bundan qaynaqlanan ağlamalı rəftarın isə Quran əxlaqında qətiyyən yeri yoxdur. Şeytani xülyaların özlərinə verdiyi bədbin ruh halının təsiriylə emosional vəziyyət alan bu insanlar, ağlamaqdan çox vaxt bu səmimiyyətsizliklərini ört-basdır etmək üçün istifadə edərlər. Özlərinə bu rəftarlarının yanlışlığı və Quran əxlaqına qətiyyən uyğun gəlmədiyi xatırladıldığı zaman isə, bundan dərhal imtina edib müsəlmana yaraşan rəftar göstərmək əvəzinə ümumiyyətlə həlli digər bir səmimiyyətsizlikdə axtararlar. Doğrunu görmələrini və Quran əxlaqına uyğun hərəkət etmələrini istəməyən şeytan onlara yenə sübut edilməsinin mümkün olmadığını düşündüyü "qəlblərini" dəlil göstərmələrini ilham edər.

Bu insanlara ağlamağın müsəlmana yaraşan rəftar olmadığı xatırladıldığı zaman, bəzən onlar da; "əslində çox fərqli bir səbəbdən ötrü ağladıqlarını, lakin bunu ifadə etmələrinin düzgün olmayacağını" söyləyərək üstüörtülü şəkildə özlərini təmizə çıxartmağa çalışa bilərlər. Sanki səmimiyyətlərindən və ixlaslarından ötrü, ağlamalarının səbəbini heç söyləmək istəmirlərmiş kimi təəssürat verməyə çalışarlar. Özlərinə bir müddət israr edildikdən sonra isə əslində; "Allah qorxusundan ötrü ağladıqlarını" söyləyərlər. Yanlış rəftar göstərdiklərini gördükləri və bu rəftarlarının axirətdə böyük əzabla qarşılıq tapa biləcəyini düşündükləri üçün peşmanlıqlarından ötrü ağladıqlarını iddia edərlər.

Halbuki bu söylədiklərinin doğru olmadığını, səmimiyyətsizliklərini gizlətmək üçün yalan söylədiklərini özləri də bilirlər. Şeytani məntiqlə, etdikləri saxtakar çıxarışlarla pis əxlaqlarını Quran ayələrinə əsaslandıraraq qanuniləşdirməyə çalışarlar. Lakin bütün tələlər kimi bu da puç olur. Çünki şeytanın və ona tabe olanların bütün bu hiyləli sözləri söyləyərkən görməzlikdən gəldikləri mühüm bir həqiqət var: həqiqətən Allahdan içi titrəyərək qorxan bir insanın xüsusiyyəti, bu qorxunun gücü ilə yanlış rəftarından dərhal imtina etməsidir. Bir tərəfdən ağlayıb, digər tərəfdən də səmimiyyətsizliklərinə var gücüylə davam etməsi, bu insanın Allah qorxusundan ağlamadığını və dürüst rəftar göstərmədiyini dərhal ortaya çıxardar. Allah Quranda həqiqi Allah qorxusunda insanların necə əzmkarlıq və qətiyyət içərisində olacaqlarını belə bir nümunə ilə bildirmişdir:

Fironun xidməti altındakı sehrbazlar onun bütün işgəncələrinə, təhdidlərinə baxmayaraq, hz. Musanın təbliğinə tabe olmuş və Allah qorxusundan ötrü dözülməz işgəncələr içərisində ölməyi gözə alaraq dərhal iman gətirmişlər. Quranda bu insanların qətiyyətli rəftarları belə xəbər verilmişdir:

**Dedilər: "Bizə gələn açıq-aydın dəlillər və bizi Yaradan qarşısında səni əsla "seçmərik". Harada hökmünü yeridə biləcəksənsə, dayanmadan hökmünü yerit; sən, təkcə bu dünyada hökmünü yeridə bilərsən". (Taha surəsi, 72)**

Onların bu əxlaqı, həqiqi Allah qorxusunda insanın yanlış bir rəftarı necə dərhal tərk edib doğruya təslim olacağını açıq şəkildə göstərir. Dolayısilə şeytanın təsiriylə səmimiyyətsiz üsula əl atan insanların da əsil etmələri lazım olan, bunu yenə səmimiyyətsiz yalanlarla qanuniləşdirməyə çalışmaq deyil, Allahın bağışlayıcılığına sığınıb, Onun razı olacağı əxlaqı göstərməyə çalışmaq olmalıdır.

## Emosionallığın ağlamadan əvvəlki mərhələlərində işlədilən səssiz dil

Şeytanın təlqinləriylə emosionallıqdan səmimiyyətsiz dil kimi istifadə edən insanlar, ağlama hərəkətinə keçə bilmək üçün, əvvəlcə ruh hallarını bu hərəkətə uyğun vəziyyətə gətirməlidirlər. Öz şeytani məntiqlərinə görə; "...bunun üçün elə bir hazırlıq görməlidirlər ki, yanlarındakı insanlar bu əlamətləri görə bilməli və bunlara əsaslanaraq qarşı tərəfin vermək istədiyi mesajları başa düşə bilməlidirlər. Lakin bu hərəkətlər də ən azı ağlama hərəkəti qədər təsirli olmalı, mühitdə ciddi gərginlik yaratmalı, insanın həqiqətən haqlı çıxmaq üçün hər şeyi gözə aldığını yaxşı ifadə edə bilməlidir..." Əlbəttə ki, bu düşüncə, həmin bu

insanların irəli sürdükləri səmimiyyətsiz məntiqlərdən yalnız biridir. İstifadə etdikləri üsullar, səssiz dillə verməyə çalışdıqları mesajlar, içərisində olduqları vəziyyətin şərtlərinə görə dəyişə bilər.

Göründüyü kimi, ilk baxışda olduqca adi bir davranış pozuntusu kimi görülən emosionallıq, çox təfsilatlı və hiyləgər planlara əsaslanan şəkildə yaşanır. Bu ruh halı içərisində edilən hər rəftar bilərək və əvvəlcədən müəyyənləşdirilmiş hədəfə istiqamətli şəkildə həyata keçirilir. Şeytanın, özünə dost tutduğu insanlara öyrətdiyi bu mesaj məzmunlu rəftarlar, bu insanların nəfslərini təmizə çıxarda bilmək üçün etdikləri danışıqlarla özünü bəlli edər. Bunlardan bəzilərini; "müdafiə üsulları" və "cavab formaları" olaraq iki ayrı başlıq altında belə sadalaya bilərik:

## Müdafiə üsulları

Bu insanların özlərini maraqlandıran və ya nəfslərinə toxunan mövzulardakı yanaşma tərzləri ümumiyyətlə qarşı tərəfi ittihamedici xüsusiyyətdədir. Emosional ruh halına girə bilmələri və sonra da istədikləri kimi ağlaya bilmələri üçün, qarşı tərəfin səhvə yol verdiyinə özlərini inandıra bilməlidirlər. Bunun üçün saxta dəlillər meydana gətirə bilmək və özlərinə bunların həqiqət olduğunu təlqin edərək bu yöndə güclü qənaət əldə edə bilmək istəyərlər. Şeytanın köməyi ilə qarşılarına çıxan hər fürsətdə bu axtarışlarını hiyləgərcə vurğulayacaq danışıqlar edərək nəfslərini bu istiqamətdə gücləndirərlər.

Bunun tam əksinə özlərini haqlı olduqlarına inandıra biləcəkləri dəlillərə də ehtiyac duyarlar. Bu yöndə özlərini nə qədər inandırmağı bacarsalar, emosionallığı bir o qədər həqiqi şəkildə yaşaya biləcəklər, dolayısilə öz aləmlərində bu oyunun ətraflarındakı insanlar üzərindəki təsiri və inandırıcılığı da öz ağıllarınca o qədər artacaq.

Göstərdikləri davranış pozuntularında inadkar qətiyyət göstərərək, qarşı tərəfi geri addım atdırmağa çalışarlar. Bununla qarşılarına məqsəd qoyduqları da, ümumiyyətlə yenə özlərini ağlaya biləcək ruh halına hazırlaya bilməkdir. Əvvəlcə çox inadkar rəftar göstərəcək, deyilənləri anlamazlıqdan gələcək, sonra da haqsız yerə üzərlərinə gəlindiyini iddia edərək özlərinə ağlaya biləcəkləri bəhanə yarada biləcəklər.

Deyilənləri xüsusilə anlaya bilmirmiş kimi edərək, təkrar-təkrar dedirtdirəcək, bir-birindən fərqli izahlar və həllər istəyəcək, sonra da məsələnin həllinin çox çətin və mürəkkəb olduğunu irəli sürərək özlərinə acımağa başlaya biləcəklər.

Danışa bilməmə təqlidi edərək, əvvəli axırı bir-birini tutmayan, nə deyilmək istənildiyi aydın olmayan, məntiqsiz cümlələr quracaq, daha sonra da bu ürək ağrıdan hallarından ötrü

kədərlənib ağlaya biləcəklər. Cümlələr o qədər uzun və mənasızdır ki, qarşı tərəfdəki insanlar cümlə sona çatdıqda əvvəlini unudarlar. Hikmətsizliyindən narahatlıq duyarlar. "Ya da", "yəni", "amma", "çünki", "məsələn" və bunlar kimi daha bir çox bağlayıcının ardıcıl işlədildiyi və heç cür bitməyən cümlələrin tezliklə nəticələnməsini gözləyərlər.

Bəzən başa salmaq çətinliyi çəkən insanlarda olduğu kimi, sözlər və cümlələr ağızdan qırıq-qırıq çıxardılar. Əslində isə bu qarşı tərəfə; "bu vəziyyətdən o qədər mütəəssir olub ki, deyəcəyi sözləri səhv salır, düzgün danışa bilmir..." dedirtmək və insanın özünə acıya bilməsini təmin etmək üçün işlədilən müdafiə formasıdır.

Nəfslərini müdafiə edə bilmək üçün işlətdikləri üslub, sanki necə danışılacağını, necə gözəl cavab veriləcəyini bilməyən cahil bir insanınkı kimidir. Nə qədər mədəni və yüksək təhsil almış olsalar da, özlərinə toxunan ən kiçik bir məsələ olduqda asanlıqla sadə üsullara müraciət edərək əsilzadəlikdən uzaqlaşa bilərlər.

Boğuq və qulağı narahat edən səslə, qeyri-səlis və məntiqsizliklə dolu cümlələr quraraq, səslərini titrətməklə danışaraq, ağlama hərəkəti üçün ilkin hazırlıq görmüş olarlar.

## Cavab formaları

Danışıqları olduqca uzun və mürəkkəb cümlələrdən ibarətdir. Səmimi və təbii danışılmadığından ötrü, deyilənləri anlaya bilmək üçün xüsusi diqqət sərf etmək lazımdır.

Verilən cavablar ümumiyyətlə verilən sualın cavabı olmaz. Bunun səbəbi də yenə qarşı tərəfin narahat və mənfi rəftar içərisində olduğunun anlaşıla bilməsidir. Həmçinin dəqiq və açıq cavablar vermək, bu insanların səmimi olmalarını tələb edəcək, onları bu emosional və sirrli auradan uzaqlaşdıracaq. Əldə etməyə çalışdıqları bu görünüşü zədələməmək üçün səmimiyyətsiz ruh hallarına uyğun, ötəri cavablar verərlər.

Özlərinə verilən suallara verdikləri cavablarda işlətdikləri digər gizli üsul da bəzən tamamilə eşitməmiş kimi heç cavab verməmələri, bəzən də xüsusi mimikalarla bu cavabı mümkün qədər gecikdirmələridir. Bu da istədikləri melanxolik, problemli və içinə qapanmış ruh halını əldə edə bilmələrinə və ya qoruya bilmələrinə istiqamətli tədbirlərdən biridir.

Hərdənbir hiyləgərcə araya gizlənmiş şəkildə tərs və davakar üslubdan istifadə edərlər. Bu da yenə ağlayıb, davranışlarını qanuni göstərə biləcəkləri bir mühit yarada bilmək üçün tətbiq etdikləri xüsusi üsullardan biridir. Bu yolla həm qarşı tərəfə gərgin ruh halı içərisində olduqlarını hiss etdirə biləcək, həm də özlərini haqsızlığa uğrama psixologiyasına daxil edib bir müddət sonra üzərlərində yaranan həssaslıq nəticəsində da ağlamağı bacara biləcəklər.

Verdikləri cavablarda qarşı tərəfə bəslədikləri sevgilərini və hörmətlərini gizlətməyə, hətta sanki tam əks baxış prizmasına sahiblərmiş kimi görünüş formalaşdırmağa diqqət

yetirərlər. Çünki əgər sevgilərini və hörmətlərini göstərsələr, dostcasına bir mühit yaranacaq, emosional vəziyyətə gələ biləcəkləri bir bəhanə tapa bilməyəcək və ağlamağa güc yetirə bilməyəcəklər.

İşlətdikləri səs tonunun hüznlü, mümkün qədər batıq, sıxıcı olmasına diqqət yetirərlər. Hərdənbir bu sıxıcı danışıqda, səslərini, çox nəzərə çarpmayacaq, lakin tərs bir şeylər olduğunun da aydın ola biləcəyi kimi yüksəldərlər. Bu səs tonu da, yenə daha sonra gələn ağlamadan əvvəlki və ağlamadan sonrakı mərhələlərdə göstəriləcək əxlaqın ruh halına uyğun zəmin hazırlamağı qarşıya məqsəd qoyur.

## Gizlicə kədərlənmələri və içinə qapalı şəxsiyyət göstərmələri

Heç bir insan canını yandıracaq, kədərlənməsinə səbəb olub ruhunu bədbinləşdirəcək bir mühit içində olmağı istəməz. Lakin şeytan, zəif xarakterli insanlara nəfslərinin zəif xüsuslarından yanaşar. Təlqinini, insan nəfsinin ən xəstəlikli yönlərindən biri olan haqsızlığa uğrama psixologiyası üzərindən edər. Bütün məntiqini bu fikir üzərində qurar və öncədən verdiyi əsassız, lakin inandırıcı nümunələrlə insanı gərgin və emosional ruh halına sürükləyər. Verdiyi bütün dəlillər şeytani bir şərhin, həmişə mənfi düşünən beynin məhsullarıdır. Lakin şeytan üzərini qabıq kimi elə bürüyər ki, artıq bu insan onun hər pıçıltısından təsirlənməyə başlayar. Şeytanın verdiyi fikirlərlə öz haqqını qoruya biləcəyinə inanar. Hamısını olduqca məntiqli hesab edər. Quranın bir ayəsində şeytanın zəif xarakterli insanlara təsir etmə üsulu belə bildirilir:

**"Biz onlara bəzi yaxın kəsləri, “qabıq kimi üstlərinə bağlatdıq”, onlar da, önlərində və arxalarında olanları özlərinə gözəl göstərdilər..." (Fussilət surəsi, 25)**

Bu mərhələyə gəlmiş bir insanın artıq ağlamaqdan, içinə qapalı ruh halına girməkdən çəkinməsi də qalmaz. Ağlamağın verəcəyi melanxolik, əsrarəngiz, anlaşıla bilməz insan təəssüratı olduqca cəlbedici gəlməyə başlayar. Sağlam ağla sahib bir insanın şiddətlə çəkinəcəyi bu ruh halı, şeytani düşüncələrin təsir etdiyi bu insana, diqqət çəkmək baxımından da çox cəlbedici gəlməyə başlayar. Həmçinin belə bir insanın dəyişməsi üçün üzərinə düşülməsi, maraqlanılması lazım olacaq. Başa düşülməsini təmin etmək, nə üçün belə davrandığını anlamaq üçün digər insanlardan daha çox diqqət və maraq göstərilməsi lazım olacaq. Maraqlanılan insan olmaq nəfsini məmnun edəcək, o da bu vəziyyətin daha uzun davam etməsi üçün oyununa davam edəcək.

Halbuki bu vəziyyət tamamilə şeytanın təşviqi ilə, içinə düşülən ürküdücü vəziyyətdir. Çünki sağlam düşünən heç bir insan öz azad iradəsi ilə belə ruh halını yaşamağı seçməz. Allah ayəsində iman gətirib Quran hökmlərinə tabe olanlar üçün qorxu və kədər olmayacağını bildirir:

**"Dedik: "Hamınız oradan enin. Bundan sonra sizə Mənim tərəfimdən hidayət gəldikdə, kim Mənim hidayətimə tabe olsa, onlara qorxu yoxdur və onlar kədərlənməyəcəklər". (Bəqərə surəsi, 38)**

## Şeytanın təsiri altındakı insanların gizli ağlama üsulları

Emosionallığı insanlara mühüm səmimiyyətsizlik vasitəsi kimi işlətməyi öyrədən şeytan, onlara bu məsələnin bütün incəliklərini və gizli üsullarını da göstərər. Başda da ifadə etdiyimiz kimi, emosionallığın kənara əks etdirildiyi çox müxtəlif davranış pozuntuları var. Ağlamaq, bunlar arasında ən açıq şəkildə tətbiq olunan və ən yaxşı bilinənlərindən biridir. Lakin bundan savayı şeytanın insanlara öyrətdiyi bəzi gizli ağlama və acındırma üsulları da var. Yaşadıqları bu neqativ ruh halından, ətraflarındakı insanlara qarşı bəzi mesajlar verə bilmək üçün istifadə edən insanlar əllərindəki bu şeytani imkanları qiymətləndirərkən olduqca diqqətli davranarlar. Bu səmimiyyətsiz üsulların hər biri bu insanlara görə ayrı təsir gücünə malikdir. Bu fürsətlərin hamısından bir anda itsifadə edib qurtarmaq istəməz, şeytanın hiyləgər planları əsasında hədəflərinə istiqamətli şəkildə ən yaxşı şəkildə istifadə etmək istəyərlər. Buna görə də, ağlamağı ən son fürsətləri kimi görər və ağlamadan əvvəl formalaşan digər mərhələlərdən tək-tək əks-hücum kimi istifadə edərlər.

Bu hücumların başında da; "səs titrəməsi və müxtəlif ağlama mimikaları" gələr. Səsini titrədən bir insan əslində qarşı tərəfə təhlükənin yaxınlaşdığını şeytanın səssiz diliylə hiyləgərcə xəbər verir. Bir neçə söz daha deyildiyi təqdirdə ağlama səsinə çevriləcək titrək səs tonu, aşağı doğru büzülmüş, idarəli şəkildə titrədilən dodaqlarla bu ilk mərhələ müvəffəqiyyətlə icra edilir. Bütün bunlar nəticəsində əgər geri addım atılmasa, haqlı olduqları qəbul edilməsə, qısa müddət sonra ağlama hərəkətinin icra ediləcəyi izah edilir. İnsanın bununla qarşıya məqsəd qoyduğu; “bu vəziyyətə meydan verməmək üçün həmin anda istədiyi hər şeyin edilməsi, nəfsinin şərəfləndirilərək özünün çox haqlı, qarşı tərəfinsə tamamilə haqsız olduğunun ifadə edilməsini təmin etməkdir. Öz şeytani məntiqinə görə; ona qarşı böyük haqsızlıq edildiyinin, haqqının tapdalandığının qaneedici nümunələr əsasında ona sübut edilməsi vacibdir. Onu əslində inanılmasa da tərifləmək, nə qədər

günahsız və yaxşı insan olduğunu bu hərəkətiylə daha da yaxşı sübut etdiyini ifadə etmək lazımdır. Təkcə bu təqdirdə bu hərəkətin uzanmadan qarşısı alınacaq".

Halbuki iman gətirən bir insan, bütün bunların, çox sadə düşünən, Allahın hər şeydən xəbərdar olduğunu unudan bir insanın hiyləgər bir oyunu olduğunu dərhal anlayar. Ona, nəfsinin çox pis bir oyun içində olduğunu və özünü alçaltmaq istədiyini xatırladar. Hərəkətinə, hələ ən başından mane olmaq üçün onun şüurunu açan sözlər söyləyər, Quran ayələrini xatırladaraq onu xəbərdar edər. Nə üçün ağlamağa başladığını soruşaraq, səbəbindəki səmimiyyətsizliyi onun öz ağzından eşitməsini təmin edər. Bu hərəkətin nəinki onu günahsız göstərmədiyini, əksinə çox alçaldıcı görünüş formalaşdırdığını, ağlama hərəkətinin təvəkkülsüz insanların zəifliyi olduğunu xatırladar. Buna baxmayaraq, hərəkətindən imtina etməyən bir insan isə bütün bunları bilərək, pis bir işə davam etməklə Allah qatında məsuliyyət yüklənmiş olar.

Səsini titrədərək və müxtəlif ağız mimikaları edərək istədiyini əldə edə bilməyən bir insan əlindəki ikinci fürsətdən istifadə etməyə başlayar. Bu isə ağlamağa bir az daha yaxın bir görünüş ortaya çıxardar. Bu mərhələdə artıq gözdən də istifadə edilməyə başlanar. Gözə ağlamadan əvvəl yaranan yaş və mənasız baxış hakim edilər. Dalğın baxışlarla qarşıdakı insanların gözləriylə əlaqə yaradılaraq onlara daha dərindən təsir etmək üçün səy göstərilər. Səs isə artıq tam tormozlanmışdır. Ətrafındakılara son mərhələyə çox yaxınlaşıldığını ifadə etmək üçün suallar kəsik-kəsik, mənasız və titrək sözlərlə cavablandırılır; çarəsizlik mümkün qədər vurğulanmağa çalışılır. İnsan heç güzəştə getmədən özünə acınmasını gözləyir və şeytani mərhəmət axtarışı ilə bu oyunu davam etdirir. Emosional baxışları və kəsik cümlələri fəaliyyətə keçirərək hərəkətini daha da şiddətləndirir. Səs çox zəif çıxır, ifadələr mümkün qədər aciz, zavallılığını vurğulayacaq şəkildə seçilir.

Halbuki müsəlmanın həyatında heç vaxt aciz qalmağı özünə yaraşdıracağı, çarəsizliyi qəbul edəcəyi bir an olmaz. İstənilən şərtdə gücünü və etibarını Allahdan alan, olduqca ağıllı, çıxış yolu gətirən xarakter nümayiş etdirər. Qarşısına çıxan heç bir maneə və ya özündən gözlənilən heç bir şey, onda ruh düşkünlüyü yaratmaz. Allahın hər hadisəni mütləq həlli ilə birlikdə yaratdığını bilərək imanın özünə qazandırdığı güclü xarakterə uyğun rəftar göstərər. Quranda; "tənbəllik etməyin və kədərlənməyin əgər (həqiqətən) iman gətirmisinizsə ən üstün olan sizsiniz" (Ali İmran surəsi, 139) ayəsiylə bildirildiyi kimi, Allaha təvəkkül edən bir insanın Rəbbimizin icazəsi ilə hər işin üstəsindən gələ biləcəyini bilər.

Səmimi imanın insana qazandıracağı bu mənəvi gücdən məhrum olan insanlar isə iradəsizlikləri içərisində tərəddüd edərlər. Diqqətlərini yönəltdikləri və iradə göstərdikləri mövzular yalnız səmimiyyətsiz hədəflərindən ibarətdir. Bu məqsədlə işlətdikləri gizli ağlama üsullarıyla (səs titrətmək və ağız mimikalarından istifadə etmək) verdikləri hiyləgər mesajların istədikləri şəkildə təsir göstərmədiyini gördükləri zaman, öz yanlış inanclarına görə ediləcək tək şey qalmışdır: "ağlamaq".

Bu mərhələ bütün ön mərhələlərin işə yaramadığı vəziyyətlərdə sürətlə icra olunar. Səs tamamilə dayanar, danışıq kəsilər. İstədiyini əldə edə bilməzsə bol-bol ağlayar. İstədiyi şeyləri bu mərhələdə eşidə bilməzsə bu dəfə ağlaması daha da güclənər. İnsan haqlı çıxmaq naminə bu cür alçaldıcı və demək olar ki, qeyri-insani görünüş göstərməyi heç çəkinmədən gözə alar. Nəfsini qurtarmaq naminə bütün insani xüsusiyyətlərini itirmiş biri kimi davranmaqdan da çəkinməz. Allah Quranda nəfsinə uyaraq özünü ucaltmaq və insanların gözündə haqlı çıxartmaq ardınca gedən belə insanların məqsədlərinin əksinə alçaldılacaqlarını belə bildirir:

**Əgər Biz istəsəydik, onu bununla ucaldardıq. Lakin o yerə meyl etdi (və ya yerə batdı), nəfsinə uydu. Onun vəziyyəti, üstünə getsən dilini çıxardıb ləhləyən, təkbaşına qoysan dilini çıxardıb ləhləyən itin vəziyyəti kimidir. Məhz ayələrimizi yalan sayan cəmiyyətin vəziyyəti belədir. Artıq həqiqi xəbəri onlara çatdır ki, düşünsünlər. (Əraf surəsi, 176)**

Şeytanı özlərinə dost tutan insanlar barədə bura qədər deyilənlərin göstərdiyi çox aydın bir həqiqət var: bu insanlar ağlamaqla hiyləgər hərəkət göstərirlər. Bunun ən mühüm dəlillərindən biri bu insanların istədikləri anda, bu xarakterdən xilas olub fərqli xarakter göstərmələridir. Özləriylə eyni pis əxlaqı göstərən insanların yanlarına getdikləri vaxt, olduqca aktiv və danışqan xarakter göstərərlər. Açılmaqda, təbii baxıb danışmaqda heç çətinlik çəkməzlər. Əsla ağlamalı ruh halları da olmaz. Əksinə həmişə gülən, şən, rahat, ünsiyyətcil (ekstrovert) rəftar içindədirlər. Allah bu insanların vəziyyətini Quranda belə bildirir:

**Həqiqətən, “cinayət və günah işləyənlər”, bəzi iman gətirənlərə gülərdilər. Yanlarına çatdıqları zaman, bir-birlərinə qaş-göz edərdilər. Öz yaxınlarına qayıtdıqları zaman sevinclə qayıdardılar. (Mutaffifin surəsi, 29-31)**

Lakin göstərdikləri bu səmimiyyətsiz əxlaq həm dünya həyatında, həm də axirətdə bu insanlar üçün böyük əzaba çevrilir.

## Emosionallıqdan gizli mübarizə üsulu kimi istifadə edənlər öz tələlərinə özləri düşürlər

Bu hissənin əvvəlindən bəri qeyd edilənlər, emosionallıq və bunun özü ilə gətirdiyi davranış pozuntularının, şeytanın hiyləli üsullarından başqa bir şey olmadığını göstərir. Burada üzərində əhəmiyyətlə dayanılması lazım olan mövzu isə, şeytanın təsiriylə belə davranış göstərməyə başlayan insanların, bir müddət sonra, bu tələyə özlərinin düşdükləridir. Allah; "...Yer üzündə təkəbbürlənərək və pisliyi təşkil edərək. Halbuki hiyləli tələ təkcə öz sahibini qaplayar..." (Fatir surəsi, 43) ayəsi ilə bu mühüm həqiqətə işarə edir.

Şeytan, bu emosional ruh halını, nəzarət altına aldığı insanların bütün həyatlarına hakim etməyə başlayar. Artıq yalnız bir üsul kimi deyil, əsil ruh halları olaraq yaşadıqları emosionallıq, bu insanları, hər an şeytanın gizli səmimiyyətsizliklərinə və pisliklərinə qapılmağa açıq hala gətirər. Daha da əhəmiyyətlisi Quran əxlaqına tamamilə zidd düşüncə tərzi olan emosionallıq, yavaş-yavaş həqiqi imandan və Allahın razı olacağı əxlaqdan uzaqlaşmalarına səbəb olar. Əvvəllər üsul kimi sığındıqları ağlamalı hal, bu insanların həyatlarının böyük hissəsini əhatə edər. Qarşılaşdıqları hər hadisəni, eşitdikləri hər sözü emosional baxış prizması ilə qiymətləndirmələrindən ötrü tez-tez kədərlənib, hüznlü və içlərinə qapalı rəftar göstərərlər. Allah Quranda ağlamağın, insanların etdikləri pis hərəkətlərin, qurduqları məkrli planların cəzası olaraq həyatlarına hakim olduğunu belə bildirir:

**Elə isə qazandıqlarının cəzası olaraq az gülüb çox ağlasınlar. (Tövbə surəsi, 82)**

İnsanlar arasında bir cəza kimi qiymətləndirilməyən ağlama, əslində Allahın təvəkkül edə bilməyən, nəfslərini qurtarmaq naminə hiyləgər hərəkətlər planlaşdıran insanlara verdiyi çox mühüm qarşılıqdır. Çünki ağlayan bir insan hər şeydən əvvəl heç xoşbəxt deyil; olduqca bədbindir. Ümidsizliyə qapılmış, ağlı qapanmışdır. Doğrunu və yanlışı ayırd edə bilmir, özünə zərər verdiyini bilə-bilə belə ruh halı içində yaşayır. Allah qarşılıq olaraq bu insanların həyatına hüznü və kədəri hakim etmişdir. Dünyanın ən gözəl nemətləri belə sevinmələrinə kifayət etmir, gözəlliklərdən heç bir dad ala bilmir, təkcə öz problemlərini, dərdlərini düşünə bilirlər. Eləcə də, həlli əslində olduqca asan olan bu dərdlərinin əsla bitməyəcəyinə inanmış olmalarının gətirdiyi dərin kədər hissini yaşayırlar. Belə bir insan şeytana uyduğunu görür, onun özünə düşmən olduğunu, onu ziyana və oda sürüklədiyini anlayır, lakin ona müqavimət göstərəcək gücü özündə tapa bilmir. Bütün iradəsini və gücünü şeytana təslim etmiş kimidir.

Əslində, bütün bunlara istədiyi anda son qoymaq tamamilə öz əlindədir. Lakin Quranı özünə rəhbər tutmadığı, Allahın göstərdiyi yolla lazımınca getmədiyi üçün çıxış yolu tapa bilmir. Bu əxlaqını davam etdirdiyi təqdirdə axirətdə də özünü çox çətin bir həyatın gözlədiyini, yaşadığı bədbəxtliyin, hüzn və kədərin orada son həddə çatacağını, və şeytana müqavimət göstərmədiyi üçün sonsuza qədər çox böyük peşmançılıq içərisində

yaşayacağını da bilir. Lakin vicdanın bütün bu xəbərdarlıqlarına baxmayaraq, Allah qorxusunun kifayət qədər güclü olmamasından ötrü bu ruh halından xilas olacaq gücü özündə tapa bilmir.

Səmimi olmağa qərar verib nəfsini müdafiə etməkdən imtina etmədiyi təqdirdə də Allahın razı olacağı əxlaqa nail ola bilməyəcək. Nəfsini qorumaq naminə asiliyi və üsyankarlığı gözə alması onu bədən və ruhi cəhətdən məhvə sürükləyəcək. Bu məhv, bir çox əlamətlə özünü göstərəcək. Əvvəllər üsul kimi işlətdiyi ağlama üsulu onu qaplayacaq, hər şeydən ötrü ağlayan, qeyri-sabit insana çevriləcək. Həmişə bədbin, neqativ, narahat həyatı olacaq, hər gününü yaşayacağı yeni kədərləri gözləyərək qorxu və hüzn içində keçirəcək. Əxlaqını, Quranda bildirilən gözəl əxlaq meyarları əsasında dəyişdirməkdə müqavimət göstərdikcə məhvin ölçülərinin arta biləcəyini bilərək yaşayacaq.

Halbuki bu vəziyyətdən xilas olmaq çox asandır. Allah Quranda əgər özlərinə verilən öyüdə əməl etsələr bu insanları dosdoğru yola və xeyirə yönəldəcəyini bildirmişdir:

**...Onlar özlərinə verilən öyüdə əməl etsəydilər, şübhəsiz ki, bu, onlar üçün xeyirli və daha mükəmməl olardı. Biz də onlara, bu təqdirdə yanımızdan böyük mükafat verərdik. Həmçinin onları mütləq dosdoğru yola yönəldərdik. (Nisa surəsi, 66-68)**

# Haqsızlığa uğradıqları iddiası ilə ortaya çıxanlar

Şeytanın hiyləgər və səssiz dili, bəzən günahsız, bəzən də olduqca neqativ və gərgin, laqeyd, soyuq və məsafəli, ümidini kəsmiş, təvəkkülsüz, xırçın və təkəbbürlü xarakter ilə özünü göstərir. Lakin bunlar və bənzəri digər şeytani xarakterlərin ən mühüm ortaq xüsusiyyətlərindən biri; "haqsızlığa uğrama iddiası"dır. İlk dəfə bu iddia ilə ortaya çıxan isə yenə şeytan olmuşdur. Quran ayələrində şeytanın haqsızlığa uğrama məntiqi ilə ortaya çıxdığı və bu iddia ilə Allahın əmrinə itaətsizlik etdiyi görünür. Quranda şeytanın bu vəziyyəti belə bildirilir:

**"And olsun, Biz sizi yaratdıq, sonra sizə surət (biçim-forma) verdik, sonra da mələklərə: "Adəmə səcdə edin" dedik. İblisdən başqa hamısı səcdə etdi; o, səcdə edənlərdən olmadı. (Allah) dedi: "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" (İblis) dedi: "<u>Mən ondan xeyirliyəm; məni oddan, onu isə palçıqdan yaratdın</u>". (Allah:) "O zaman ordan en, orda təkəbbürlənmək sənin (haqqın) olmaz. Dərhal çıx. Həqiqətən sən alçaldılanlardansan". (Əraf surəsi, 11-13)**

Şeytan, Allahın, hz. Adəmə səcdə etmək əmrinə qarşı çıxmış və "...mən, quru və şəkil almış palçıqdan yaradılan bəşərə səcdə etmək üçün var olmamışam" (Hicr surəsi, 33) deyərək, "özünün hz. Adəmdən daha üstün olduğu"nu irəli sürmüşdür. Öz məntiqiylə yanlış bir çıxarış etmiş və haqsızlığa uğradığını düşünərək üsyan etmişdir (Allahı tənzih edirik). Öz yanlış meyarlarına görə öz yaradılış vəsaiti olan od, insanın yaradılış vəsaiti olan palçıqdan olduqca xeyirlidir. Belə üstün yaradılışa sahib olduğu halda, insana səcdə etməsi, onun meyarlarına ziddir. Bu azğın və üsyankar əxlaqından ötrü qürurlanmış və Allahın əmrinə itaət etməmişdir. Bir ayədə; "və mələklərə: "Adəmə səcdə edin" dedik. İblisdən başqa (hamısı) səcdə etdilər. O isə, dilə inad etdi və qürurlandı, (beləcə) kafirlərdən oldu" (Bəqərə surəsi, 34) sözləriylə bildirildiyi kimi, qürurdan qaynaqlanan bu azğın məntiqi onu inkara sürükləmişdir.

Bu vəziyyət bizə haqsızlığa uğrama psixologiyasının nə qədər təhlükəli və nə qədər şeytani düşüncə forması olduğunu açıqca göstərir. Din əxlaqına qətiyyən uyğun gəlməyən haqsızlığa uğrama iddiası, insanları Allaha üsyan etməyə (Allahı tənzih edirik), dini inkar etməyə və bunların nəticəsində də sonsuz cəhənnəm oduna sürükləyə biləcək düşüncədir.

Bu davranış pozuntusunun insanlarda meydanaçıxma forması isə çox müxtəlifdir. Şeytan bəzi insanlarda haqsızlığa uğrama düşüncəsini elə dərin inanc halına gətirər ki, bu insanlar Allaha üsyan edərək inkarı seçərlər. Allaha inanan, Allahın sonsuz ədalətini, hər şeyi

xeyir və hikmətlə yaratdığını bilən, lakin zəif imanlı insanlara isə, şeytan daha da hiyləgər üsullarla yaxınlaşar. Onlara, özlərini aldadıb, bu düşüncələrinin də əslində tamamilə “xoş niyyətlərindən, daha yaxşı olma istəklərindən” qaynaqlandığına inandıra biləcəkləri üsullar öyrədər. Çünki şeytan da özünü eynilə bu üsullarla razı salmışdır. Quranda şeytanın, dünya həyatında özünə verilən müddət ərzində bütün insanları Allahı inkar etməyə çağırdıqdan sonra axirətdə Allahdan qorxduğunu söylədiyi bildirilir:

**Şeytanın vəziyyəti kimi; çünki insana: "inkar et" dedi, inkar etdikdə isə: "<u>həqiqət budur ki, mən səndən uzağam. Doğrusu, Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram</u>" dedi. (Həşr surəsi, 16)**

Quranda verilən bu məlumat, din əleyhinə göstərdiyi o qədər səyə, qınanıb lənətlənərək cənnətdən qovulmasına baxmayaraq, şeytanın da özünü Allahdan qorxan biri kimi qiymətləndirdiyini göstərir. Şeytanın insanlara oynadığı oyun da məhz yenə bu düşüncəni əsas götürür. Bu insanlar da Allahdan çox qorxan, xalis niyyətli səmimi müsəlmanlar olduqlarını iddia edərlər; lakin eyni zamanda da haqsızlığa uğradıqları iddiasıyla daxilən Allahın ədalətindən şübhəyə qapılarlar (Allahı tənzih edirik). Bəzən bu fikir içlərində getdikcə böyüyərək onları kamil mənada inkara sürükləyər. Lakin buna baxmayaraq, bir tərəfdən də doğru yolda olduqlarını iddia edərlər. Lakin Allah Furqan surəsində bu insanların həqiqi dünyagörüşlərini və əxlaqlarını belə təsvir edir: "...beləliklə onlar, heç şübhəsiz ki, haqsızlıq və böhtanla gəldilər" (Furqan surəsi, 4).

Sonrakı sətirlərdə şeytanın insanlara öyrətdiyi haqsızlığa uğrama psixologiyasının hansı xəstə məntiqlərlə ortaya çıxdığına təfsilatlı şəkildə toxunacağıq. Lakin bundan əvvəl şeytanın bu əsassız iddiasının əsassızlığını Quran ayələriylə göstərəcəyik.

Allah insanlara; “<u>xurma çəyirdəyindəki çox nazik lif qədər</u>” belə haqsızlıq etməz.

İmanı bildikləri halda şeytanın “haqsızlığa uğrama” təlqinlərindən təsirlənən insanlar, bu mövzunu təkcə bir neçə dəqiqə ərzində açıq şüurla qiymətləndirsələr, şeytanın oyunundakı ziddiyyəti çox açıq şəkildə görə biləcəklər. Çünki bir insanın eyni anda həm Allahdan çox qorxması, həm də haqsızlığa uğradığını düşünə bilməsi qeyri-mümkündür. Allah qorxusu; Allaha qarşı çox dərin sevgi, səmimi bağlılıq və sədaqət deməkdir. Belə bir insan Allahı bütün üstün sifətləriylə tanıyır və bundan ötrü hansı hadisə ilə qarşılaşsa da, Allahın ən gözəlini, ən xeyirlisini yaratdığını, özünə ən ədalətli, ən mərhəmətli şəkildə qarşılıq verəcəyini bilər. Allahın, səmimi iman gətirən bir insanın ən yaxın, ən etibarlı dostu olduğundan, onu həmişə köməyi, sevgisi və lütfü ilə dəstəkləyəcəyindən əmindir. Bütün bu deyilənləri qavrayan bir insanın haqsızlığa uğraya biləcəyini düşünməsi qeyri-mümkündür. Allah, insanlara Quran ayələri ilə bu həqiqəti bildirmişdir. Səmimi iman gətirən bir insan

üçün Qurandakı bu açıqlamalar, şeytanın bu yöndəki təhriklərinin qarşısını almaq üçün kifayətdir. Allah Quranda üstün ədalətini və insanların ən kiçik haqsızlığa uğradılmayacaqlarını belə bildirir:

**"Həqiqət budur ki, Allah zərrə qədər haqsızlıq etməz..." (Nisa surəsi, 40)**

**Biz isə, qiyamət gününə məxsus həssas tərəzilər qoyarıq ki, artıq heç bir nəfsə heç nə ilə haqsızlıq edilməz. Bir xardal dənəsi belə olsa ona (tərəziyə) gətirərik. Haqq-hesab çəkməyə Biz kifayətik. (Ənbiya surəsi, 47)**

**...Sizə "xurma çəyirdəyindəki çox nazik lif qədər" belə haqsızlıq edilməz". (Nisa surəsi, 77)**

**...Onlar, bir "çəyirdəyin kürəyindəki tumurcuq qədər" haqsızlıq edilməz. (Nisa surəsi, 124)**

Quranın digər bir ayəsində isə Allah belə fikrə qapılan insanların qəlblərində xəstəlik və şübhə olduğuna diqqət çəkir:

**Yoxsa onların qəlbində xəstəlik var? Yoxsa şübhəyə qapıldılar? Yoxsa Allahın və Onun Elçisinin onlara haqsızlıq edəcəklərindən qorxurlar? Xeyr, onlar zalımlardır. (Nur surəsi, 50)**

Bütün bu ayələrin göstərdiyi kimi, Allahın insanlar üzərindəki sonsuz rəhmətini və lütfünü bilərək, belə haqsız rəftar göstərə bilənlər, təkcə "zalım"lardır. Bu, Allaha qarşı açıq-aydın böhtan atmaqdır ki, Quran əxlaqını bilərək belə rəftar göstərə bilən bir insanın axirətdə bu məsələdəki məsuliyyəti də eyni dərəcədə böyük olar. Necə ki, şeytanın bu yöndəki çirkin cəsarətinin qarşılığı da bundan ötrü çox böyük olmuşdur. Allah Quranda haqsızlığa uğradığını düşünərək üsyan edən şeytanın aldığı qarşılığı belə bildirmişdir:

**(Allah) dedi: "Oradan qınanıb alçaldılmış və qovulmuş halda çıx. And olsun, onlardan kim sənin ardınca getsə, cəhənnəmi sizinlə dolduracağam". (Əraf surəsi, 18)**

**"Şübhəsiz ki, din (qiyamətdəki haqq-hesab) gününə qədər Lənətim sənin üzərindədir". (Sad surəsi, 78)**

**(Allah:) "O zaman oradan en, orda təkəbbürlənmək sənin (haqqın) olmaz. Dərhal çıx. Həqiqətən sən alçaldılanlardansan". (Əraf surəsi, 13)**

## Haqsızlığa uğradıqlarını iddia edən insanların gizli səmimiyyətsizlikləri

Şeytanın öz əxlaqını qəbul etdirməyə çalışdığı insanların həyatlarına diqqətlə baxıldığı zaman, həyatlarının böyük hissəsini bu haqsızlığa uğrama ruhu içərisində keçirdikləri və göstərdikləri bir çox rəftarın arxasında həmişə bu düşüncənin olduğu görünər. Özlərini həmişə belə vəziyyət içərisində yaşadıqlarına elə inandırıblar ki, eşitdikləri hər sözü, qarşılaşdıqları hər hadisəni bu baxış prizmasıyla qiymətləndirər, heç əlaqəsi olmayan hadisələrdə belə haqsızlığa uğradıqlarını düşünüb kədərlənə biləcəkləri və əks hücumlara keçə biləcəkləri məsələlər taparlar. Allah belə insanların bu dünyagörüşlərinə; "...hər çağırışı özlərinin əleyhinə olduğunu zənn edərlər..." (Münafiqun surəsi, 4) ayəsi ilə diqqət çəkmişdir.

Çox vaxt ətraflarındakı insanların, bu kəslərin gizlicə belə düşüncəyə sahib olduqlarından xəbərləri belə olmaz. Buna görə də, heç düşünmədən bütün səmimiyyətləriylə içlərindən gəldiyi kimi davranarlar. Lakin onların bütün bu səmimi davranışları, şeytanın təsiri altında olan insanlar tərəfindən çox neqativ şəkildə şərh olunar. Sonra da həqiqətlə əlaqəsi olmayan bu şərhlərə özlərini inandırar və Quran əxlaqı ilə ziddiyyət təşkil edən ruh halına daxil olarlar. Allahın varlığını, taleyin mükəmməl işləyişini, hər şeydə xeyir və hikmət olduğunu, Allahın dünya həyatını imtahan yeri kimi yaratdığını unutduqları təqdirdə müsəlman əxlaqını lazımınca yaşaya bilməyəcəklərini düşünməzlər. Axirətdə təvəkkülsüzlüyün, Allaha etimad etməməyin, şübhəyə qapılmağın özlərinə necə məsuliyyət yükləyəcəyini, şeytana tabe olmağın insanı cəhənnəm oduna aparacağını ağıllarına gətirməzlər.

Ağıllarını məşğul edən ən mühüm düşüncə; “yaşadıqları hadisələrdə nə qədər haqlı olduqları, lakin layiq olduqlarının qarşılığını lazımınca ala bilməmiş olmaları”dır. Bu düşüncəyə elə qapılıblar ki, haqqlarını ala bilməmiş olmalarının gizli qəzəbi və haqlarını axtarma barədə gözü dönmüşləri bütün mənliklərinə hakim olmuşdur. Bu mərhələdən sonra hadisələri sağlam düşünə bilmələri, özlərinə edilən xeyirə istiqamətli çağırışları dərk etmələri elə də mümkün olmaz. Haqlı olduqlarını vurğulamaq, bu insanlar üçün böyük ehtirasa çevrilmişdir; hər fürsətdə bunu sübut edə biləcək yeni üsullara əl atarlar. Gecə-

gündüz, gördükləri hər işdə ağıllarında bu məsələ olar. Haqlı olduqları və özlərinə edilən haqsızlıqlarla əlaqədar yüzlərlə təfsilat düşünərlər. Özlərini bu əsassız düşüncələrlə elə razı salarlar ki, bənzər rəftar və ya sözlə qarşılaşdıqları zaman qəlblərində gizlətdikləri dərhal ağızlarından çölə çıxar.

Allah, şeytanla əməkdaşlıq edən bu insanların yaşadıqları ruh halını bir ayədə belə təsvir etmişdir:

**Ey iman gətirənlər, sizdən olmayanları sirdaş tutmayın. Onlar sizə pislik və zərər verməyə çalışır, sizə çətin əziyyət verəcək şeyi xoşlayarlar. Kin (və düşmənçilikləri) ağızlarından çölə çıxmışdır, qəlblərinin gizlətdiyi isə, daha böyükdür. Sizə ayələrimizi açıqladıq; bəlkə anlayasınız. (Ali İmran surəsi, 118)**

Quran əxlaqından uzaq ruh halı içərisində olan, lakin olduqca səmimi və xoşniyyətli olduqlarını iddia edən insanların bu məqsədlə göstərdikləri səmimiyyətsiz rəftarlardan və verdikləri səssiz mesajlardan bəziləri belədir:

## Özlərindən çox əmin olmalarından ötrü başqalarını bəyənməmələri

Şeytanın səssiz dilini işlədən insanların şəxsiyyətlərində ən üstün rol oynayan yönlərindən biri özlərini bəyənmələridir. Eynilə şeytanda olduğu kimi, heç kimin nail ola bilməyəcəyi bir üstünlüyə sahib olduqlarını düşünərlər. Başqalarının özlərindən üstün, hətta öz səviyyələrində belə ola bilməyəcəyinə inanarlar. Ən ağıllı insanın özləri olduğunu, heç kimin görmədiyi həqiqətləri özlərinin gördüklərini zənn edərlər. Bu azğın inancları onları həmişə qarşılarındakı insanlara ağıl öyrətməyə, yol göstərməyə sövq edər. Bu vəziyyət, şüurlarının bulanıq olduğunu, şeytanda olduğu kimi bu insanların da başqalarını kiçik hesab edib özlərini böyütməyə çalışdıqlarını göstərir. Allah bir çox ayəsində bu insanların böyüklənmədən ötrü səmimi iman gətirən insanları bəyənmədiklərini dilə gətirdiklərini bildirmişdir:

**Beləcə: "Məgər Allah içimizdən bunlara lütf etdi?" demələri üçün onlardan bəzisini bəzisiylə sınadıq... (Ənam surəsi, 53)**

**Və (yenə) özlərinə: "İnsanların iman gətirdiyi kimi siz də iman gətirin!" deyildiyi zaman: "<u>zəif ağıllıların iman gətirdikləri kimi iman gətirək</u>?" deyərlər. Bilin ki, həqiqətən əsil zəif ağıllılar özləridir, lakin bilməzlər. (Bəqərə surəsi, 13)**

Bu ayələrdən də aydın olduğu kimi, həmişə artan böyüklük hissləri, qarşılarındakı insanlar özlərindən xeyli üstün əxlaqlı olduqları halda, bu üstünlükləri təqdir edə bilmələrinə mane olar. Şeytan onlara həm səssiz dilini, həm də insanlara hiyləgərcə və qüsur axtararaq baxmağı öyrətmişdir. Buna görə də, qarşılarındakı insanların özlərindən daha üstün ağıl və vicdana sahib ola biləcəklərini heç cür qəbul etməzlər. Həmişə açıq və ya gizli üsullarıyla bu qısqanclıqlarını ifadə edərlər. Hər fürsətdə bu insanlarda səhv tapmağa çalışaraq, özlərini ucaltmağa çalışarlar. Bu məqsədlərinə nail olmaq üçün şeytani məntiqlər irəli sürməkdən, Quran əxlaqına zidd xarakterə bürünməkdən çəkinməzlər. Halbuki Allahın Quranda; "...Biz istədiyimiz kəsi dərəcə-dərəcə yüksəldirik. Hər bilik sahibindən də üstün bir bilən var" (Yusif surəsi, 76) ayəsiylə bildirdiyi kimi, insanların sahib olduqları üstünlüklər Allahın təqdiriylədir. Buna görə də, insan ətrafındakı insanların həmişə özündən daha üstün əxlaqa, daha üstün biliyə sahib ola biləcəyini bilən, təvazökar əxlaq göstərməlidir.

Bununla yanaşı, möminlər də bir-birlərinin çatışmayan cəhətlərini görər və bunları bir-birlərinə söyləyərlər. Lakin onların bu rəftarları Allahın Quran ayələri ilə iman gətirənləri, yaxşılığı əmr edib pislikdən çəkindirməklə, insanları gözəl əxlaqa dəvət etməklə məsul etmiş olmasındandır. Buna görə də, möminlər bir-birlərinin yanlış cəhətlərini dilə gətirərkən, qarşılarına, onları daha üstün əxlaqa nail edə bilməyi, daha çox seviləcək insanlar halına gətirə bilməyi məqsəd qoyarlar. Bir-birlərinin həm dünya, həm də sonsuz axirət həyatındakı xoşbəxtliyini hədəfləyərlər.

Həmin bu insanlar isə açıq axtarış gözüylə baxar və qarşılarındakı insanların səhvlərini düzəltmələrini istəməzlər. Bu çatışmazlıqları gündəmə gətirməkdəki məqsədləri təkcə özlərini böyüdə bilmək, üstünlük qazana bilməkdir. Bəzən də eyni məqsədlə insani qüsurları və ya adi davranışları səhv kimi qiymətləndirib, özlərini üstün görə bilmək üçün süni səbəblər yaratmağa çalışarlar.

## Haqsızlığa uğrama psixologiyasının gizli qəzəbini yaşamaları

Şeytan, özündən, hz. Adəmə səcdə etməsi istənildiyi zaman, bəşəriyyətə qarşı böyük qəzəbə qapılmış və cənnətdən qovulub lənətlənməsiylə birlikdə bu qəzəbini böyük

düşmənçiliyə döndərmişdir. Həmçinin qiyamətə qədər bu düşmənçiliyinin tələbini yerinə yetirəcəyinə dair and içmişdir.

Şeytanın hiyləgər dilini işlətməklə yaşayan insanlarda da şeytanınkına bənzər, lakin gizli qəzəb görünər. İnkar edənlər bu qəzəblərini inanclarıyla, həyat tərzləriylə, göstərdikləri cahil əxlaqla açıqca göstərərlər. Lakin iman gətirdiklərini söylədikləri halda qəlblərində gizli xəstəlik olan insanların vəziyyəti daha fərqlidir. Onlar belə qəzəbin haqsız qəzəb olacağını bilirlər. Çünki Quran ayələrindən, Allahın uca ədalətindən, sonsuz mərhəmətindən, insanlar üzərindəki qoruyuculuğundan xəbərdardırlar. Lakin eyni zamanda da şeytanın təsiri altındakı nəfsləri onları belə qəzəbə doğru fasiləsiz təhrik edir. Bu təhrikə qarşı çıxa bilmədikləri zaman edə bildikləri, bu qəzəbi səmimi iman sahiblərindən mümkün qədər gizlətmək olar. Bəziləri bu qəzəbi bilərək və istəyərək davam etdirdikləri kimi, bəziləri də özlərini zaman içərisində necə olsa bu qəzəbi boğacaqlarına inandırar və bunu içlərində gizlədərlər. Lakin içlərində gizlətdikləri bu qəzəb (Allaha sığınmadıqları müddətcə) müqavimət göstərilməsi çox çətin bir kinə dönər. Belə ki, onları, hər işlərində, hər düşüncələrində, hər qərarlarında yönləndirməyə və şeytanın istədiyi əxlaqa daha da yaxınlaşdırmağa başlayar. Bu qəzəbi əsil yönəltdikləri insanlar isə əslində ən güvəndikləri, ən sevdikləri və ən yaxın dostları olması lazım olan iman sahibləri olar.

Allah qorxularından ötrü olduqca gözəl əxlaq göstərən, həmişə haqqı və yaxşılığı ayaqda saxlamağa çalışan, özlərinə sevginin, hörmətin dostluğun ən gözəlini təqdim edən bu insanlara qarşı belə qəzəb duymaları üçün heç bir etibarlı səbəbləri yoxdur. Şeytanın təsirindən az da olsa xilas olduqları zaman, bu həqiqəti görür və etdiklərini qınayırlar. Lakin vicdanlarının bu xatırlatmasını nəfslərinin və şeytanın təlqinləri ilə dərhal susdurduqları üçün, belə ziddiyyətli rəftarı bilə-bilə davam etdirirlər.

O qədər üstün xüsusiyyətlərinə baxmayaraq, iman gətirənlərə qarşı qəzəb duya biləcəkləri səbəbləri onlara göstərən isə yenə şeytan olar. Bu səbəblərə qısa nəzər salındıqda, bütün bunların ortaq məxrəcinin möminlərin özlərini xeyirə çağırdıqları mövzular olduğu görünər. Şeytanın təsiri altındakı insanların gizli qəzəblərinin əsas səbəblərindən bəzilərini qısaca belə sadalaya bilərik:

İman gətirənlərin, bu insanların xəstə xarakterlərini Quran vəsiləsi ilə digər insanlardan olduqca yaxşı görüb analiz etmələri. Möminlər, gördükləri hər işdə, göstərdikləri hər rəftar və söylədikləri hər sözdə bu insanların gizlətdikləri həqiqi xarakterlərini bir az daha ortaya çıxardarlar. Bu vəziyyətdə bu insanlar daha çox dəlil verməmək üçün özlərini daha çox gizlətmək və bunun üçün də içlərinə qapanmaq məcburiyyətində qalarlar. Bu da pis əxlaqlarının üstünü açan möminlərə qarşı qəzəb duymalarına səbəb olur.

Nəfslərindəki, hər şeydə haqlı çıxma istəyinin çox güclü olmasına baxmayaraq, Allahın köməyi ilə həmişə möminlərin sözlərinin və iddialarının təsdiqlənməsi. Buna görə də,

nəfslərinin bu Quran əxlaqına zidd istəklərinə heç vaxt nail ola bilməmələri. Öz batil düşüncələrinin və şeytani məntiqlərinin darmadağın olub təsirsiz və etibarsız hala gətirilməsi.

Layiq olduqlarına inandıqları təqdiri heç cür toplaya bilməmələri. Allahın bu neməti təkcə Özünə səmimi iman gətirənlərə lütf etdiyini görüb, Quranda bildirildiyi kimi; "əsla nail ola bilməyəcəkləri böyüklük istəyinə" (Mümin surəsi, 56) qapıldıqlarını anlamaları. Bir tərəfdən bu istəkləri üçün mübarizə aparıb, digər tərəfdən də bunu heç vaxt əldə edə bilməyəcəklərini daxilən bilmələrindən qaynaqlanan böyük qəzəb duymaları.

Özlərindən daha aşağı hesab etdikləri insanların, gözəl əxlaqları və səmimiyyətlərindən ötrü təqdir toplayıb ön plana çıxmaları. Özlərinin isə həmişə bu insanların kölgəsi altında, geri planda qalmaları.

Özlərini çox bəyəndikləri üçün, hər mövzuda söz sahibi olmaq istədikləri halda, özlərindən daha aşağı hesab etdikləri (lakin əsil üstünlük sahibi olan) insanların sözlərinə tabe olmaq; onların tövsiyələrini, öyüdlərini dinləmək nəfslərinə çox ağır gələr. Həmçinin öz çatışmazlıqlarını görə bilməmiş və bunlara çıxış yolu tapa bilməmiş olmaları və buna qarşı bu insanların özlərinə yol göstərməsi də qəlblərində gizli qəzəbin yaranmasına səbəb olar.

## Haqlı çıxa bilmək və qüsurlarını gizlədə bilmək üçün başqalarının səhvlərini gündəmə gətirmələri

Şeytanın gizli dilindən istifadə edilərək deyilən sözlər, səmimi müsəlmanların görəcəyi əlamətlərlə doludur. Bu insanlar danışıqlarında, həmişə başqalarının səhvlərini gündəmə gətirərlər. Bu üsuldan istifadə edərək pis əxlaqlarını gizlətməyə çalışarlar. Şeytani dildən istifadə edən bu insanlar, öz əxlaqlarının tənqid olunduğu bir mühitdə mövzunu hədəflədikləri digər şəxslərə yönləndirərək diqqəti üzərlərindən uzaqlaşdırmaq istəyərlər. Bu yolla qarışıqlıq yaratmağa və özləriylə əlaqədar mövzunu unutdurmağa çalışarlar. Məqsəd hər zaman eynidir; haqlı çıxmaq... “Öz ağıllarınca əgər mövzu planladıqları kimi istədikləri yerdə kəsilsə və diqqət digər insana yönəlsə, bir də o insanla əlaqədar söylədikləri şey həqiqətən də yerinə düşsə bu zaman mövzunun istiqaməti dəyişəcək. Öz mövzusu unudulacaq və haqlı çıxmış olacaq...”

Bu məqsədlə ətraflarındakı hadisələrə qarşı (daha sonra bu cür vəziyyətlərlə qarşılaşdıqları zaman istifadə etmək üçün) çox diqqətli analiz etmə ehtiyacı duyarlar. Lakin bu xoşniyyətli analiz deyil, hiyləgər araşdırmadır. Kimlərin nə vaxt, nə cür səhvlər etdikləri, bunlara necə reaksiyalar verdikləri, özlərinə səhvləri qarşısında nələr deyildiyi kimi, bir çox

təfsilatı səmimiyyətsizcə yadda saxlayarlar. Vaxtı gəldikdə topladıqları bütün bu dəlilləri hiyləgərcə ortaya atıb öz yanlış düşüncələrinə görə ədalət təmin etmiş olacaqlar.

Halbuki Allahın ədaləti insanlar üzərində ən gözəl şəkildə təcəlli edər. Səmimi iman sahibləri Allahın rəhmətiylə qarşılıq görərkən, səmimiyyətsiz düşüncələrlə hiyləgər oyunlar oynayan bu insanlar isə layiq olduqları qarşılığı, həm dünyada, həm də axirətdə ən ədalətli şəkildə alarlar. Bu insanların özlərini başqaları ilə müqayisə etməklə, onların səhvlərini gündəmə gətirməklə etməyə çalışdıqları, təkcə "şeytani ədalət təmin etmək" olar. Çünki bununla əsil hədəflədikləri şeytanın yanlış ədalət anlayışı "layiq olmadıqları haqlılıq və üstünlük əldə edə bilməkdir" ki; bu da heç vaxt müvəffəqiyyətə nail ola bilməyəcəkləri boş səydir. Bu da eynilə şeytanın aldığı qarşılıq kimi Allahın ədalətiylə qarşılıq tapar.

Hər insan öz etdiklərindən məsuldur. İnsanın başqalarını mühakimə etməsi, özüylə müqayisə etməsi axirətdəki mövqeyi baxımından özünə heç bir qazanc təmin etməz. Allah; "və yenə xeyr; özünü qınayan nəfsə də and içirəm" (Qiyamət surəsi, 2) ayəsiylə özünü qınamağı bacara bilən insanlara and içmişdir. Unudulmamalıdır ki, öz nəfsini qınaya bilmək, səhv istiqamətlərini görüb qəbul edə bilmək gözəl bir müsəlman xüsusiyyətidir. İnsan təkcə bu yolla gözəl əxlaqa nail ola biləcək və təkcə bu yolla Allahın rəhmətinə qovuşa biləcək.

## Fitnə və fəsad törətməyə çalışdıqları halda, "islah edənlər" olduqlarını söyləmələri

Allahın sonsuz ədalətini, taleyin işləyişindəki mükəmməlliyi, Quran əxlaqının insanlara gətirdiyi hüzur və rahatlığı çox yaxşı bildikləri halda, gizlicə haqsızlığa uğradıqlarına dair təəssürat verməyə çalışan insanlar, Allah dərgahında böyük məsuliyyət yüklənirlər. Bu rəftarlarıyla möminlər arasında fitnə və fəsad törətməyə istiqamətli səy içərisinə girmiş olurlar ki, Quranda bu xarakterdəki insanların, şərindən sığınılması lazım olan kəslər olduqları bildirilmişdir. Quranda "hannas" kimi adlandırılan, qəlblərə gizlicə vəsvəsə verib fəsad törədən bu insanların xarakterləri ayələrdə belə təsvir edilir:

**De: "İnsanların Rəbbinə sığınıram. İnsanların Hökmdarına, insanların (həqiqi) İlahına; "gizlicə, qəlblərə vəsvəsə və şübhə salan" vəsvəsəçinin şərindən. Belə ki, o, insanların qəlbinə vəsvəsə verər (içlərinə şübhə, xülya pıçıldayar); istər cinlərdən, istərsə də insanlardan (olan hər hannasdan Allaha sığınıram). (Nas surəsi, 1-6)**

Haqsızlığa uğradıqlarına qəti inanan bu insanlar şeytanın təlqinləriylə iman gətirənlər arasında hannaslıq edərlər. Haqlı olduqlarını sübut edə bilmək, qürurlarını qurtara bilmək naminə, möminlər arasında qarışıqlıq yaratmağa, onları da öz ruh hallarına çəkməyə çalışmaqdan heç çəkinməzlər. Belə hiyləgər səy göstərməyin dünyadakı və axirətdəki nəticələrini heç düşünmədən çirkin cəsarət göstərərlər. Müsəlmana yaraşan şəkildə yaşamağa lazımınca niyyət etmədikləri üçün demək olar ki, göstərdikləri hər rəftar, söylədikləri hər söz, yeni bir fitnə, yeni bir fəsad axtarışına istiqamətli olar. Bu vəziyyətləri özlərinə deyildiyi və rəftarlarının Quran əxlaqına uyğun olmadığı xatırladıldığı zaman isə, şeytanın təsiriylə bunu da qəbul etməzlər. Tam əksinə olduqca xoşniyyətli olduqlarını söyləyərək özlərini müdafiə edərlər. Məqsədlərinin əsla fəsad törətmək olmadığını, tam əksinə yaxşılıq etmək, həm özlərini, həm də başqalarını islah etmək, insanlara faydalı olmaq olduğunu söyləyərlər:

**...Sənə gələrək: "<u>Şübhəsiz ki, biz yaxşılıqdan və uzlaşdırmaqdan başqa şey istəmədik</u>!" deyə Allaha and içərlər? (Nisa surəsi, 62)**

Lakin Allah irəli sürdükləri bu məntiqin doğru olmadığını, əsil məqsədlərinin "fitnə törətmək" olduğunu belə bildirir:

**Özlərinə: "<u>Yer üzündə fəsad törətməyin!" deyildiyi vaxt: "Biz təkcə islah edənlərik</u>" deyərlər. Bilin ki; həqiqətən, əsil fəsad törədənlər bunlardır, lakin anlamırlar. (Bəqərə surəsi, 11-12)**

Quranın digər bir ayəsində isə Allah, şeytanların doğru yoldan azdıraraq çaşbaş vəziyyətdə qoyduqları, doğru yolda olduqlarını düşünən bu insanların dostlarına da "doğru yola, bizə gəl" şəklində çağırışlar etdiklərini bildirmişdir:

**De: "Bizə faydası və zərəri olmayan Allahdan başqa şeylərə mi ibadət edək? Allah bizi doğru yola yönəltdikdən sonra, <u>şeytanların doğru yoldan azdıraraq çaşbaş vəziyyətdə qoyduqları, dostlarının da: "Doğru yola, bizə gəl"</u> deyə özünü çağırdığı kimsə kimi geriyəmi dönək?" De: "Heç şübhəsiz, Allahın yolu, əsil yoldur. Həmçinin bizə aləmlərin Rəbbinə (özümüzü) təslim etmək əmr edildi". (Ənam surəsi, 71)**

Quranda verilən bu məlumatlar, şeytanın insanlara bütün bu rəftarları, "yaxşılıq, doğruluq və mükəmməllik", eləcə də, insanlara ədalət paylamaq naminə etdirdiyini, onların

da ətraflarındakı insanları düzgünlük naminə öz əxlaqlarına çağırdıqlarını göstərir. Halbuki bu insanlar sözlərindəki səmimiyyətsizliklərinə özləri də şahiddirlər. Şeytanın özlərini anbaan hansı sözlərlə, hansı məntiqlə necə razı salıb yönləndirdiyini; buna qarşı vicdanlarının, səhv davrandıqlarını, bundan imtina etmələrinin lazım olduğunu və doğru olan rəftarları özlərinə necə ilham etdiklərini çox yaxşı bilirlər. Şeytan gözləmədikləri bir yerdən yaxınlaşmış, öz hannaslıq xüsusiyyətini bu insanlar vasitəsi ilə yerinə yetirməyə başlamışdır. Təlqinləriylə təsiri altına aldığı bu insanların iradələrini zəiflətmiş, onları vicdanlarının səsini dinləməyəcək hala gətirmişdir.

Allah, şeytanın təsiriylə özlərini islah edənlər kimi görən, yaxşı işlər gördüklərini iddia edən bu insanların dünya həyatındakı bütün səylərinin puç olduğunu və cəhənnəmlə qarşılıq görəcəklərini bildirmiş, şeytanın bu oyununa qarşı insanları belə xəbərdar etmişdir.

**"Onların, dünya həyatındakı bütün səyləri puç olduğu halda, özlərinin həqiqətdə yaxşı işlər gördüklərini zənn edirlər". (Kəhf surəsi, 104)**

## Özlərinə deyilən sözlərin mənasını təhrif edərək, haqsızlığa uğradıqları görünüşünü verməyə çalışmaları

Şeytan insanlara həmişə haqsızlığa uğradıqları təlqini verərək onları səmimi imandan uzaqlaşdırmağa çalışar. Şeytanın təsiri altındakı bu insanların ruh hallarını əks etdirən gizli pisliklər çox təfsilatlı və çox müxtəlifdir. Bunlardan biri, xüsusən nəfslərinə ağır gəldiyini və haqsızlığa uğradıqlarını düşündükləri vaxtlarda qurduqları cümlələrdə gizlənmişdir. Bu cümlələrin ümumi mənasına baxıldığı zaman, insanın daha sonra rahatlıqla müdafiə edib şərh edə biləcəyi şəkildə olduğu görünər. Belə bir insan, vermək istədiyi şeytani mesajı cümlənin daxilinə xüsusən elə yerləşdirər ki, pis niyyətlə deyildiyi tam sübut edilə bilməz. Sanki müsbət söz deyilir və qarşı tərəfin söylədikləri təsdiq edilirmiş kimi görünər, lakin tam əksinə bu sözlər üsyan və rəddən ibarətdir. Cümlələr tərs məntiqlər əsasında qurulmuşdur. Danışmağa əvvəlcə qəbul sözləriylə başlanar, lakin cümlənin ortalarına doğru hiyləgərcə yerləşdirilən qəliblərlə insan ağlının bu mövzunu anlamadığı ifadə edilər.

Haqsızlığa uğrama meylindəki insanların bu üsuluna, bir neçə sadə mövzu ilə belə nümunə verə bilərik: məsələn, bir insana, xəstə olmaması üçün soyuq havada çölə çıxmamasının daha yaxşı ola biləcəyi deyildikdə əvvəlcə bunu qəbul edən bir cümlə qurar. "Çox doğrudur, bundan sonra bu mövzuya diqqət yetirərəm" kimi müsbət bir söz söyləyər.

Lakin bunun ardınca da, sanki üzürünü dilə gətirirmiş kimi bir ədayla şeytani üslubunu işə salar; məsələn; "haqlısan, çölə çıxmağın pis şey olduğunu düşünə bilmədim" kimi özünə tövsiyə edilən sözlə əlaqəsiz bir çıxarış edər. Bu təqdirdə qarşı tərəf ondan çox məntiqsiz və çox qəribə bir şey istəmiş mövqeyinə düşəcək, o da haqsızlığa uğramış olacaq. O da bu haqsız istəyə boyun əymiş, razılıq göstərmiş, səs çıxartmamış mövqedə olacaq. Halbuki qarşı tərəfin olduqca xeyirli tövsiyəsi insanın göstərdiyi bu səmimiyyətsiz yanaşma tərzindən olduqca uzaqdır.

Bu, cahil cəmiyyətlərdə tez-tez rast gəlinən, insanların qarşılarındakı insanları usandırmaq və ya özlərindən məntiqsiz bir şey istədiklərini ifadə etmək üçün işlətdikləri gizli və sadə üslubdur. Məsələn, bu xarakterdəki insanlara əlindəki pulu ağıllı şəkildə xərcləməsi deyildiyi zaman; "olar, çox diqqət yetirərəm heç nə yemərəm və ya içmərəm" deyərək qarşısındakı insanın söyləmək istədiyinin tam əksinə bir çıxarış edərlər. Bu, qarşı tərəfi söylədiklərinə peşman edib, sözünü geri çəkdirmək üçün işlədilən bir üsuldur. Bu yolla qarşı tərəf üstə çıxıb özünə haqsızlıq edildiyini iddia edə biləcəyi bir dəlil meydana gətirməyə çalışar. Halbuki ağıllı bir insanın, qarşısındakının sağlamlığını təhlükəyə atacaq, təbii ehtiyaclarını ödəməsinə maneə törədəcək bir təklif və ya tövsiyə verməsindən söhbət gedə bilməz.

Haqsızlığa uğrama meyli içərisində olan insanlar, iman gətirənlərin özlərini yaxşılığa çağıran sözlərinə qarşı da gündəlik həyatda işlədilən bu səmimiyyətsiz üslubla cavab verərlər. Lakin bu davranışlarıyla özlərini şeytanın əxlaqına bir az daha yaxınlaşdırmaqdan başqa nəticə əldə edə bilməzlər. Səmimi iman sahibləri Allahın; "xeyr, Biz haqqı batilin üstünə atarıq, o da onun beynini darmadağın edər. Bir də görərsən ki, o, yox olub getmişdir. (Allaha) isnad etdiyiniz sifətlərə görə vay halınıza!" (Ənbiya surəsi, 18) ayəsiylə bildirdiyi kimi, haqq ilə onların bu batil üsullarını ən gözəl şəkildə zərərsizləşdirərlər.

## Haqlı olduqlarını sübut edə bilmək üçün Quran ayələrini öz istəklərinə görə şərh etməyə çalışmaları

Haqsızlığa uğrama psixologiyasıyla hərəkət edən insanlar, haqlı olduqlarını sübut edə bilmək üçün Qurana uyğun olmayan bir çox şeyi gözə ala biləcək ruh halı içərisinə girərlər. Əvvəlki başlıq altında da toxunduğumuz kimi, bu insanlar etdikləri hiyləgər oyunlarla çox təhlükəli çıxarışlar edə bilir və qarşılarındakı insanlara çox haqsız ittihamlar yönəldə bilirlər. Bu meyllərinin davamı olaraq, nəfslərini təmizə çıxarda bilmək naminə, Quran ayələrini də öz mənfəətləri əsasında bilərək səhv şəkildə şərh etməyə çalışarlar. Quranda bu insanların

göstərdikləri davranış pozuntularını məqbul hala gətirə bilmək üçün qurduqları bu oyuna belə diqqət çəkilir:

**Ondan, Kitabın anası (təməli) olan bəzi ayələr möhkəmdir; digərləri isə mütəşabihdir. Qəlblərində əyrilik olanlar fitnə törətmək və istədikləri kimi şərh etmək üçün ondan mütəşabih olanına tabe olarlar. Onun şərhini isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır" deyərlər. Təmiz ağıl sahiblərindən başqası öyüd alıb düşünməz. (Ali İmran surəsi, 7)**

Halbuki ayədə də bildirildiyi kimi, Quran ayələri olduqca aydın və başa düşüləndir. Bu insanların səmimiyyətsizcə şərhlərlə pis əxlaqlarına dəlil axtarmağa çalışmaları, qəlblərində gizlətdikləri xəstəliyin üstünü açan mühüm bir dəlil meydana gətirir. Şeytana uyaraq qurduqları bütün tələlər kimi bu da Allahın istəyi ilə puç olar.

## Haqlı çıxa bilmək üçün iman gətirənlərə böhtan atmağa çalışmaları

Quranın bir çox ayəsində müsəlmanların bir-birlərinə böyük sevgi və sədaqətlə bağlı olduqlarından, aralarında möhkəm dostluğun olduğundan bəhs edilir. Lakin, əgər bir insan möminlərlə, imanlarından və Allah qorxularından ötrü deyil, özünə görə müəyyənləşdirdiyi mənfəətlərdən ötrü dost olsa, bu əlaqənin adi və nəfsani səbəblərlə kəsilməsi də çox asan olar. Şeytanın təsiri ilə hərəkət edən insanlar nəfslərinə zidd düşən vəziyyətlər yarandıqda, iman gətirənlərlə olan bu əlaqələrini bir anda görməzlikdən gələ bilər, haqlı olduqlarını sübut edə bilmək üçün onlara asanlıqla böhtan belə ata bilərlər. Bu yolla çirkin cəsarət göstərib ortaya yalan söz atmaqla hannaslıq etmiş də olarlar. Halbuki Allah Quranda böhtanın böyük günah olduğunu bildirir, iman gətirənləri bu cür böhtanlara qulaq asmaqdan çəkindirir:

**"O vəziyyətdə, siz onu (böhtanı) dillərinizlə ötürdünüz və haqqında məlumatınız olmayan şeyi ağızlarınızla söylədiniz və bunu asan hesab etdiniz; halbuki bu Allah dərgahında çox böyük (günah)dır. Bunu eşitdiyiniz zaman: "Bu mövzuda söz söyləmək bizə yaraşmaz. (Allahım) Sən ucasan! Bu, böyük böhtandır!" deməli deyildiniz? Əgər iman gətirənlərdənsinizsə, bunun kimi hərəkəti bir daha etməməyiniz üçün Allah sizə öyüd verir". (Nur surəsi, 15-17)**

## Başlarına gələn hadisələrin məsuliyyətini iman gətirənlərə yükləməyə çalışmaları

Özlərinə edilən xatırlatmalara qulaq asmayıb pis əxlaqlarında müqavimət göstərən insanların, haqsızlığa uğrama iddiasıyla qapıldıqları digər düşüncə də başlarına gələn çətinliklərin səbəbinin başqaları olmasıdır. Allah, imanı qavradıqları, gözəl əxlaqın tələblərini bildikləri halda, şeytanın arxasınca gedən, özlərinə verilən öyüdlərə qulaq asmayan, pisliklərində müqavimət göstərən insanlara bu vəziyyətlərini dəyişdirmələri üçün müxtəlif formalarda xəbərdarlıqlar verir. Bu xəbərdarlıqlar, dünyada və axirətdə bu insanlar üçün böyük mərhəmətdir. Şüurlarının açılıb, həqiqəti görmələri, səhv yolda olduqlarını anlayıb tövbə etmələri üçündür. Allah Quranın; "məgər onlar görmürlər ki, həqiqətən onlar hər il, bir və ya iki dəfə fəlakətə uğradılıb da tövbə etmir və öyüd alıb (dərs çıxardıb) düşünmürlər" (Tövbə surəsi, 126) ayəsiylə bu həqiqəti insanlara bildirmişdir. Digər bir ayədə isə Allah; "...bəlkə dönərlər deyə, onları əzabla yaxaladıq" (Zuxruf surəsi, 48) sözləriylə insanların başlarına gələn çətinliklərin bir hikmətinin də onların imana qayıtmaları olduğunu açıqlamışdır.

Lakin bu xəbərdarlıqlar, qəlblərindəki böyüklük və haqlılıq iddiasından ötrü bəhs olunan insanların nəfslərinə ağır gələr. Bunları anlamazlıqdan gəlməyə çalışarlar. Başlarına gələnlərin məsulunun ətraflarındakı insanlar olduğunu iddia edərlər. Allah, Quranda bu əxlaqı göstərən insanlara dair, özlərinə elçi göndərilən bir şəhər xalqının nümunəsini vermişdir:

**Dedilər: "<u>Hər halda biz, sizlərdən ötrü uğursuzluğa düçar olduq</u>. Əgər (bu söylədiklərinizə) son qoymasanız, and olsun, sizi daşa tutacağıq və bizdən sizə mütləq ağrılı əzab toxunacaq. Dedilər: "<u>Sizin uğursuzluğunuz öz ucbatınızdandır. Sizə öyüd verildiyinə görə mi (uğursuzluğa düçar oldunuz)? Xeyr, siz həddi aşan bir qövmsünüz</u>". (Yasin surəsi, 18-19)**

Ayənin davamında Allah, özlərinə öyüd verildiyi üçün uğursuzluğa düçar olduqlarını iddia edən insanların bu vəziyyətlərinin əslində həddi aşmış insanlar olmalarından qaynaqlandığını bildirmişdir. Belə vəziyyətdə Quran əxlaqına uyğun olan davranış, insanın başına gələn çətinliyin özünə Allahdan gələn bir xəbərdarlıq ola biləcəyini düşünərək Allahdan qorxması və əxlaqını düzəltməsidir.

Allahın axirətdə də əzab verə biləcəyi ehtimalını düşünmək, normal ağla sahib bir insanda ciddi qorxu və peşmançılıq meydana gətirər. Etdiklərini düşünər, tövbə edib şeytandan Allaha sığınar və niyyətini tamamilə dəyişdirər. Lakin bəzi insanlar belə vəziyyət qarşısında da şeytan ilə olan dostluqlarında qətiyyət göstərər və haqsızlığa uğradıqları düşüncəsini daha da gücləndirərək ətraflarındakı insanlara böhtan atmağa davam edərlər. Allah Quranda həmin bu insanların bu yanaşma tərzlərini başqa nümunələrlə də açıqlayır:

**Onlara bir yaxşılıq gəldiyi zaman; "bu bizim üçündür" dedilər; <u>onlara bir pislik üz verdikdə isə (bunu da) Musa və onunla birlikdə olanların uğursuzluğu kimi şərh etdilər</u>. Xəbəriniz olsun, Allah dərgahında əsil uğursuz olanlar özləridir; lakin onların çoxu bilməz. (Əraf surəsi, 131)**

**Dedilər: "<u>Sənin və səninlə birlikdə olanların ucbatından uğursuzluğa düçar olduq</u>". Dedi: "Sizin uğursuzluğunuz (başınıza gələnlər) Allah dərgahında (yazılmış)dır. Xeyr, siz sınanılan bir qövmsünüz". (Nəml surəsi, 47)**

Ayələrdən də aydın olduğu kimi, haqsızlığa uğradıqlarını iddia edən, başlarına gələnlərdən səmimi möminləri məsul tutan insanların bu vəziyyətinin əsil səbəbi heç şübhəsiz, ciddi iman zəifliyi içində olmaları və ya heç iman gətirməmələridir.

## Qəlblərindəki niyyətləri barədə zənn bəslənildiyi iddiasıyla haqsızlığa məruz qaldıqlarını söyləmələri

Bu insanların haqlı çıxa bilmək üçün işlətdikləri hiyləgər üsullardan biri də, edilən diaqnozların niyyətlərinə istiqamətli diaqnozlar olduğunu iddia etmələri və buna qarşılıq içlərindəki niyyətin heç kim tərəfindən bilinə bilməyəcəyini söyləmələridir. Bu yolla özlərinə müdaxilə edilməsinə, şəxsiyyətlərinin və çatışmayan cəhətlərinin açıqca diaqnoz edilməsinə mane olmağa çalışarlar. Halbuki müsəlmanların diaqnozları heç vaxt insanın qəlbindəki niyyətinə istiqamətli deyil. Onlar Allahın özlərinə ayələrlə bildirdiyi əlamətləri əsas götürərək diaqnoz edərlər. Lakin bu diaqnozlarının görünən əlamətlərdən əldə edilən qənaət olduğunu, həmişə ən doğrusunu Allahın biləcəyini söyləyərlər.

Şeytanın təsiri altındakı insanlar isə, onların bu mövzudakı vasvasılıqlarına və səmimiyyətlərinə şahid olduqları halda, qarşı tərəfi haqsız vəziyyətə salmaq, özlərini isə

təmizə çıxarda bilmək üçün belə ittihamla çıxış edərlər. "Qəlblərindəkini təkcə Allahın biləcəyini" söyləyərək özlərinə edilən xeyir çağırışlarını dayandırmağa çalışarlar.

## Yaxşı xüsusiyyətlərini irəli sürərək, pis xüsusiyyətlərini gizlətməyə və haqlı çıxmağa çalışmaları

Bu insanları aldadan və haqlı olduqlarını iddia etmələrini təmin edən məsələlərdən biri də sahib olduqları yaxşı xüsusiyyətləridir. Bəzi mövzularda əllərindən gələn səyi göstərdiklərini bilmələri şeytanın təsiri altındakı bu insanların özlərini kafi görmələrinə və əxlaqlarını gözəlləşdirməyə ehtiyac duymamalarına səbəb olar. Xüsusən də başqalarına görə bu mövzularda daha yaxşı olub, daha çox səy göstərmələri bu insanları tamamilə aldadar. Halbuki insanın bir mövzuda yaxşı xüsusiyyət qazanmış olması, digər yönlərini də gözəl hala gətirməz. Bəzi mövzularda müsəlmana yaraşan əxlaq göstərib, bəzi mövzularda şeytana uymaq Quran əxlaqına uyğun deyil. Bir insan Allahın özündən razı olacağı gözəl əxlaqı yaşamamaqda müqavimət göstərir, nəfsiylə zidd düşən ən kiçik mövzuda haqsızlığa uğradığını düşünə bilirsə; bu yönlərini də düzəltməlidir. Əks təqdirdə digər yönlərdəki səyləri də puç ola bilər.

Bu həqiqəti görməzlikdən gələn insanlar özlərinə hər hansı mövzudakı çatışmazlıqları deyildiyi zaman, dərhal yaxşı yönlərini gündəmə gətirərək, bunların heç görülmədiyini, həmişə mənfi yönlərinin gündəmə gətirildiyini iddia edərlər. Belə edərək səmimiyyətsizcə haqlılıq əldə etməyə çalışarlar. Halbuki əgər insanın gözəl yönləri varsa, bunlar, əlbəttə ki, açıqca görünür; həmçinin heç kim görməsə belə Allahın bilməsi insana kifayət etməlidir.

Lakin insanın yaxşı xüsusiyyətlərinin olması, çatışmayan yönlərinin görməzlikdən gəlinməsi üçün bir səbəb deyil. Çünki Allah axirətdə insanı bütün əməllərindən sorğu-sual edəcək, yaxşılıqların olduğu kimi pisliklərin də qarşılığını tam verəcək. Buna görə də, iman gətirənlərin bu çatışmazlıqları bu insana söyləmələri onun üçün olduqca xeyirlidir. Əgər bunları düzəltsə, özünə xeyir qazanacaq. Buna görə də, belə səmimiyyətsiz üsula sarılan insanlar, özlərini haqqa çağıran insanları gizli üsullarla dayandırmaq istəməklə, təkcə özlərinə pislik etmiş olacaqlar.

## Mələklər canlarını alarkən belə; "biz heç bir pislik etmirdik" deyərək haqsızlığa uğradıqlarını iddia etmələri

Haqsızlığa uğrama məntiqinin şiddətli əsirinə çevrilmiş insanlar ölüm anlarına qədər müdafiə etdikləri bu ideologiyadan imtina etməzlər. Ölüm anına qədər heç kim tərəfindən başa düşülə bilmədiklərini, lakin əslində qəlblərinin çox təmiz olduğunu, xoş niyyətlərini və günahsızlıqlarını ətraflarındakı insanlara heç cür ifadə edə bilmədiklərini iddia edərlər. Özlərini yaxşı ifadə etmələrinin qarşısının alınmasından ötrü, bu ana qədər haqsızlığa uğradıqlarını düşünərlər. Özlərini, yenə özlərindən başqa heç kimin anlamadığına inanarlar.

İnsanlara yönəltdikləri bütün bu ittihamların əsasında isə, əlbəttə ki, bütün bu yaşadıqları hadisələri yaradan Allaha olan səmimiyyətsiz yanaşma tərzləri var. Quranda bu insanların ölüm anlarında belə Allaha qarşı özlərini müdafiə etməkdə problem görmədikləri bildirilir: (Allahı tənzih edirik)

**Belə ki, mələklər, öz nəfslərinə zülm edənlərin canlarını aldıqları zaman; "<u>biz heç bir pislik etmirdik</u>!" deyə təslim olarlar. Xeyr, şübhəsiz ki, Allah sizin nələr etdiyinizi Biləndir. (Nəhl surəsi, 28)**

Həyatlarını, Allahın rizasına uymaq əvəzinə şeytanın addımlarını izləyərək keçirdiklərini, doğru yola çağırıldıqları halda, pislikdən imtina etmədiklərini və həmişə özlərini haqlı çıxardacaq bir şeylər tapdıqlarını bildikləri halda, son ana qədər özlərini müdafiə etməkdən çəkinməzlər. Haqlı çıxmağı xəstəlik halına gətirmiş bu insanların, müsəlman xarakteri göstərməmiş olmaları Quranda; "şirk qoşanlar deyəcəklər: "Allah istəsəydi, nə biz, nə də atalarımız şirk qoşar və hər hansı şeyi haram edə bilərdik". Onlardan əvvəlkilər də, Bizim çətin əzabımızı dadana qədər belə yalan hesab etdilər. De: "Sizin yanınızda, bizim üçün çıxarda biləcəyiniz bir elm mi var? Siz ancaq zənnə qapılır və siz ancaq "zənn və təxminlə yalan söyləyərsiniz" (Ənam surəsi, 148) ayəsiylə bildirilir. Digər ayələrdə isə bu mövzudakı səmimiyyətsiz yalanları belə xəbər verilir:

**Və ya: "<u>Həqiqətən Allah mənə hidayət versəydi, əlbəttə, müttəqilərdən olardım</u>" deyəcəyi... (Zumər surəsi, 57)**

**...Sən o zalımları, öz Rəbbinin hüzurunda tutulmuş vəziyyətdə görsən; sözü (ittihamları) bir-birlərinə qarşı döndərərlər (bir-birlərinə yönəldərlər). Zəiflədilənlər, təkəbbürlük edənlərə deyəcəklər: "<u>Əgər siz olmasaydınız, həqiqətən biz mömin (kəs)lər olardıq</u>". (Səba surəsi, 31)**

# Şeytanın məcburedici heç bir gücü yoxdur; insan axirətdə etdiyi pisliklərdən təkbaşına məsul olacaq

Kitabın əvvəlindən bəri qeyd edilənlər, şeytanın insanları necə hiyləgər üsullarla pisliyə sürüklədiyini, onları Quran əxlaqından uzaqlaşdırmaq üçün necə ciddi səy içərisində olduğunu göstərir. Lakin bütün bunları qiymətləndirərkən nəzərə alınması lazım olan çox mühüm bir məsələ var.

Şeytan insanlar üzərində məcburedici gücə sahib olan varlıq deyil. Pisliyə təşviq edərkən etdiyi, insanları təkcə bu əxlaqa çağırmaqdır. Ona tabe olmaq və ya üz döndərmək isə tamamilə insanın öz iradəsindən asılıdır. Allah, endirdiyi haqq kitablarla, göndərdiyi elçiləriylə insanlara hər mövzuda doğrunu və yanlışı bildirmişdir. Həmçinin Allah, insanlara həyatın hər mərhələsində, qarşılaşılan hər hadisədə hər an doğrunu ilham edən vicdanı yaratmışdır. Vicdan, Allahın istəyi ilə, insanı həmişə xeyirə çağırar. Dolayısilə nəfsində nə qədər çox pislik olsa da, hər insan bunlardan çəkinə biləcək, doğru və gözəl olanı tapa biləcək məlumata sahibdir. Buna görə də, şeytana uyan bir insan, bundan tamamilə təkbaşına məsul olduğunu bilməlidir. Axirətdə, dünya həyatında etdiyi hər davranışın hesabını "tək-tənha, təkbaşına" verəcək. Allah bu həqiqəti insanlara Quran ayələrində belə bildirir:

**And olsun, sizi ilk dəfə yaratdığımız kimi (bu gün də) "tək-tək, tək-tənha və yalqız (şəkildə) Bizə gəldiniz və sizə verdiyimiz nemətləri arxanızda qoydunuz. Aranızdan, həqiqətən ortaqlar olduqlarını zənn etdiyiniz şəfaətçilərinizi indi yanınızda görmürük. And olsun, aranızdakı (əlaqələr) kəsilmişdir və haqqlarında zənlər bəslədikləriniz sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)**

**Əsla; deməkdə olduğunu yazacaq və onun üçün əzabda(n) da möhlət verdikcə verəcəyik.**

**Onun söylədiyinə Biz varis olacağıq; o Bizə, "tək-tənha, təkbaşına" gələcək. (Məryəm surəsi, 79-80)**

**Və onların hər biri Qiyamət günü Onun hüzuruna "tək-tənha, təkbaşına" gələcək. (Məryəm surəsi, 95)**

Dünya həyatı boyunca bir an belə imtina etmədən insanı təqib edən, dostu və köməkçisi olduğunu söyləyərək ona vədlər verən şeytan isə, axirətdə əsil məsuliyyətin insanın özündə olduğunu söyləyərək onu üzüstə və tək-tənha qoyacaq. İnsanlara, etdikləri pisliklərdən ötrü onu (şeytanı) deyil, özlərini qınamalarını söyləyəcək. Çünki şeytan bu insanları təkcə pisliyə çağırmış, onlar isə, şeytanın bu çağırışına öz iradələriylə, bilərək və istəyərək tabe olmuşlar. Quranda bu həqiqət insanlara belə bildirilir:

**İş bitdikdə şeytan deyəcək: "Həqiqətən, Allah sizə həqiqi vədi verdi, mən də sizə vəd verdim, lakin sizə yalan söylədim. Mənim sizə qarşı məcburedicigücüm yox idi, təkcə sizi dəvət etdim, siz də dəvətimi qəbul etdiniz. Elə isə məni qınamayın, özünüzü qınayın. Mən sizi qurtaracaq deyiləm, siz də məni qurtaracaq deyilsiniz. Doğrusu daha əvvəl məni şərik qoşmağınızı da rədd etmişdim. Həqiqət budur ki, zalımlar üçün ağrılı əzab var". (İbrahim surəsi, 22)**

Dolayısilə dünya həyatında şeytanın əxlaqını mənimsəyən insanların axirətdə etdikləri pisliklərin məsuliyyətini şeytana yükləmələrindən qətiyyən söhbət gedə bilməz. İnsanın etdiyi pisliklər müqabilində; "bunları şeytana uyduğum üçün edirəm, buna görə də, günahsızam" kimi bir bəhanə irəli sürməsi, dünya həyatında ona hər hansı fayda verməyəcəyi kimi axirətdə də qəbul edilməyəcək. Çünki Allah, Quran ayələriylə insanlara şeytanın əxlaqını; insanlara təkcə yalan söyləyəcəyini və onları təkcə cəhənnəm əzabına sürükləmək üçün səy göstərəcəyini bildirmişdir. "Şeytanın vəziyyəti kimi; çünki insana: "inkar et" dedi, inkar etdikdə isə: "həqiqət budur ki, mən səndən uzağam. Doğrusu, Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram" dedi" (Həşr surəsi, 16) ayəsiylə, Allah şeytanın axirətdə özünə itaət edən insanları tək-tənha qoyacağını xatırlatmışdır. Quranda bildirilən bu həqiqətləri bilən bir insan, etdiyi səhvi gördüyü anda dərhal şeytandan Allaha sığınmalı, pis əxlaqında bilə-bilə israr etməməlidir. Allah möminlərin bu əxlaqını bir ayədə belə bildirir:

**"Və "çirkin bir həyasızlıq" etdikləri və ya nəfslərinə zülm etdikləri zaman, Allahı xatırlayıb dərhal günahlarından ötrü bağışlanma diləyənlərdir. Allahdan başqa kim günahları bağışlaya bilər? <u>Bir də onlar etdikləri (pis şeylərdə) bilə-bilə israr etməzlər</u>". (Ali İmran surəsi, 135)**

Vicdanı özünə doğru olanı göstərdiyi halda, pisliyi mənimsəyən və bunda qətiyyət göstərən insanlar üçün Allah Quranda belə buyurur:

**Yoxsa pis əməllər edənlər, bizi (aşıb) keçəcəklərini güman edirlər? Nə pis mühakimə yürüdürlər? (Ənkəbut surəsi, 4)**

**Xeyr; kim pis əməl işləsə və günahı özünü əhatə etsə, (artıq) o Od sakinidir və orada əbədi qalacaqdır. (Bəqərə surəsi, 81)**

**Etdiyi pis əməllər özünə cəlbedici və bəzəkli göstərilib, onu gözəl görən mi (Allah qatında qəbul ediləcək)? Artıq, şübhəsiz ki, Allah, istədiyini zəlalətə salar, istədiyini hidayətə yönəldər. Elə isə, onlara qarşı nəfsin həsrətə qapılmasın. Həqiqətən, Allah nə etdiklərinizi Biləndir. (Fatir surəsi, 8)**

Ayələrdə bildirildiyi kimi, şeytana uyaraq pislikdə israr edən insanlar üçün axirətdə sonsuza qədər davam edəcək əzab var. İnsan dünya həyatında müxtəlif bəhanələrlə özünü nə qədər günahsız göstərməyə çalışsa da, axirətdə bunların heç biri qəbul edilməyəcək. Əslində; "xeyr! İnsan öz nəfsinə qarşı bəsirətdir! Öz bəhanələrini irəli sürsə belə!" (Qiyamət surəsi, 14-15) ayələriylə xatırladıldığı şəkildə, əslində, bu bəhanələrinin səmimiyyətsiz yalandan ibarət olduğunu özü də bilir. Necə ki, axirətdə, şeytana öz iradəsiylə tabe olduğunu və doğru yoldan bilərək üz döndərdiyini böyük peşmançılıqla özü də etiraf edəcək. Quranda bu vəziyyət belə bildirilir:

**O gün, zülm edən, əllərini (qəzəblə) dişləyərək (belə) deyər: "Kaş ki, elçinin yolunu tutub gedəydim, vah yazıq olsun mənə, kaş ki,filankəsi dost tutmasaydım. Çünki o, həqiqətən mənə gəldikdən sonra məni zikrdən (Qurandan) döndərdi. Şeytan da insanı“tək-tənha və köməksiz" qoyandır". (Furqan surəsi, 27-29)**

**Odun üstündə dayandırıldıqları zaman onların bir görsən; belə deyərlər: "Kaş ki, (dünyaya bir daha) qaytarılsaydıq da, Rəbbimizin ayələrini yalan hesab etməsəydik və möminlərdən olsaydıq". (Ənam surəsi, 27)**

**Həqiqətən, Biz sizi yaxın əzab barədə xəbərdar etdik. İnsanın öz əllərinin əvvəlcədən təqdim etdiklərinə baxacağı gün, kafir olan da: "Ah, kaş ki, mən torpaq olaydım!" deyəcək. (Nəbə surəsi, 40)**

# Nəticə

Pisliyin səssiz dilini danışmağı həyat tərzi, hətta şəxsiyyətlərinin ən təməl xüsusiyyəti halına gətirən insanların mənimsədikləri bu pis əxlaq, onları heç nəzərə almadıqları şəkildə böyük ziyana düçar edər. Yaşadıqları hər gün, hər saat, bir tərəfdən səssizcə pislik etməyə çalışıb, digər tərəfdən isə təkcə şeytana açdıqları bu yönlərini insanlardan gizlətməyə çalışmaları, onları xeyli yorar. İçlərindəki getdikcə böyüyən vicdan əzabı bütün mənliklərini bürüyüb əhatə edər; bunu yox edə bilmək üçün apardıqları amansız mübarizə isə onları daxilən məhv etməyə başlayar. Beyinlərini keyidib heç nə düşünməməyə çalışaraq, içlərindəki bu səssiz, lakin bezdirici döyüşün ağırlığından xilas olmağa çalışarlar. Həllsizlik, çarəsizlik, hüzn və kədər içərisində ömürlərini hesabsız başa vurarlar.

Yaşadıqları bu əzab dolu həyat, Allahı tərk edib özlərinə şeytanı vəli tutmaları, yaxşılıq əvəzinə pisliyi özlərinə prinsip qəbul etmələrindən ötrüdür. Allah: "Yoxsa pis əməllərə batıb yara alanlar onları iman gətirib yaxşı işlər görənlərlə bir tutacağımızı, onların həyatlarının və ölümlərinin eyni olacağını güman edirlər?! Necə də pis hökm verirlər!" (Casiyə surəsi, 21) ayəsiylə, yaşadıqları bu əzab dolu həyatın "pisliyi mənimsəmələri"ndən ötrü olduğunu bildirmişdir.

Halbuki gözəl həyat yaşamaları, bu gizli əzablardan xilas olmaları öz əllərindədir. Allah insanlara xoşbəxt olmağın, bütün bu çətinliklərdən xilas olmağın yolunu göstərmiş; bunun təkcə Allahın göstərdiyi hidayət yoluna tabe olmaqla mümkün olacağını bildirmişdir: "...kim Mənim hidayətimə tabe olsa artıq o sapmaz və bədbəxt olmaz" (Taha surəsi, 123).

Etmələri lazım olan, yaşadıqları bu ziddiyyəti və özlərinə verdikləri zərəri görüb Allaha təslim olmaqdır. Bunun üçün təkcə səmimiyyətlə düşünmələri kifayətdir:

Normal ağıl səviyyəsinə sahib olan hər insan vicdanı üzərindəki basqının ruhuna və bədəninə ciddi zərər verdiyini, nə qədər sağlam olsa da, buna uzun müddət dözə bilməyərək məhv olacağını hiss edər. Öz-özünə; "bu vəziyyətə daha nə qədər dözə bilərəm?" deyə düşündüyü zaman, bunun uzun davam etməsinin mümkün olmadığını anlayar. Bu şeytani əxlaqın özünü sürətlə ölümə və əzaba yaxınlaşdırdığını qorxuyla görər. Yaşadığı hər an təkcə vicdan əzabı, sıxıntı və bədbəxtliklə dolu olacaq. Axirətdə isə şeytanı dost və sirdaş tutmasının qarşılığını, sonsuz cəhənnəm odu, peşmançılıq, əzab və kədər içərisində keçirərək alacaq.

Şüuru açıq olan hər insan, göstərdiyi pis əxlaqın dünyada və axirətdə ona gətirəcəyi bu əzabın böyüklüyünü anlayan kimi böyük qorxuya qapılar və Allaha yönəlib etdiklərindən ötrü tövbə edər. Əks təqdirdə etdiyi pisliklər böyüyərək bəlkə də düzəldilməsi mümkün olmayan nəticələrə çatacaq. Allah belə nəticə ilə qarşılaşmamaları üçün insanlara; "hər nəfsin etdiyi xeyir əməlləri hazır gördüyü və hər nə pislik işləyibdirsə onunla özü arasında

çox uzaq məsafə olmasını istədiyi o günü (düşünün)..." (Ali İmran surəsi, 30) deyə buyurmuşdur. Çünki o gün, dünya həyatında səssiz dillə edilən bütün pisliklər ortaya çıxacaq; insanın dünya həyatında sübut edilə bilməzliyinə aldanaraq, gizlətdiyini düşünərək, etdiyi pisliklər öz bədəni tərəfindən ortaya çıxarılacaq. Allah, insanın etdiyi gizli pislikləri öz bədəni vasitəsilə ortaya çıxaracağını belə bildirmişdir:

**Sonunda ora çatdıqları zaman, eşitmə, görmə (duyğuları) və dəriləri öz əleyhlərinə şahidlik edəcək. (Fussilət surəsi, 20)**

**Siz, eşitmə və görmə (duyğularınız) və dərilərinizin əleyhinizə şahidlik edəcəyindən çəkinmirdiniz. Əksinə, etdiyiniz əməllərin bir çoxunu Allahın bilməyəcəyini zənn edirdiniz. (Fussilət surəsi, 22)**

Bunun ardından; "...halbuki, onların heç nəzərə almadıqları şeylər, Allah tərəfindən özləri üçün ortaya çıxmışdır. Qazandıqları pisliklər, özləri üçün ortaya çıxmışdır və lağa qoyduqları şey də onları hərtərəfli bürümüşdür" (Zumər surəsi, 47- 48) ayələriylə bildirildiyi kimi, dünya həyatında işlətdikləri gizli və səssiz dil bütün təfsilatlarıyla ortaya çıxmış olacaq. Bu insanların vəziyyətini Allah; "...pislikləri təşkil edənlər isə; onlar üçün şiddətli əzab var..." (Fatir surəsi, 10) ayəsiylə xəbər verir.

Bütün bu həqiqətləri düşünə bilən bir insan doğrunu görməli, şeytanın insanlara böyük tələ qurduğunu anlayaraq, tezliklə onun şərindən sığınıb Allahın razı olacağı əxlaqa nail olmalıdır. Bunun yolu isə çox asandır: "pislikdən çəkinib yaxşılıqla yaşamaq (yaxşılığı prinsip qəbul etmək)". Allah, Quranda yaxşı əməllərin pis əməlləri yox edəcəyini belə bildirmişdir:

**Şübhəsiz ki, yaxşı əməllər, pis əməlləri yox edər. Bu, öyüd alanlara bir öyüddür. (Hud surəsi, 114)**

Allahın; "Şübhəsiz ki; "Bizim Rəbbimiz Allahdır!" deyib sonra düz yol tutanlar (var ha); artıq onlar üçün qorxu yoxdur və onlar kədərlənməyəcəklər" (Əhqaf surəsi, 13) ayəsiylə bildirdiyi kimi, gözəl əxlaqlarında sabitlik göstərdikləri təqdirdə, Allah bu insanların həyatlarından qorxunu, hüznü çəkib alacaq, pisliklərinin üstünü örtüb bağışlayacaq və onlara etdiklərinin ən gözəliylə qarşılıq verəcək.

İman gətirib yaxşı işlər görənlər isə; Biz, şübhəsiz ki, onların pis əməllərinin üstünü örtəcək, həmçinin, şübhəsiz ki, etdiklərinin ən gözəliylə qarşılıq verəcəyik. (Ənkəbut surəsi, 7)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün

dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia

edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

### Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal

şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz

bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar

üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**